# Azərbaycan dünyaya yaşıl qətiyyət etalonu təqdim etdi

**Son illər bir sıra enerji və nəqliyyat-logistika layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi tanınan Azərbaycan Respublikası beynəlxalq arenada mühüm tərəfdaş və strateji müttəfiq kimi öz mövqeyini getdikcə möhkəmləndirir. Hazırda isə qlobal iqlim dəyişikliklərinin mənfi təzahürləri ilə mübarizənin ön sıralarında yer alan ölkəmiz dünyanın prioritet elan etdiyi enerji keçidi platformasına da mühüm töhfələr verir. Elə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyinin də Azərbaycana etibar edilməsi məhz ölkəmizə olan beynəlxalq inam və etimadın göstəricisi idi. Sevindirici haldır ki, Azərbaycan bu mühüm vəzifənin də öhdəsindən layiqincə gələrək iqlim dəyişiklikləri ilə mübarizə sahəsində tarixi uğurlara imza atdı.**

*(ardı 8-ci səhifədə)*




# Sabun köpüyü

## *Ekspertlər həyəcan təbili çalırlar*

**Sabun köpüyü... 2018-ci il inqilabı sonrası Ermənistanda qurulmuş Qərbyönümlü hakimiyyətin ölkə iqtisadiyyatının gücləndirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində gördüyü işləri yekun nəticədə məhz belə qiymətləndirirlər. Əslində, Kreml rəsmiləri də Ermənistanın inkişafının Rusiyanın hesabına olduğunu dilə gətirirdilər, amma detallara getməyə, bir o qədər, həvəs göstərmirdilər. Niyə? Axı belə bir deyim var ki, "Alan razı, satan razı." Zamanla, necə deyərlər, açıldı sandıq, töküldü pambıq. Hə, sabun köpüyü üzə çıxdı, bu, öz yerində. Amma onun təzahürləri nədən ibarətdir, yazımızda bu barədə söz açacağıq.**

Aydındır ki, Ermənistan Rusiyanın sanksiya altında olan mallarının xarici bazarlara çıxarılması ilə məşğul olurmuş. Buna təkrar idxal deyilir. Eyni zamanda, İrəvan xaricdə Moskva üçün yasaq edilmiş malları da qarşı tərəfə çatdırırmış. Yəni, hər iki tərəf bir-birindən bəhrələnirmiş. Yoxsa, Rusiya–Ermənistan ticarət dövriyyəsinin həcminin birdən-birə 17 milyard dollara çatması proqnozu necə yaranardı?! Ermənistanda bunu qarşılayacaq infrastuktur varmı?! Əlbəttə ki, yox.

*(ardı 7-ci səhifədə)*

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 262 (30666) 28 noyabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Qlobal Cənubla qlobal Şimalı bir araya gətirən Lider

## *Azərbaycan Prezidenti yaşıl dünya naminə əks qütblər arasında həmrəylik yaratdı*



**Hər şey – məqsəd, hədəflər və onlara çatmağın yolları zərgər dəqiqliyi ilə düşünülmüşdü. COP29, əgər belə demək mümkünsə, sözünü dünyaya ərklə demək haqqını qazanmış çağdaş dövrün ən nüfuzlu siyasi liderlərindən birinin, strateq-diplomatın uğurla həyata keçirdiyi, ölkəsinin və özünün adına layiq nəhəng layihələrdən biri oldu. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) həm də Azərbaycan Prezidenti İlham Əliyevin dünya miqyasında nüfuzunun və çəkisinin növbəti təsdiqi idi.**

COP29-un əsas hədəfi inkişaf etmiş ölkələrin 2025-ci ildən başlayaraq inkişaf etməkdə olan ölkələrə istixana qazı emissiyalarının azaldılması istiqamətində tədbirlərin görülməsi üçün hər il ayırmağa hazır olduqları maliyyə vəsaiti idi. Bu yardımın mahiyyəti varlı dövlətlərin kasıb ölkələrin iqlim dəyişikliyinə sosial-iqtisadi uyğunlaşması üçün tələb olunan xərclərinin ödənməsindən ibarətdir. Belə planetar missiyanın yerinə yetirilməsini çətinləşdirən əsas amil kimi müxtəlif qütblərdə yerləşən "böyük güclər", varlı dövlətlər arasında gedən amansız iqtisadi rəqabəti, məhz qazıntı enerjisi hesabına daha böyük gəlirlərin əldə olunması uğrunda mübarizəni göstərmək olar. Yəni, qlobal Cənubla qlobal Şimalın imkanlı təmsilçilərinin iqlim kataklizmlərinin fəsadlarını aradan qaldırmaq, təbiətə vurulan ziyanın minimuma endirilməsinə nail olmaq üçün birgə əməkdaşlığa cəlb olunmasını, bu məqsədlə hazırlanmış layihələrə milyardlarla dollar vəsaitin ayrılmasını təmin etmək heç də asan vəzifə deyildi.

*(ardı 3-cü səhifədə)*

## "Şahdəniz" yatağı – Xəzərin zəngin qaz xəzinəsi



**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən dünya səviyyəli "Şahdəniz" yatağı uzun illərdir ki, Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə, ölkəmizin potensial qaz tədarükçüsü kimi rolunun artmasına xidmət edir. XXI əsrin ən böyük enerji marşrutu sayılan Cənub Qaz Dəhlizi ilə Avropaya göndərilən qaz həcmlərinin artırılması isə "Şahdəniz" layihəsi səhmdarlarının səmərəli fəaliyyətindən asılıdır.**

*(ardı 11-ci səhifədə)*

## Milli oyanışı istiqlal mübarizəsinə hazırlamış xalq xadimi



Səhifə ⇨ 13

## Gürcüstanda nələr baş verir?



Səhifə ⇨ 5



# Paşinyan ciddi sınaq qarşısında

**Ermənistan baş naziri Nikol Paşinyan ölkənin ikinci böyük şəhəri olan Gümrüdə mer səlahiyyətlərini icra edəcək şəxsin seçilməsi üçün partiyadaxili səsvermə (praymeriz) keçirmək niyyətində olduğunu açıqlayıb. Bu, ölkə tarixində ilk belə prosesdir.**

*(ardı 4-cü səhifədə)*



# Fransa Okeaniyanı da itirir?

Səhifə ⇨ 5

# “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 66-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 66-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1.“Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun 10-1.8-ci və 10-1.9-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2.həmin Qanunun 10-1.8-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3.həmin Qanunun 10-1.9-cu maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2** “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə investisiya müsabiqələrinin keçirilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1.“Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun 10-1.9-cu maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi qaydalarını və tətbiq ediləcək güzəştin həcmini üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2.bu Fərmanın 3.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əhalinin məskunlaşdığı kənd və qəsəbə sakinlərinin kənd təsərrüfatı təyinatlı torpaqları icarəyə götürmək məqsədilə “Elektron kənd təsərrüfatı” informasiya sistemi (bundan sonra – EKTİS) vasitəsilə müraciət edə bilmələri üçün onların təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin edilməsi ilə bağlı tədbirlər görsün;

3.3.“Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 66-VIIQD nömrəli Qanunundan və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

4.1.bu Fərmanın 2-ci hissəsinə və 3.1-ci bəndinə uyğun olaraq, kənd təsərrüfatı təyinatlı torpaqların (bundan sonra – torpaqlar) icarəyə verilməsinin EKTİS vasitəsilə təşkili üçün tədbirlər görsün;

4.2.bu Fərmanın 3.1-ci bəndinə uyğun olaraq kənd və qəsəbə sakinlərinin kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində bilik və bacarıqlarının artırılması məqsədilə onların təlim keçməsi üçün tədbirlər görsün.

**5** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1.işğaldan azad edilmiş ərazilər üzrə təklif daxil olduğu tarixdən iki ay müddətində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifləri əsasında torpaqların müəyyən edilməsini və 5,0 hektardan az olmayan konturlara (parsellərə) bölünməklə kompleks yerquruluşu layihələrinin hazırlanmasını təmin etsin;

5.2.bu Fərmanın 2-ci hissəsinə və 3.1-ci bəndinə uyğun olaraq icarəyə verilmiş torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatına alınmasını “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş müddətdə və qaydada təmin etsin.

**6** Bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulmuş kompleks yerquruluşu layihələrinə uyğun olaraq aşağıdakı tədbirlər görülsün:

6.1.Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, fəaliyyət istiqamətlərinə uyğun olaraq, üç ay müddətində torpaqlarda yol-nəqliyyat infrastrukturunun qurulmasını təmin etsinlər;

6.2. “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti üç ay müddətində torpaqları elektrik təchizatı şəbəkəsi ilə təmin etsin;

6.3.Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi bir il müddətində torpaqları su təchizatı şəbəkəsi ilə təmin etsin.

**7** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3–6-cı hissələrində nəzərdə tutulmuş tapşırıqların icrası ilə əlaqədar zəruri maliyyələşməni təmin etsin və tələb olunan vəsaitin növbəti illərin dövlət büdcəsində nəzərə tutulması üçün tədbirlər görsün.

**8** “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 116 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 168 (Cild I); 2024, № 6 (I kitab), maddə 665, № 8, maddə 938) aşağıdakı dəyişikliklər edilsin:

8.1.2.1-ci bənddə “və 10-1.7-ci” sözləri “, 10-1.7-ci, 10-1.8-ci və 10-1.9-cu” sözləri ilə əvəz edilsin;

8.2.aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

“2.1-1. həmin Qanunun 10-1.8-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”;

8.3.2.6-cı bənddə “maddəsində” sözü “və 10-1.9-cu maddələrində” sözləri ilə əvəz edilsin.

**9** “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1323 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 328 (Cild I); 2024, № 7, maddə 823) 1.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“1.1. kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədilə:

1.1.1. kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə investisiya müsabiqələri keçirilməsi yolu ilə icarəyə verilməsi;

1.1.2. əhalinin məskunlaşdığı kənd və qəsəbə ərazi vahidlərinin sərhədləri daxilində yaşayış məntəqələrinə yaxın kənd təsərrüfatı təyinatlı torpaqların birillik və çoxillik əkinlər üçün kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi;

1.1.3. heyvandarlığın inkişafı üçün məqsədli təyinatı biçənək, örüş və otlaq olan kənd təsərrüfatı təyinatlı torpaqların fiziki və hüquqi şəxslərə icarəyə verilməsi;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 noyabr 2024-cü il**

# Baş prokuror Qətərdə

**Noyabrın 26–27-sində Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının ikinci yüksək səviyyəli görüşündə iştirak üçün Qətər Dövlətinə işgüzar səfər edib.**



Yüksək səviyyəli iclasda çıxış edən Kamran Əliyevin Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin milli prioritetlərindən olan korrupsiyaya qarşı mübarizə sahəsində aparılmış ardıcıl islahatlar, hüquqi və institusional tədbirlər barədə xarici həmkarlarına məlumat verib, İslam ölkələri ilə əməkdaşlığa ayrılan xüsusi diqqətin çoxsaylı nümunələrindən biri kimi Məkkə Konvensiyasının qəbul edilməsi təşəbbüsünün ilkin mərhələdən etibarən Azərbaycan tərəfindən dəstəkləndiyini vurğulayıb.

Çıxışında habelə, ölkəmizin prokurorluq orqanlarının qlobal və regional anti-korrupsiya təşəbbüslərində fəal iştirakına dair məsələlərə də yer verən Kamran Əliyev cari ildə ölkəmizdə keçirilmiş dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri kimi COP29, həmin tədbir çərçivəsində Azərbaycan Prokurorluğunun xarici tərəfdaşlarla birgə təşkil etdiyi yüksək səviyyəli plenar sessiya, həmçinin Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağın uğurlarına töhfə vermiş İslam ölkələrinin nümayəndə heyətlərinə bir daha təşəkkürünü ifadə edib.

Mütərəqqi beynəlxalq təşəbbüslərə daim açıq olmaqla bu sahədə etibarlı platforma rolu oynayan ölkəmizdə aktual mövzu üzrə keçiriləcək tədbirlərə də toxunan Baş prokuror Kamran Əliyev BMT-nin “GlobE” Antikorrupsiya Şəbəkəsinin altıncı plenar sessiyasının 2025-ci ilin may ayında Bakıda keçiriləcəyini qeyd etməklə həmkarlarını həmin tədbirə dəvət edib, İƏT-ə üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının üçüncü yüksək səviyyəli görüşünə 2026-cı ildə ev sahibliyinə ölkəmizin namizədliyinə göstərilən dəstəyə görə həmkarlarına minnətdarlığını bildirib.

Tədbirdə ölkəmiz İƏT-ə Üzv Dövlətlərin antikorrupsiya qurum rəhbərlərinin Bürosunun sədr müavini seçilib.

Səfər çərçivəsində Baş prokuror Qətər dövlətinin İnzibati Nəzarət və Şəffaflıq Təşkilatının sədri Hamad Ben Nasser Al Misnad, Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya qarşı Mübarizə üzrə Qurumunun (Nazaha) Prezidenti Mazin bin İbrahim Əl Kahmus, Pakistanın ədliyyə naziri Azam Nazir Tarar, İraq Federal Dürüstlük Komitəsinin sədri Məhəmməd Əli Əl-Lami və İƏT-in Baş katibi Hüseyn İbrahim Taha ilə də görüşüb.

Tədbirlərdə ölkəmizin Qətər Dövlətindəki fövqəladə və səlahiyyətli səfiri Mahir Əliyev iştirak edib.

***XQ***

# K.H.Dadaş-zadənin Azərbaycan Milli Konservatoriyasının rektoru təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamilə Hüseyn qızı Dadaş-zadə Azərbaycan Milli Konservatoriyasının rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 noyabr 2024-cü il**

# S.Ə.Kəriminin Azərbaycan Milli Konservatoriyasının rektoru vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Siyavuş Əşrəf oğlu Kərimi Azərbaycan Milli Konservatoriyasının rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 noyabr 2024-cü il**

# A.S.Novruzovun Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azad Sevindik oğlu Novruzov Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 noyabr 2024-cü il**

# Fransızların anti-türk təbliğatı mənəvi cinayətdir

**Fransanın ARTE kanalında “Azərbaycanlılar və türklər iki qardaş xalqlardır və eyni vəhşilikləri törətməyə qadirdirlər” kimi Azərbaycana qarşı böhtan və iftiralarla dolu sənədli film yayımlanıb. Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda deyilir.**



“Qeyd edilən sənədli film XXI əsrdə irqçiliyin, Azərbaycana qarşı nifrətin Fransa cəmiyyətinin bütün sahələrinə yayılmasının daha bir nümunəsidir. Fransanın özünü diplomat adlandıran Ermənistandakı səfirinin zaman-zaman Azərbaycanı hədəf alan cılız, ölkəsini hörmətdən salan, Ermənistan cəmiyyətinin radikal hissəsini “cuşa gətirən” açıqlamaları isə irqçilikdən əlavə, həm də rəsmi Parisin siyasi isteblişmentində gedən güclü deqradasiyanı göstərir, – deyə sənəddə vurğulanır”.

***XQ***

# Azərbaycanda növbəti bələdiyyə seçkiləri təyin edilib

**Məzahir Pənahovun sədrliyi ilə noyabrın 27-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**



İclasda əvvəlcə Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkilərinin təyin olunması məsələsinə baxılıb. Sədr M.Pənahov bununla bağlı qanunvericiliyin tələbləri barədə ətraflı məlumat verib və müvafiq qərar layihəsini diqqətə çatdırıb. Komissiya üzvlərinin yekdil qərarı ilə növbəti bələdiyyə seçkiləri 2025-ci il yanvarın 29-na təyin edilib. Sədr, həmçinin bildirib ki, seçkilər 685 bələdiyyəyə keçiriləcək və 118 seçki dairəsini əhatə edəcək.

Sonra “Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı”nın hər bir hissəsi ayrı-ayrılıqda oxunub və müzakirə olunaraq təsdiq edilib.

İclasda qarşıdan gələn bələdiyyə seçkilərində vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması, habelə vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də baxılıb, komissiya üzvləri və Katibliyin əməkdaşları da daxil olmaqla, Mərkəzi Seçki Komissiyası nəzdində 9 nəfərdən ibarət tərkibdə ekspert qrupu yaradılıb. Dairə seçki komissiyaları nəzdində Seçki Məcəlləsinə uyğun şəkildə 3 nəfərdən ibarət ekspert qruplarının yaradılması isə seçki dairələrinin dairə seçki komissiyalarına həvalə edilib.

Komissiyanın iclasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində namizədliyin qeydə alınması məsələsinə Mərkəzi Seçki Komissiyasında baxılması zərurəti yarandığı halda təqdim edilmiş imza vərəqələrindəki imzaların və digər məlumatların düzgünlüyünün yenidən yoxlanılması üçün Komissiyanın nəzdində aidiyyəti qurumların mütəxəssislərindən ibarət İşçi qrupu yaradılıb və Mərkəzi Seçki Komissiyasının üzvü İşçi qrupunun rəhbəri təyin olunub.

Media subyektləri nümayəndələrinin də iştirak etdiyi iclasda, həmçinin cari məsələlərə də baxılıb.

***XQ***

# Qlobal Cənubla qlobal Şimalı bir araya gətirən Lider

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmiz COP29 zamanı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq, konsensusa nail olmaq və bu konfransın Azərbaycanın uğur hekayəsinə çevrilməsi üçün səylərini əsirgəməmişdi. Bu hədəfə çatmaqdan ötrü ölkəmiz uzun bir yol qət etmişdi. Son 30 ildə Azərbaycanın xarici siyasət prioritetləri, faktiki olaraq, dəyişməyib. Ərazi bütövlüyünün bərpası, suverenliyinin tam təmin edilməsi, müstəqilliyin möhkəmləndirilməsi, regional və beynəlxalq tərəfdaşlığın inkişafı, eləcə də çoxvektorlu siyasi xətt Azərbaycanın xarici strategiyasında prioritet olaraq qalmaqdadır. Bu kontekstdən yanaşanda rəsmi Bakının Afrika ölkələri ilə münasibətlərinin inkişafına xüsusi diqqət yetirməsi siyasi konyukturanın yox, ardıcıl və məqsədyönlü fəaliyyətin məntiqi nəticəsidir.

Uzun illər Qərbin hərtərəfli amansız istismarına məruz qalan "Qara qitə"nin "soyuq müharibə" başa çatandan sonra geosiyasi arenada çəkisinin artması Bakının kontinentlə siyasi-iqtisadi əlaqələrinin yaradılmasına və inkişaf etdirilməsinə təkan verdi. Sözümüzü ona gətiririk ki, Bakı İqlim Sammiti qlobal qütblərin kəsişdiyi məkan rolunu oynamağa iddialı idi.

* * *

Azərbaycan lideri qlobal Cənubla qlobal Şimalı bir araya gətirməyin çətinliklərini, bu çətinlikləri yaradan səbəbləri çox yaxşı bilirdi. Aydın məsələdir ki, qlobal Cənub nöqteyi-nəzərindən, bu vacib vəzifəni həyata keçirmək üçün maliyyə, texnoloji və ekspert yardımı almadan inkişaf etməkdə olan ölkələr öz öhdəliklərini yerinə yetirməkdə ciddi çətinliklərlə üzləşirlər. Hələ 1992-ci ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası müzakirə edilərkən, razılıq əldə olunmuşdu ki, inkişaf etmiş ölkələr iqlim dəyişikliyinin öhdəsindən gəlmək üçün inkişaf etməkdə olan ölkələrə maliyyə yardımı göstərməlidirlər. Son 15 ildə bu məqsədlər üçün hər il 100 milyard dollar vəsait ayrılıb.

COP29 konfransında inkişaf etməkdə olan ölkələr 2030-cu ilə qədər illik iqlim maliyyələşdirməsinin tələb olunan məbləğini 1,3 trilyon dollara çatdırmağa çalışdılar ki, bunun da 600 milyard dolları qrant şəklində olmalıdır. Bunun qarşılığında inkişaf etmiş ölkələr 250 milyard dollara razılaşdılar. Qızğın müzakirələr konfransın uzadılması zərurətinə səbəb oldu. Bu, qapalı məsləhətləşmələr təşkil edən BMT-nin müdaxiləsini tələb edirdi. Yalnız noyabrın 24-də səhər saatlarında kompromis əldə olundu. İştirakçılar inkişaf etməkdə olan ölkələrin 2035-ci ilə qədər 1,3 trilyon dollar iqlim maliyyəsi almasını təmin etmək üçün çalışacaqlar. Lakin bu hipotetik məbləğin yalnız 300 milyard dolları əsasən




inkişaf etmiş ölkələrin hökumətlərindən ikitərəfli və çoxtərəfli qrantlar və güzəştli kreditlər şəklində gələcək. Qalanı isə özəl sektordan gözlənilir.

Prezident İlham Əliyevin COP29 çərçivəsində Afrika ölkələrinin liderlərinə göstərdiyi xüsusi diqqət gələcək əməkdaşlığın perspektivi kimi izah edilməlidir. Azərbaycanın Afrika, Şərqi Asiya və Cənubi Amerikanın geniş ərazilərinə daxil olması böyük potensialdan xəbər verir. Bakı, əslində, planetin "resurs anbarı" sayılan bu bölgələrdə öz mövqeyini möhkəmləndirir. Bu zaman onu da nəzərə alır ki, böyük qloballaşma dünyasına yenicə qədəm qoyan həmin regionlara və ölkələrə təsir etmək üçün sərt rəqabət gedir. Bir qayda olaraq, "birinci dərəcəli dövlətlər" – ABŞ, Fransa, Böyük Britaniya çoxdan oradadırlar. Çin də eyni paradiqmada hərəkət edir. Rusiya da "sovet beynəlmiləlçiliyi" ənənələrinin qalıqlarından istifadə edərək bu regionlara qayıtmaq barədə düşünür. Azərbaycan bu nəhənglərlə yanaşı, Afrikada iqtisadi mövqeyini gücləndirməkdən çəkinmir. Yeri gəlmişkən, Bakının Afrika ölkələri ilə uğurlu əməkdaşlığının əsasları Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə qoyulub.

* * *

Bakı İqlim Sammitində əldə edilən uğurlardan ən önəmlisi inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələri ilə mübarizəyə əvvəlki 100 milyard dollardan üç dəfə çox – 300 milyard dolların ayrılmasıdır. Bu da iqlim böhranına qarşı daha effektiv mübarizə aparmağa imkan yaradacaq. Bakı Sammiti həm də Paris Sazişinin müvafiq maddələri çərçivəsində karbon bazarlarının yaradılması üzrə əldə olunan razılaşmalar sayəsində tarixə düşəcək. Daha dəqiq desək, COP29-da, nəhayət, ikiqat hesablamadan qaçaraq, ölkələrin karbon kreditlərini necə yarada, ticarət edə biləcəyinə dair razılığa gəlindi.

COP29-un daha bir uğur göstəricisi: Bakı Sammiti dünyanın ən böyük neft-qaz şirkətlərinin nümayəndələrinin fəal iştirak etdiyi tərəflərin ikinci konfransı oldu. Konfransın gedişində "ExxonMobil" şirkətinin prezidenti Darren Vudsun verdiyi geniş müsahibə bu mənada diqqətə layiqdir. Onun əsas mesajı ondan ibarət idi ki, müasir enerji sistemindən aşağı karbonlu sistemə keçid əhəmiyyətli maliyyə resursları tələb edir. Eyni zamanda, enerji şirkətləri pul vəsaitlərinin hərəkətini və qoyulmuş kapitalın gəlirliliyini təmin etməklə öz səhmdarlarının maraqlarını qorumalıdır. Məlumdur ki, alternativ enerjiyə keçid yolu ilə hərəkət etməyin əsas açarı texnologiyanın dəyərini azaltmaqdır. Prosesi sürətləndirmək üçün hökumət dəstəyi və təşviqləri istifadə olunur, amma son nəticədə proses bazar tərəfindən seçilməlidir. Bu məqam da COP29-un uğurlarından biridir.

* * *

Artıq inkişaf etməkdə olan ölkələr iqlim böhranına qarşı mübarizədə əlavə imkanlar qazanacaqlar. COP29-un əsas özəlliyi həm də ondan ibarətdir ki, ev sahibi kimi Azərbaycan ada dövlətlərinin, qlobal Cənub, Karib hövzəsi ölkələrinin, Afrika qitəsinin geniş təmsilçiliyini təmin etdi. BMT-nin budəfəki iqlim konfransında iştirak etmək üçün 76 mindən çox iştirakçı qeydiyyatdan keçmişdi ki, bu da rekord göstəricidir. Azərbaycan hökumətinin müvafiq strukturları yüksək təşkilatçılıq bacarıqları nümayiş etdirərək bütün iştirakçıların rahat, təhlükəsiz fəaliyyəti üçün zəruri mühiti yaratmağa nail oldular. Təsadüfi deyil ki, Azərbaycan COP tarixində Tədbirin Dayanıqlı İdarə Edilməsi və Təşkili meyarları üzrə ISO 20121 sertifikatını tədbir bitmədən əvvəl alan ilk ölkə kimi də tarixə düşdü.

BMT-nin COP29 sessiyasında bütün dünya təmiz ekologiyadan, yaşıl dünyadan pafosla danışan inkişaf etmiş ölkələrin gerçək üzünü gördü. Azərbaycan Prezidenti COP29 Liderlər Sammitində bunu açıq şəkildə vurğuladı. Həmin çıxış problemə yalnız Azərbaycanın deyil, qlobal Cənub ölkələrinin yanaşmasının ifadəsi idi. Doğrudan da, COP29-da qlobal Cənubun real ehtiyacları ilə yanaşı, qlobal Şimalın buna etinasızlığı aşkar şəkildə nümayiş olundu. Əlbəttə, buna yalnız təəssüflənmək olar. Məlum oldu ki, Qərbin aparıcı dövlətləri boyunlarına götürdükləri öhdəliklərə əməl etmək istəmirlər. Qlobal Cənubla qlobal Şimal arasında səmərəli dialoqun qurulmasına çalışan, konfransın maksimum nəticə ilə başa çatması üçün bütün resurslarını səfərbər edən Azərbaycan isə məkrli şəkildə hədəfə alınırdı. Bu qərəzli münasibət hələ ötən ilin dekabr ayında – Azərbaycanın ev sahibi olması barədə qərar verilərkən başlanmışdı və proses bütün hazırlıq dövründə davam etdi. Heç indi də səngiməyib.

* * *

BMT-nin COP29 sessiyasında beynəlxalq ictimaiyyətin təzyiqləri ilə üzləşən Qərbin inkişaf etmiş ölkələri güzəştə getməli oldular. Bununla paralel olaraq, inkişaf etməkdə olan ölkələr də iddialarını azaltdılar. Bu razılaşmanın məhz Azərbaycanın sədrliyi ilə əldə olunması nə qədər təqdirəlayiq hal sayılırsa, onun layihə müəllifinin İlham Əliyev olduğu heç kəsdə şübhə doğurmur.

Azərbaycan Prezidenti inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqlim dəyişmələrinə görə bir-birini, günahlandırmaq əvəzinə öz imkanları daxilində problemlərin həllinə töhfə verməli olduqlarını xatırlatdı. Bakı Sammitinin gedişində dövlətimizin başçısı yaşıl dünya naminə hətta bir-birinə əks qütblərdə dayanan ölkələr arasında həmrəyliyi təmin etməyi bacardı. Dövlətimizin başçısı "Yaşıl dünya naminə həmrəy olaq!" şüarı ilə iqlim dəyişmələrinə qarşı mübarizə kimi mühüm qlobal məsələdə nümunəvi liderlik sərgilədi. Dünyanın bütün ölkələrini yaşıl, ədalətli və sabit dünya naminə əl-ələ verib çalışmağa, bu işdə həmrəy olmağa çağırdı.

Beləliklə, İlham Əliyev "kollektiv Qərb"in, ermənipərəst düşərgənin çeşidli maneçilik cəhdlərinə baxmayaraq, COP29-la bağlı bütün planlarını uğurla həyata keçirdi və Azərbaycanın ən yeni tarixinin daha bir şanlı səhifəsinə imzasını qoydu.

***İmran BƏDİRXANLI***
***XQ***

# Rəsmi İrəvan və Aİİ platforması

## Qurumun Sankt-Peterburq zirvə toplantısına hazırlığı

**Ermənistan üzvü olduğu və Rusiyanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqının sədridir. Söhbət rotasiya qaydasındakı bir illik sədrlikdən gedir və onun müddəti dekabrda bitir. Daha dəqiq desək, bu il dekabrın 25-də.**



Qeyd edək ki, Ermənistan sədrliyi ötən il Rusiyadan Aİİ-nin Sankt-Peterburqda keçirilmiş toplantısında təhvil almışdı. Əslində, növbəti, yəni builki toplantı İrəvanda olmalı idi. Amma orada keçirilməyəcək. Çünki Ermənistan rəhbərliyi tədbirin Rusiyada təşkilini xahiş edib. Əlbəttə, az ehtimal var ki, İrəvanın xahişi etika xatirinədir. Nəzərə alaq ki, Aİİ bu il 10 illiyini qeyd edir və kiçik yubileyin qurumda ağırlıq mərkəzinə sahib ölkədə təşkilində məntiq var. Amma…

Əmması budur ki, Ermənistan rəhbərliyinin, prinsipcə, Aİİ üzvlərini İrəvanda görmək istəyi yoxdur. Təsəvvür edin, Ali Avrasiya İqtisadi Şurasının iclası Ermənistanın paytaxtında təşkil olunur və tədbirə Rusiya Prezidenti Vladimir Putinin gəlməsi mütləqdir. O Putinin ki, İrəvanın qoşulduğu Roma statutuna görə ölkəyə daxil olacağı təqdirdə saxlanılmalıdır. Çünki Beynəlxalq Cinayət Məhkəməsi onun həbsinə dair order çıxarıb.

Ermənistan rəhbərliyinin Putinin həbsi üçün cəsarəti çatmaz. Həbsin olmaması isə Qərbin xoşuna gəlməyəcək. Üstəlik, baş nazir Nikol Paşinyanın Belarus Prezidenti Aleksandr Lukaşenkonu görməyə gözü yoxdur. Yada salaq ki, Lukaşenkonun Şuşaya səfərinin isti notlarla yadda qalması Ermənistanda böyük hay-küy doğurmuşdu və bu vay-şivən fonunda Nikol rəsmi Minsklə, az qala, diplomatik əlaqələrin kəsiləcəyi effekti verən bəyanatlar səsləndirmişdi. O demişdi ki, özü Belarusa getmir və heç bir erməni məmurunun da ora yollanmasına razı deyil, bununla əlaqədar müvafiq göstəriş verib.

Bəli, Ali Avrasiya Şurasının sammitinin Sankt-Peterburqda keçirilməsi Ermənistana məhz qeyd etdiyimiz səbəblərdən sərfəlidir. Baxmayaraq ki, iclasa sədrliyi N.Paşinyan etməlidir və edəcək də. Bunu Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov keçirdiyi brifinq zamanı deyib. Paşinyan sədrlik postundan necə istifadə edəcək, maraqlıdır. Hər halda, yaxşı heç nə gözləməyə dəyməz. Çünki sabiq sovet respublikalarını bir araya gətirən platformaların Ermənistan üçün siyasi diskomfort yaşatdığını görürük. Məsələn, rəsmi İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iclaslarını boykot yolunu tutur, erməni rəsmilər MDB çərçivəsindəki toplantılara bir o qədər maraq göstərmirlər.

Əlbəttə, Ermənistan – Aİİ əməkdaşlığındakı mənfi çalarlardan danışmağa dəyməz. Çünki onlar, ilk baxışdan, yox dərəcəsindədir. Görünür, İrəvanda oturduqları budağın kəsilməsinin düzgün olmadığını düşünənlər hələ qalıb. Həm də ona görə ki, Rusiya – Ermənistan gizli əməkdaşlığı var. Söhbət sanksiya altında olan rus mallarının Ermənistan vasitəsilə xarici ölkələrə daşınmasından gedir. Hər iki tərəf bunu ölkələr arasında ticarət dövriyyəsinin artımı kimi qiymətləndirir. Amma, faktiki olaraq, ortada dövlət səviyyəsində gerçəkləşdirilən qaçaqmalçılıq əməli var. Nəzərə alaq ki, Ermənistan, həmçinin, xaricdən Rusiyaya daşınması yasaqlanmış malların da ölkəyə çatdırılmasını təmin edir. Bunu Paşinyan hakimiyyətini dəstəkləyən Qərb dairələri gözəl bilsələr də, susurlar. Ona görə ki, Ermənistanı saxlamaq üçün əllərini ciblərinə atmaq çətinliyindən qurtulublar. Vəziyyət nə vəxtadək sürəcək, müəyyən deyil. Çünki Rusiya – Ukrayna müharibəsi davam edir və el dili ilə ifadə etsək, bu xəmir hələ çox su aparacaq.

Əlqərəz, Aİİ Ermənistan üçün vacib iqtisadi platforma kimi cəlbediciliyini saxlamaqdadır. Amma demək olmaz ki, Paşinyan ölkəsinin anti-Rusiya ritorikasını bu platformaya daşımağı düşünməyib. Düşünüb və bunun ayrı-ayrı elementləri Nikolun Ali Avrasiya İqtisadi Şurasının ötən il dekabrın 25-də Sankt-Peterburqda keçirilmiş iclasında özünü göstərmişdi. Erməni baş nazir həmin iclasdakı çıxışında bildirmişdi ki, Aİİ-nin yaradılmasına dair saziş qurumun iqtisadi birlik olması ilə bağlı fundamental postulata əsaslanır və onun siyasi gündəmi olmamalıdır.

N.Paşinyan bildirmək istəmişdi ki, Ermənistan siyasi anlamda Qərb düşərgəsi ilə həmrəydir. Yəni, o, bir il əvvəl Rusiyanın platformasında Qərbə sadiqlik mesajı vermişdi. Bu, o demək idi ki, Aİİ-də təmsilçilik Ermənistan üçün yalnız iqtisadi müstəvidə əhəmiyyətlidir. İkincisi, hazırda Ermənistan iqtisadi inkişaf tempi ilə öyünür. Bu inkişafdakı dövlət qaçaqmalçılığı seqmentini vurğuladıq. Ümumən isə Rusiyadan Ermənistana daxilolmaların səviyyəsi də yüksəkdir.

Paşinyan bu reallğı bilsə də, həyasızlığa üstünlük verir və bir il əvvəl də eyni cür davranmışdı. Belə yanaşma, müəyyən mənada, qabaqdangəlmişlikdir. Çünki Nikol Kremlin Ermənistanı öz orbitinə qaytarmaq istəyindən agahdır və ümid etmişdi ki, bu istək birincini ikinciyə qarşı sərt tədbirlərdən daşındıracaq. Ona görə də yuxarıda vurğuladığımız şərt dilini işə salmışdı.

Bəli, bu gün də Moskva İrəvanı itirmək istəmir. Ona görə də Aİİ platformasını onun üçün açıq saxlayır. Bir il əvvəl də elə idi. Ona görə üzünü tamamilə Qərbə çevirmiş Ermənistan hakimiyyətinin Aİİ-ni sırf iqtisadi təşkilat kimi qələmə verib həyasızlığa baş vurmasına dözmüşdü. Qərb isə düşünmüşdü ki, Ermənistandakı 2018-ci il inqilabının nəticələrini Rusiyanın qlobal industriyasının maliyyəsi hesabına qoruyub-saxlasın və bu barədə söz açdıq. Nəzərə alaq ki, Qərb indi də Rusiyanın Ermənistana yenidən yiyələnmək sevdası üzərinə oyun qurur.

Amma düşünək ki, Aİİ-də təmsil olunan, indilik ona sədrliyi həyata keçirən Ermənistan anti-Rusiya ritorikasındakı dozanı daha yüksək fazaya qaldırır. Məhz o zaman N.Paşinyan Aİİ-nin sırf iqtisadi zəminli təşkilat olması fikrini tirajlamaqla, qurumu gözdən salmağa girişəcək və daha gur səslə deyəcək ki, Aİİ-nin geosiyasi gündəmi olmamalıdır.

Aydın məsələdir ki, Aİİ postsovet məkanında Qərbin analoji təsisatlarına alternativ məqsədilə yaradılmış qurumdur. Bu qurumda geosiyasi gündəmin istisnalılığını vurğulamaq təsəvvürə gətirilməyəcək qədər sərsəm mahiyyətli tezisdir. Amma erməni iqtidarı üçün hər cür sərsəmlik yolverilləndir. Sərsəmliyin daha bir göstəricisi var. Məsələn, Ermənistanın baş naziri ötən il Aİİ-nin 2030–2045-ci illər üçün iqtisadi proseslərin gələcək inkişafı haqqında bəyannaməsinin imzalanması zərurətindən söz açarkən, daha doğrusu, qurumun inkişafının konseptual və prioritet istiqamətlərinə əsaslanmış bəyannamə barədə demişdi: "Aİİ və onun iqtisadi prinsipləri siyasi ambisiyalarla əlaqələndirilməməlidir. Ticarət və inteqrasiyanın əsas azadlıqları siyasi mülahizələrə görə məhdudlaşdırıla bilməz və məhdudlaşdırılmamalıdır. Bu, birləşmənin fundamental prinsiplərinin korroziyasına gətirib çıxaracaq".

N.Paşinyanın ötən ilki fikirlərindən belə qənaətə gəlmək mümkündür ki, Ermənistanın Aİİ-yə sədrliyi təşkilatın içinə qoyulmuş bomba kimi bir şey idi. O da məlum idi ki, Paşinyan iqtidarı Rusiyanın hakim rol oynadığı və özünün də təmsil olunduğu bütün təşkilatların işini iflic etməyə, əhəmiyyətini heçə endirməyə çalışdığı kimi, bu qurumu da siyasi ambisiyalarının reallaşdırılması vasitəsinə çevirməyə cəhd göstərəcək. Ancaq göründüyü kimi, ötən bir ildə Rusiya Nikolun oyunbazlığına təmkinlə yanaşdı. Nəticədə Paşinyanın anti-Rusiya ritorikasının Aİİ səngəri işlək olmadı. Belədə sual yaranır: Dekabrın 25-də Sankt-Peterburqda nə olacaq? Daha doğrusu, Ermənistan özünü necə aparacaq? Bunu isə əlahəzrət zaman göstərəcək. Yaşayarıq görərik.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Paşinyan ciddi sınaq qarşısında

*Gümrüdə praymeriz keçirmək istəyən Nikol növbəti parlament seçkilərində məğlubiyyətdən yayınmağa çalışır*



(əvvəli 1-ci səhifədə)

N.Paşinyanın sözlərinə görə, səsvermə hakim “Mülki müqavilə” partiyasının üzvləri və ya tərəfdaşları arasında keçiriləcək. Praymeriz dekabrın 8, 9 və 10-da Gümrüdə baş tutacaq.

Güman etmək olar ki, N.Paşinyanın praymeriz keçirmək ideyası onun qarşıdan gələn parlament seçkiləri ilə bağlı narahatlığından irəli gəlir. Məsələ ondadır ki, 2026-cı ildə Ermənistanda qanunverici orqana növbəti seçkilər keçiriləcək. Paşinyanın praymeriz ideyası ilə yanaşı son vaxtlar atdığı bir sıra digər addımlar da onun bütün gücünü səfərbər edərək seçkilərdə qalib gəlməyə çalışdığını göstərir. Nikol başa düşür ki, indi nə “narıncı inqilab”ın baş verdiyi 2018-ci ilin mayı, nə də növbədənkənar seçkilərin keçirildiyi 2021-ci ilin iyunudur. 2018-ci ildə Ermənistan əhalisi ölkəni 20 il ərzində çapıb-talamış Qarabağ klanının hakimiyyətindən təngə gəlmişdi. Həmin il klanın nümayəndəsi Serj Sarkisyanın ikinci prezidentlik müddəti başa çatmışdı və o, konstitusiyaya dəyişiklik edərək baş nazir kimi ölkəyə rəhbərlik etməyə hazırlaşırdı. Ermənistan əhalisi isə qətiyyətlə buna qarşı çıxırdı. Onlar kimə olsa, səs verməyə hazır idilər. İstəkləri sadəcə, Koçaryan–Sarkisyan rejiminə son qoyulması idi. Belə bir ərəfədə N.Paşinyan meydana çıxdı. Paşinyan indi praymeriz keçirməyə hazırlaşdığı Gümrü şəhərindən 2018-ci ilin martın 31-də İrəvana doğru iki həftəlik yürüşə başladı. Məlumdur ki, onun sıraları getdikcə genişləndi və aprelin 23-də S.Sarkisyan istefa verməyə məcbur oldu.

2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onun ciddi sınaq qarşısında qoydu. Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında üçtərəfli bəyanatın imzalandığı gecədən etibarən İrəvanda və ölkənin digər şəhər və rayonlarında ciddi iğtişaşlar və kütləvi etirazlar başladı. Bütün payız-qış ayları boyunca davam edən etiraz dalğası sonda Paşinyanın növbədənkənar seçkilər təyin etməsinə gətirib çıxardı. 2021-ci il iyunun 21-də baş tutan seçkilərdə Paşinyan gözlənilmədən qələbə qazandı. Paşinyanın rəhbərlik etdiyi fraksiya 53,92 faiz səs topladı. Yeri gəlmişkən, qeyd edək ki, ikinci yeri Qarabağ klanının “xaç atası” Robert Koçaryanın bloku tutdu – 21,04 faiz. Müxalifət ciddi qanun pozuntularına yol verildiyini bildirdi və nəticələrlə bağlı konstitusiya məhkəməsinə şikayət etdi. Lakin “BBC” rus xidmətinin də qeyd etdiyi kimi, Paşinyana səs verənlərin çoxu öz səslərini daha çox 20 il hakimiyyətdə olmuş və “məxməri inqilab” zamanı devrilmiş iki prezidentin koalisiyasına, necə deyərlər, etiraz səsi hesab ediblər. Eyni zamanda, Rusiya, MDB və KTMT də daxil olmaqla, müşahidə missiyaları ciddi pozuntuların olmadığını bəyan etmiş və seçkiləri yüksək qiymətləndirmişlər. Buna görə də nəticələri mübahisələndirmək asan olmadı. Avropa Şurasının baş katibi Mariya Peyçinoviç – Buriç isə Paşinyanı qələbə münasibətilə təbrik edərək seçkilərin yaxşı təşkilatçılıq və inkişaf etmiş rəqabət şəraitində keçirildiyini bildirdi.

Bundan əlavə, Ermənistan əhalisi başa düşürdü ki, Qarabağ klanının qayıdışı Azərbaycanla yenidən müharibənin başlanması demək olacaq. Yeni müharibə isə Ermənistanın daha ciddi insan itkisi ilə üzləşməsi, ölkənin maddi cəhətdən daha böyük ziyana məruz qalması idi. Bu səbəbdən haylar, Paşinyana yenidən etimad göstərməklə, əslində, yeni müharibəyə “yox!” dedilər.

İndi isə durum bir qədər fərqlidir. Paşinyanın rəhbərlik etdiyi komanda ötən müddət ərzində verdiyi vədlərin əksəriyyətini yerinə yetirə bilməyib. Bu müddətdə vətəndaşların rifah halının yaxşılaşması istiqamətində ciddi nailiyyətlər əldə olunmayıb. Nə daxili, nə də xarici siyasətdə nəzərəçarpacaq uğurlara imza atılıb. 2021-ci ildən sonra baş verən bir sıra hadisələr, o cümlədən 2023-cü ilin sentyabrında lokal xaraketli antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa etməsi, bu ilin aprelində Qazax rayonunun işğal altındakı 4 kəndinin bir güllə atılmadan qaytarılması Ermənistanda Paşinyana qarşı çıxanların sayının artmasına səbəb olub.

Qazax rayonunun kəndlərinin qaytarılmasından sonra erməni apostol kilsəsinin Tavuş vilayəti üzrə yeparxiyasının arxiyepiskopu Baqrat Qalstanyanın başçılığı ilə müxalifət etiraz hərəkatına başladı. Qalstanyan elə Paşinyanın istifadə etdiyi metoddan yararlanaraq, piyada İcevandan İrəvana doğru yürüşə başladı. Etirazçılar mayın 9-da paytaxta çatdı. Həmin gün Paşinyan iqtidarına qarşı son illərin ən böyük mitinqi keçirildi. Təxminən 35 min nəfər N.Paşinyanın istefası tələbi ilə küçələrə çıxdı. Etirazları həm rusiyayönlü, həm də qərbyönlü müxalifət partiyaları və ittifaqları – “Ermənistan alyansı”, “Daşnaksütyun”, Milli–demokratik qütb və digərləri, eləcə də S.Sarkisyan və R.Koçaryan dəstəklədi. Mayın 26-da erməni müxalifəti arxiyepiskopu baş nazir vəzifəsinə irəli sürdü. Siyasi partiyaların, dövlət qurumlarının, elm və mədəniyyət dairələrinin nümayəndələri, habelə iş adamları və hüquqşünaslarla məsləhətləşmələrdən sonra onun namizədliyi təsdiq edildi.

İyunun 12-də isə İrəvanın Baqramyan prospekti ilə Dəmirçyan küçəsinin kəsişməsində polislə nümayişçilər arasında toqquşma baş verdi. Etirazçılar polisə şüşə və daş atdılar. Öz növbəsində polis heç bir xəbərdarlıq etmədən səs-küy qumbaralarından istifadə etməyə və insanları zorla dağıtmağa başladı. Nəticədə yüzə yaxın adam yaralandı, polislər arasında da yaralılar oldu. Etirazlarda iştirak edən 12 nəfərə qarşı kütləvi iğtişaşlarda iştiraka görə cinayət işi başlandı. Bu ilin sentyabrından B.Qalstanyan etiraz aksiyalarına yenidən başladıqlarını açıqladı.

Paşinyan ötən dövr ərzində daha bir ciddi sınaqla da üzləşib. Onun yaxın silahdaşı, “Mülki müqavilə” partiyasının qurucularından olan Tiqran Avinyan 2013-cü il sentyabrın 17-də keçirilən İrəvan meri seçkilərində çox çətinliklə qalib gələ bildi. Təsadüfi deyil ki, N.Paşinyanın ölkə üzrə reytinqi hazırda ən aşağı həddədir. Onun 2026-cı ilin parlament seçkilərində qalib gəlmək şansları aşağı qiymətləndirilir.

Təsadüfi deyil ki, Paşinyan son vaxtlar “Mülki müqavilə” partiyasının qərargahına çox tez-tez gedir. Nikol baş nazir aparatında iş vaxtı başa çatdıqdan sonra qərargaha gedir, bəzən gecədən keçənədək partiyadaşları ilə gələcək planları, fəaliyyət istiqamətlərini müzakirə edir. Güman etmək olar ki, onun Gümrüdə praymeriz keçirmək ideyası da yaxınlaşan seçkilərlə bağlı duyduğu narahatlıqdan irəli gəlir. Paşinyan ABŞ-də siyasi partiyalar daxilində mövcud olan bu qaydanı sınaqdan keçirməklə onun Ermənistan mühitində nə qədər effektiv olub-olmadığını yoxlamaq istəyir. Bir sözlə, bütün mümkün siyasi texnologiyalardan istifadə etməyə çalışır ki, növbəti seçkilərdə məğlub olmasın. Bir neçə gün öncə hüquq-mühafizə sistemində yüksək vəzifələr tutan bir sıra şəxslərin – daxili işlər naziri Vahe Qazaryanın, istintaq komitəsinin sədri Argişti Karamyanın, korrupsiyaya qarşı mübarizə komitəsinin sədri Sasun Xaçatryanın, ali məhkəmə şurasının sədri Karen Andreasyanın, ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyanın və dövlət gəlirləri komitəsinin sədri Rüstəm Badasyanın işdən çıxarılmaları da seçkiyə hazırlığın əlamətləri kimi qiymətləndirilə bilər.

Bu istiqamətdə fikirlərini bizimlə bölüşən **politoloq İlyas Hüseynov** bildirdi ki, Ermənistanda bütün proseslər Qərblə yaxınlaşmaq siyasi kursuna, eləcə də Rusiyanın geosiyasi oxundan ayrılmağa yönəlib. Ermənistanın Qərbdəki kuratorları tamamilə yeni yanaşmalar tələb edirlər, digər tərəfdən İrəvan da özünü daha demokratik, daha azad ölkə kimi təqdim etmək istəyir: “Gümrü şəhərində mer seçkiləri ilə bağlı praymerizin keçirilməsinin altında gizlənən səbəblər də Qərbə yaxınlaşmaq motivləridir”.



Politoloq Gümrü şəhərinin kifayət qədər strateji bir yer olduğunu vurğuladı. Qeyd etdi ki, burada Rusiya Silahlı Qüvvələrinin Cənub Hərbi Dairəsinin 102 saylı bazası yerləşir. Sovet dövründə Leninakan adlanan Gümrü “soyuq müharibə” dövründə də mühüm əhəmiyyətə malik bölgə hesab olunurdu. SSRİ–NATO sərhədi bu şəhərin, demək olar ki, yaxınlığından keçirdi: “İndi isə Rusiya öz geopolitik maraqlarını təmin etmək və bölgə üzərində dominantlığı formalaşdırmaq üçün Gümrüdəki bazanı özü üçün dayaq nöqtəsi hesab edir. Ermənistan isə “burada və indi” siyasətini tətbiq etməkdə maraqlıdır. Rusiya–Ukrayna müharibəsinin gedişindən maksimum iqtisadi fayda götürərək geopolitik məzmunda müəyyən gedişlər edir. Ermənistan–İran sərhədindən və İrəvandakı “Zvartnots” hava limanından rusiyalı hərbçilərin çıxarılması da bunun göstəricisidir”.

İ.Hüseynovun sözlərinə görə, kifayət qədər mürəkkəb siyasi gedişlər fonunda biz görürük ki, Paşinyan iqtidarı, necə deyərlər, Qərb standartarına uyğun şəkildə Gümrüdə şəhər meri seçkilərinə gedir. Bunun arxasında həm də Paşinyanın özünün şəxsi maraqları dayanır.

***Səxavət HƏMİD***
***XQ***

**REPLİKA**

**Səhv etmirəmsə, Emmanuel Kantın fikridir: “İnsanlar vərdiş halını almış əxlaqsız hərəkətlərinə görə xəcalət hissi keçirməyi yadırğayırlar.” Yəni, bu cür davranış sahibləri üçün ictimai qınaq, yaxud Femida ittihamı öz əhəmiyyətini itirir.**

Bu günlərdə Fransanın “Arte.TV” telekanalında bir sənədli film nümayiş etdirilib. Burada Azərbaycan haqqında obyektivlikdən uzaq olması bir tərəfə, elementar əxlaq normaları ilə bir araya sığmayan, erməni riyakarlığının növbəti təcəssümü sayılan “ekran əsərindən” söhbət gedir. “Ermənistan: hadisələrin mərkəzində” adlandırılan film Qarabağ müharibəsindən və ermənilərin çəkdikləri “minbir əzab-əziyyətdən, məşəqqətlərdən” bəhs edir. Azərbaycanın ünvanına şər-böhtanla dolu, efir zibili sayılmağa layiq “sənədli film”də Birinci Qarabağ savaşında, guya, “ermənilərin deportasiyası” kimi nümayiş etdirilən kadrlar bilirsiniz haradan götürülüb? Bizim operatorların 1993-cü il aprelin 2-də Kəlbəcərin işğalı zamanı soydaşlarımızın öz ata-baba yurdlarını məcburən tərk etdiklərini lentə aldıqları görüntülərdən.

# Fransızsayağı rəzalət



“Arte.TV” telekanalının siyasi əxlaqsızlıq nümunəsi sayıla biləcək bu saxtakarlığı fransız tamaşaçılara nümayiş etdirən telekanal “söz və mətbuat azadlığının fontan vurduğu” Fransa qanunvericiliyindən gen-bol yararlanıb. Telekanalın “ekspert” qismində istifadə etdiyi şəxs ötən əsrin 90-cı illərində azərbaycanlıların “yazıq və məzlum ermənilərə verdiyi zülmlərdən” danışır. Riçard Kirakosyan haylara tutulan “divanı” 1915-ci ilin qondarma soyqırımı ilə müqayisə etməyi də unutmur. Bu zaman “tarixi paralellər” apararaq, türklərin və azərbaycanlıların bu cür vəhşilikləri törətməyə qadir “qardaş millət” olduqlarını ərz edir.

Bu “sənədli saxtakarlıq” nümunəsi 3 həftə bundan əvvəl internet resurslarında yerləşdiriləndən və azərbaycanlıların kəskin şərh və etirazlarından sonra “Arte.TV” bundan daha əxlaqsız varianta əl ataraq, “film”ə girişi bloklayıb. Üstəlik, soydaşlarımızın fakt və dəlillərə əsasən yazdıqları şərhlər, o cümlədən fotolar, videolar silinib. Efirdə nümayiş etdirilən bu film Azərbaycana münasibətdə fransız mediasının əxlaqsızlığının ən yüksək dərəcəyə çatmasının əyani sübutudur.

*

Fransada yaşayan ermənilərin əli ilə, həm də rəsmi Parisin dəstəyi sayəsində Azərbaycana qarşı bu cür ideoloji təxribatlar birinci dəfə deyil baş verir. İki il bundan əvvəl erməni əsilli rejissoru Nare Tatevosyanın lentə aldığı “Ermənistan: müqəddəs torpaq” filmi işğal dövründə Qarabağda baş verənlərdən bəhs edir. Daha doğrusu, Qarabağın füsunkar təbiətinin fonunda “əsrlər boyu bu torpaqlarda yaşayıb yaradan” ermənilərin “müqəddəs torpaqlarının, qriqorian kilsələrinin” qeydinə necə “həssaslıqla” qaldıqlarından danışır. Filmdə “erməni kilsələri” kimi qədim alban məbədləri nümayiş etdirilir. Bu məbədlərin XIX əsrin sonlarından etibarən Qarabağa köçürülmüş nə ermənilərə, nə də onların dininə heç bir aidiyyatı olmadığını fransız tarixçiləri də yaxşı bilirlər. Təkcə diplomatik deyil, siyasi ədəb və əxlaq normalarını aşmış Fransanın Azərbaycana qarşı təxribatlarının bir adı var: rəzalət!

Şübhə etmirik ki, bu cür rəzalətə şərait yaradan ölkənin sağlam düşüncəyə və heç bir məntiqə sığmayan davranışına Azərbaycan rəsmi səviyyədə kəskin etirazını bildirəcək.

***İ.HƏSƏNQALA***
***XQ***

# Polşa liderinin “binokl şousu”na qoşulması dostluğumuza zərbədir

**Polşa Prezidenti Andjey Dudanın Aİ-nin Ermənistandakı Missiyasının (EUMA) üzvləri ilə birgə Ermənistan–Azərbaycan sərhəd bölgəsinə səfəri Aİ-nin müxtəlif üzv ölkələrinin və Avropa institutlarının anti-Azərbaycan siyasətinin növbəti nümayişidir.**



Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin “X” hesabında paylaşım edilib.

“Azərbaycanın “strateji tərəfdaşı” olan ölkənin prezidentinin Azərbaycan və Polşa arasında münasibətlərin gərginləşməsinə səbəb olan qəbuledilməz diplomatik “binokl şousu”nda iştirak etməsindən dərin təəssüf hissi keçiririk”, – məlumatda qeyd olunub.

Bildirilib ki, Azərbaycan rəsmilərinin Polşanın Prezident Administrasiyasına və Xarici İşlər Nazirliyinə göndərdiyi çoxsaylı mesajlara baxmayaraq, Polşa tərəfi bu təxribatçı addımdan çəkinməyib: “Azərbaycan bu qeyri-dost addıma qarşı müvafiq diplomatik tədbirlər görmək hüququnu özündə saxlayır”.

Xatırladaq ki, A.Duda Ermənistanda rəsmi səfərdədir.

**XQ**

# Məsuliyyətsizlik

## Dövlətin uğurlu sosial siyasətinə kölgə salmaq cəhdləri

**Dinamik iqtisadi inkişafı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən, öz ərazi bütövlüyünü, bununla ədaləti və beynəlxalq hüququ gerçəkləşdirən Azərbaycan dövləti bu gün dünyada həm də vətəndaş rifahının təminatı istiqamətində mühüm irəliləyişlərə yol açan güclü sosial siyasəti ilə diqqət çəkir.**

"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır", – deyən Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı ölkəmizdə davamlı sosial inkişafı, sosial müdafiə və fəal məşğulluq proqramlarının uğurla davam etdirilməsini, sosial təminat sisteminin getdikcə güclənməsini şərtləndirir.

**Bu fikrin təsdiqi olaraq bəzi faktlara diqqət yetirək:**

*– son 5 ildə Azərbaycanda əlilliyə görə pensiyalar 2,3 dəfə, müavinətlər isə 3,5 dəfə artıb;*

*– 2018-ci ildə əlilliyə görə sosial ödənişlərin ümumi məbləği 1,2 milyard manat olduğu halda, bu gün həmin rəqəm 2,5 milyard manata yaxınlaşıb. Əlilliyi olan şəxslərə ödənilən məbləğ isə 1,3 milyard manata çatıb;*

*– bu ilin yanvar-oktyabr aylarında əlilliyi olan şəxslərə 82,8 min reabilitasiya vasitəsi verilib;*

*– post-müharibə dövründə müavinət və təqaüdlər orta hesabla 2 dəfəyədək artırılıb;*

*– şəhid ailə üzvləri: 8818 nəfərə (3323 şəhid, o cümlədən 86 mülki) 17405 xidmət göstərilib;*

*– 2021-ci ildən indiyədək şəhid ailələri, müharibə əlilləri və həssas təbəqədən olan digər şəxslərə 16 min mənzil və fərdi ev verilib;*

*– 2021-ci ildən indiyədək 7 min 700 müharibə əlilinə avtomobil verilib;*

*– özünüməşğulluğa 12,1 min nəfər cəlb edilib;*

*– 490 hərbçiyə 599 yüksək texnologiyalı protez, 2232 müharibə əlilinə 61,1 min reabilitasiya vasitəsi verilib.*

Azərbaycan dövlətinin uğurlu və davamlı sosial siyasəti ölkəmizin növbəti il üçün büdcə layihəsində daha əhatəli və geniş məzmunda əksini tapıb. Yeni seçilmiş Milli Məclisin bu günlərdə keçirilən komitə və ümumi iclaslarında layihənin əhatəli və konstruktiv müzakirəsi gedir. 2025-cü ilin Dövlət büdcəsi yeni təklif və mülahizələrlə zənginləşdirilir. Mərkəzi və yerli icra qurumlarının daha səmərəli fəaliyyəti, sosial-iqtisadi və mədəni sferalarda uğurların artırılması, ölkənin müdafiə qüdrətinin yüksəldilməsi, xalqın rifahının daha da yaxşılaşdırılması üçün söylənən dəyərli, faydalı mülahizələr təqdir olunur, qeydə alınır.

Lakin büdcənin sosial bölümünün müzakirəsi ilə bağlı bəzi deputatların məsuliyyətsiz, məsələyə bələdlikdən uzaq, guya, seçicilərin maraqlarını ifadə edərək söylədikləri səbatsız mülahizələr, ilk növbədə, seçicilərin özündə ciddi narazılığa səbəb olub. Həmin deputatların söylədiklərindən məlum olur ki, onlar müzakirə edilən sosial büdcədə nəzərdə tutulmuş müsbət tədbirlərdən xəbərsizdirlər. Seçicilər və icra qurumları onlara xatırladırlar ki, söylənən iradlar ya əsassızdır, ya da ki, artıq həllini tapmışdır.

Milli Məclisdəki belə arzuolunmaz və seçiciləri həyəcanlandıran müzakirə, istər-istəməz, Azərbaycan parlamentarizminin yaxın tarixinə nəzər salmağa ehtiyac yaradır.

Ümumilli lider Heydər Əliyevin milli dövlət quruculuğunda çoxpartiyalı demokratik parlamentin formalaşdırılması önəmli yer tutur. Sovet epoxasının qürubu və müstəqilliyin ilk illərində yalançı vədlər, populist çıxışlarla xalqı aldadıb millət vəkili olanların parlamenti rinqə çevirdiklərini, ölkənin taleyini şəxsi və qrup maraqlarına qurban verdiklərini ötəri xatırlamaq belə bu gün hamımızda məyusluq yaradır.

Ulu öndərin zəkası və xeyir-duası, xalqın aldığı ibrət dərsi əsasında seçilən ilk demokratik Milli Məclis ölkənin siyasi, iqtisadi, mənəvi böhrandan çıxması, sabitlilin möhkəmlənməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi, hərtərəfli dirçəlişə nail olunması üçün zəruri hüquqi-normativ baza və vətəndaş həmrəyliyi platforması yaratdı. Bütün bunlar sonrakı çağırış parlamentlərin daim təkmilləşən fəaliyyəti ilə Azərbaycanı indiki tərəqqiyə və zəfərlərə qovuşdurdu, müstəqil dövlətçiliyimizin tarixinə demokratizmin təntənəsi kimi yazıldı.

Ötən çağırış parlamentlərin fəaliyyətində bir diqqətçəkən, önəmli məqam isə ondan ibarətdir ki, xalq ali qanunverici qurumda onun maraqlarını qoruyan, dövlətin daxili və xarici siyasətinin uğurlar qazanmasında fəal iştirak edən deputatlara təkrar və dəfələrlə etimad göstərib. Əksinə, onu seçən insanların gözləntilərini doğrultmayan, şəxsi maraqlarını üstün tutan, dövlətçiliyə qarşı zidd addımlar atan, ümumi inkişafa töhfə verməyən elçilərinə isə təkrar etimad göstərməyib. Bir sıra hallarda isə vətənə xəyanət edən, cinayət törədən deputatlar dərhal geri çağırılıb, mandatları əllərindən alınıb və törətdikləri bəd əməllərin cəzasını çəkiblər.

Ötən gün redaksiyamıza daxil olan seçici müraciət və xatırlatmalarında bir ortaq fikir üstünlük təşkil edir: Xalqın adından gərəksiz açıqlamalar vermək, dövlətin uğurlu siyasətinə kölgə salmaq yolverilməzdir. Xalqın etimadından sui-istifadə etmək, naşı və qərəzli mülahizələr söyləmək etimadı itirməyə yönəlib. Onların deputat adına, ləyaqətinə, statusuna uyğun gəlməyən kiçik bir sözü belə seçiciləri məyus edir, narazı salır. Dövlətin sosial siyasətini həyata keçirən mərkəzi icra qurumundan da əsassız ittiham və populist çıxışlarla bağlı açıqlama almışıq.

Bildirilir ki, Milli Məclisin son plenar iclaslarında bəzi deputatların sosial sahə ilə bağlı səsləndirdikləri fikirlər gerçəkliyə yox, şəxsi mülahizələrə, subyektiv yanaşmalara əsaslanır. Bunun təsdiqi olaraq əvvəlcə özünüməşğulluq proqramı ilə bağlı deyilənlərə diqqət yetirək.

**Deputat Siyavuş Novruzov iddia edir ki, xəstə mal-heyvanlar insanlara veriləndən 3 gün sonra ölür.** Həmin şəxslərin isə bu imkandan yalnız bir dəfə yararlanmaq imkanı var. Kəndliyə iki inəklə bərabər bir illik qarantiya və heyvanın, ən azı, 3 aylıq yeminin də verilməsi zəruridir.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bu iddia ilə bağlı mövqeyi isə belədir: Mühüm sosial-iqtisadi əhəmiyyətə malik olan özünüməşğulluq proqramı işsiz şəxslərin məşğulluğunun gerçəkləşdirilməsinə və kiçik biznesə çıxış imkanlarının artırılmasına önəmli dəstəkdir. Proqrama müraciət zamanı əsasən şəhid ailəsinin üzvlərinə, əlilliyi olan və ünvanlı sosial yardım alan şəxslərə, ümumiyyətlə, həssas təbəqədən olanlara üstünlük verilir. Hazırda işsiz və işaxtaran şəxslərə proqram əsasında kənd təsərrüfatı üzrə 4, istehsal və xidmət sahələri üzrə isə 23 olmaqla, ümumilikdə, 27 özünüməşğulluq zərfi üzrə mal və materiallar formasında aktivlər təqdim edilir.

Bildirilir ki, 2017-ci ildə ölkəmizdə özünüməşğulluq proqramının icrasına başlanıb və həmin illə müqayisədə adıçəkilən proqrama cəlb olunan şəxslərin illik sayı 15 dəfəyədək artıb. Özünüməşğulluq proqramına cəlb olunanların sayının isə gələn il artıq 100 mini ötəcəyi nəzərdə tutulub.

Hazırda işğaldan azad olunmuş ərazilərimizə köçürülən sakinlər üçün də özünüməşğulluq proqramı çərçivəsində təsərrüfatların qurulması işlərinə başlanılıb. Həmin sakinlərdən artıq 136 nəfər proqram çərçivəsində mal və materiallarla təmin edilərək onlar üçün kiçik ailə təsərrüfatları qurulub.

Proqrama cəlb olunan şəxslər üçün ilk mərhələdə təlimlər təşkil olunur. Təlimləri bitirdikdən sonra isə biznes planlarına uyğun olaraq mal və materiallarla təmin edilməklə onlar üçün kiçik ailə təsərrüfatları yaradılır. Proqram çərçivəsində mal və materiallar formasında aktivlər (o cümlədən mal-qara) proqram iştirakçısına o, yalnız bu aktivlərdən məmnun olduğunu bildirdikdə təqdim edilir. Proqram iştirakçısı aktivlərdən razı olmadıqda aktivlər yeniləri ilə əvəzlənir. Vətəndaş razılıq əlaməti olaraq aktı imzaladıqdan sonra ona aktivlər verilir və proses zamanı onun bu aktivlərdən razı qaldığını bildirdiyi videoçəkiliş də aparılır.

Deputat Siyavuş Novruzovun mal-heyvanların xəstə olması iddiasına gəldikdə isə, xatırladaq ki, Qida Təhlükəsizliyi Agentliyinin aktı, heyvanların xəstə olmadığı barədə baytarlıq arayışları və sertifikatları da vətəndaşa aktivlərlə birgə təqdim edilir. Bir ay ərzində aktivlərin keyfiyyətində vətəndaşın günahı olmadan baş verən hər hansı pozuntuya görə zəmanət verilir və belə halda aktivlər 30 gün müddətində dəyişdirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına əsaslanaraq bildirək ki, özünüməşğulluq proqramına cəlb olunanlara aktivlərin verilməsi prosesini əks etdirən video və fotomateriallar, iştirakçıya aktivlərin təhvil verilməsinə dair akt, verilmiş aktivlərin sayı, keyfiyyəti barədə bütün materiallar "e-sosial" internet portalında "Özünüməşğulluq proqramı iştirakçıları barədə məlumat" altbölməsində ictimaiyyətə açıqlanır. Deputat Siyavuş Novruzovun özü də istənilən proqram iştirakçısına verilən mal və materiallarla, aktivlərin təqdimatı prosesi ilə həmin bölməyə daxil olub tanış ola bilər.

Siyavuş Novruzovun hökumətin sosial siyasəti ilə bağlı əsassız narazılığı bununla kifayətlənmir. Deputatın müharibə veteranlarına "canıyananlığı" da diqqət çəkir. İddia edir ki, onlar əlillik təyinatı alan zaman problemlərlə üzləşirlər. Hətta bu fikrində tənqidi "hansısa komputer"in üzərinə yönəldir, müharibə veteranlarına olan "haqsızlığı" texniki qüsurla bağlayır və iddiasına kövrək notlarla nöqtə qoyur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bu məsələ ilə bağlı faktlara əsaslanan məlumatı Siyavuş Novruzovun həqiqətdən nə qədər uzaq olduğunu göstərir: "44 günlük Vətən müharibəsində yaralanmış və müalicə kursları tamamlanmış 4,1 mindən çox hərbi qulluqçuya əlillik təyin edilib. Həmin hərbi qulluqçuların əyani müayinəsi keçirilməklə, müvafiq hərbi həkim komissiyalarından şəhadətnamə və tibb müəssisələrindən göndərişlər (forma 88) elektron sistemə daxil edildikdən sonra onların Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən əlilliyin qiymətləndirilməsi həyata keçirilir. Əlillik təyin edildikdən sonra onlara elektron sistem üzərindən proaktiv qaydada sosial ödənişlər (pensiya, müavinət, təqaüd) təyin edilir".

Təkcə bu fakt – 4,1 mindən çox hərbi qulluqçuya əlillik təyin edilməsi Siyavuş Novruzovun hökumətin bu istiqamətdə siyasəti ilə bağlı narazılığının əsassızlığını aydın göstərir və müharibə veteranlarına "canıyananlığı"nın nə ilə bağlı olması sualını yaradır…

**Siyavuş Novruzovun "vətəndaş və deputat çağırışına" qoşulan Milli Məclis üzvlərindən Səyyad Salahlı, Razi Nurullayev və Arzuxan Əlizadə də bilməmiş deyillər ki,** möhtəşəm tarixi Zəfər əldə etdiyimiz 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi həyata keçirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin gerçəkləşdirdiyi həmin sosial dəstək paketi çərçivəsində postmüharibə dövründə vurğulanan kateqoriyalara aid vətəndaşlardan ibarət artıq 130 min şəxsə dəstək yönümlü 363 min xidmət göstərilib.





Belə ki, həmin paket çərçivəsində 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 24,2 min şəxsə birdəfəlik ödəmə təyin olunub, mənzillə təminat proqramı 5 dəfə genişlənib, şəhid ailələri üzvləri və müharibə ilə əlaqədar əliliyi olan şəxslərə 6326 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 528 avtomobil təqdim edilib. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min şəxsə 68,1 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib, müharibə ilə əlaqədar əlilliyi olan 2232 şəxs 61,1 min reabilitasiya vasitəsi, o cümlədən 490 şəxs 599 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub.

Bu mövzuda "yanğı" ilə danışan adları çəkilən deputatlara xatırladırıq ki, bu gün aparılan siyasətin əsas hədəfi əmək qabiliyyətli insanların, həmçinin sağlam və əmək qabiliyyətli olan müharibə veteranlarının passiv deyil, aktiv vasitələrlə rifahına dəstək göstərməkdir. Sosial dəstək paketi çərçivəsində şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 24,4 min şəxsin məşğulluğu təmin edilib. O cümlədən şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 12,1 min şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik bizneslər yaradılıb.

**Deputat Razi Nurullayevin "Ünvanlı sosial yardım yoxlaması aparılan zaman soyuducuları açıb yoxlamasınlar, qazanların içinə baxmasınlar, məsələyə bir az insan ləyaqətinə hörmət rakursundan yanaşsınlar. Ola bilər ki, həmin ailəyə kimsə bir kisə un, bir kisə kartof gətirib"**



sözləri heç də onun millətə vəkilliyinin xarakterini müəyyənləşdirmir. Çünki bu fikirlər əsl həqiqətlə səsləşmir, dövlətimizin sosial siyasətinin təhrifinə yönəlib. Halbuki aztəminatlı ailələrin sosial təminatının yaxşılaşdırılması və onların sosial müdafiə tədbirləri ilə əhatə olunmaları danılmaz faktdır. Təkcə orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələrin də dövlət tərəfindən ünvanlı sosial yardımla təmin edilmələri ölkədə hamıya məlumdur.

Yeri gəlmişkən, həmin yardımların məbləği ildən-ilə artır. Buna misal olaraq, son 5 ildə hər ailəyə ödənilən ünvanlı yardımın orta aylıq məbləği 3 dəfəyədək artaraq bu ilin 1 noyabr tarixinə 468 manata çatıb. Ünvanlı dövlət sosial yardımı həmin yardımı almaq üçün elektron qaydada edilmiş müraciətlərə əsasən və bu müraciətlərə baxılaraq verilmiş qərarlar əsasında təyin olunur. Müraciətlərə baxılması e-sistem üzərindən müxtəlif qurumların e-məlumat bazaları ilə inteqrasiya şəraitində, şəffaf şəkildə həyata keçirilir.

Son illər aparılan sosial islahatlar ünvanlı dövlət sosial yardımına əlçatanlığın daha da artırılmasına imkan verib. Belə ki, ünvanlı yardımın təyinatı şərtləri xeyli yumşaldılıb. Ünvanlı yardım üçün müraciət edən zaman ailədən tələb olunan məlumatların sayı da əhəmiyyətli dərəcədə azaldılıb.

Yeri gəlmişkən, 2024-cü ilin iyun ayından "Ünvanlı yardım" elektron sistemi yenidən qurulub və ünvanlı yardım üçün müraciət edən şəxslərdən artıq bir çox məlumatların qeyd edilməsinə ehtiyac qalmayıb. Həmin məlumatlar müvafiq qurumların informasiya sistemlərindən əldə olunmağa başlayıb.

Qeyd edək ki, ailənin maddi-məişət şəraiti yoxlanarkən abonent və sayğac nömrələri, həyətyanı sahə ilə bağlı məlumatların və s. "Ərizə-bəyannamə"də düzgün vurğulanmadığı aşkarlandıqda da həmin məlumatlara operativ qaydada düzəliş edilməsi və müraciətə yenidən baxılması imkanı yaradılıb.

Təbii ki, ünvanlı dövlət sosial yardımı üçün müraciətlərə baxılması zamanı ailənin maddi-məişət şəraitinin müayinəsi aparılarkən ailənin guya qazanına, soyuducusunun içinə baxılması barədə qeyd edilənlər isə əsassızdır. Əyani müayinə ailənin tərkibi və ailənin məişət şəraitinin ailəni təmsil edən şəxsin müraciəti zamanı qeyd etdiyi rəsmi gəlirləri ilə uyğun olub-olmadığının müəyyənləşdirilməsi ilə aparılır. Bütün müayinələr videoçəkilişlə gerçəkləşdirilir.

**Bu məqamda deputat Ceyhun Məmmədovun heç bir fakta əsaslanmayan fikrinə də nəzər salaq:** "Əgər bir insan qolunu və ya ayağının birini itiribsə, onun təkrar müayinələrə cəlb olunmamasını təklif edirəm. Bu məsələ ilə bağlı bizə müraciətlər həddən çoxdur".

C.Məmmədovun bu fikri heç bir reallığa əsaslanmır. Deputat bilməlidir ki, müvafiq qanunvericiliyə görə, əlillik müddətli və müddətsiz (ömürlük) müəyyənləşdirilir, əzaların amputasiyası və ya sağalmaz xəstəlik kimi geridönməz hallar olduqda isə şəxsə əlillik ömürlük təyin olunur və heç vaxt təkrar müayinəsi aparılmır.



**Deputat Jalə Əliyeva isə Zərdab, Kürdəmir və Ucar rayonlarında ən böyük problemin işsizliklə bağlı olduğunu qeyd edir:** "Qəbuluma gələnlərin 70-80 faizi işlə bağlı müraciət edir. Regionlarda əmək bazarını tənzimləmək üçün istehsalat müəssisələrinin açılması vacibdir. İşsizliyin aradan qaldırılmasının ən effektiv yolu kənd təsərrüfatının inkişafıdır. Amma az gəlirli ailələr onlara ayrılan pay torpaqlarından effektiv istifadə etmir. İşsizlik kəndlərin demoqrafik balansına da mənfi təsir edir. Gənclər şəhərlərə gəlməyə can atırlar".



Deputatın bu fikirləri ilə bağlı onu qeyd edə bilərik ki, respublikamızda aktiv məşğulluq proqramlarının əhatə dairəsi ildən-ilə genişləndirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 2018-2024-cü illər ərzində 624 min nəfər, o cümlədən bu ilin 10 ayında 137 min nəfər işlə təmin olunub. Özünüməşğulluq proqramına cəlb olunanların illik sayı da proqramın icrasına başlandığı 2017-ci ilə nisbətən 15 dəfəyədək artıb.

Bu proqramın əhatə etdiyi şəxslərin sayının gələn il 100 mini ötəcəyi gözlənilir. Məşğulluğun təminatında mühüm rola malik olan peşə hazırlığı kurslarının təşkili də davam etdirilir. Xatırladaq ki, 2018-2024-cü illərdə 35 min nəfər əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına cəlb edilib.

Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan dövlətinin sosial siyasəti vətəndaşların, ilk növbədə, həssas qrupların qayğı və ehtiyaclarının dolğun ödənilməsinə yönəlib. Bunu görmək istəməyən, yaxud görə bilməyən deputat, görünür, bir şəhid ailəsinin də qapısını açmayıb, bir qazinin də ağrı-acısına şərik olmayıb. Belələri bilməlidirlər ki, seçicilər onlara mandat verdiyi kimi, su bulandıranları, ara qarışdıranları geri də çağıra bilərlər.

**XQ-nin analitik qrupu**

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə investisiya müsabiqələrinin keçirilməsi QAYDALARI

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 10-1.8-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sahibkarlıq subyektlərinə icarəyə verilməsi nəzərdə tutulmuş kənd təsərrüfatı təyinatlı torpaqlar (bundan sonra – torpaqlar) üzrə investisiya müsabiqələri keçirilməsinin müvəqqəti qaydalarını müəyyən edir.

1.2. İnvestisiya müsabiqəsi icarəyə verilən torpaqlardan səmərəli istifadəni təmin edən investisiya layihələrinin seçilməsi məqsədilə keçirilir.

**2. Müsabiqənin təşkili**

2.1. Müsabiqə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən "Elektron kənd təsərrüfatı" informasiya sisteminin (bundan sonra – EKTİS) "kənd təsərrüfatı təyinatlı torpaqların istifadəsi" altsistemi vasitəsilə təşkil edilir.

2.2. Nazirlik müsabiqənin təşkili üçün aşağıdakıları təmin edir:

2.2.1. müsabiqənin keçirilməsi üçün bu Qaydaların 3.1-ci bəndi ilə müəyyən edilmiş tərkibdə komissiya (bundan sonra – Komissiya) yaradır və fəaliyyətini təşkil edir;

2.2.2. müsabiqə keçirilməsi haqqında elanın hazırlanmasını və bu Qaydaların 2.3-cü bəndinə uyğun olaraq dərc edilməsini təmin edir;

2.2.3. müsabiqədə iştirak etmək üçün ərizəni və bu Qaydaların 2.4.6-cı yarımbəndində göstərilən sənədləri (məlumatları) ərizəçilərdən EKTİS vasitəsilə qəbul edir;

2.2.4. ərizə qəbulu müddəti başa çatdıqdan sonra daxil olmuş ərizələri Komissiyaya təqdim edir;

2.2.5. müsabiqə başa çatdıqdan sonra 3 (üç) iş günü müddətində Nazirliyin rəsmi internet səhifəsində müsabiqənin nəticələri haqqında məlumatı dərc edir.

2.3. Müsabiqə keçirilməsi haqqında elan müsabiqənin keçirildiyi gündən azı 45 (qırx beş) gün əvvəl Nazirliyin rəsmi internet səhifəsində dərc edilməlidir.

2.4. Müsabiqə keçirilməsi haqqında elanda aşağıdakılar göstərilir:

2.4.1. investisiya layihəsinin həyata keçiriləcəyi torpaq sahəsinin yerləşdiyi yer və xüsusiyyətləri (keyfiyyət göstəricisi, su mənbələrinin, tikililərin, infrastrukturun, yaşıllıqların mövcudluğu, torpağın məqsədli təyinatı (əkin və ya çoxillik əkmə), dəmyə və ya suvarılan olması, suvarma kanalından, elektrik xətlərindən və yoldan əraziyə qədər olan məsafə və s.), bu Qaydaların 4.16-cı bəndinə uyğun olaraq icarəyə verilmə müddətləri);

2.4.2. investisiya layihəsinin istiqaməti (əkinçilik, tərəvəzçilik, bağçılıq, heyvandarlıq, istixana təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı və s.);

2.4.3. ərizə qəbulunun başlanma və bitmə müddəti (günü və saatı);

2.4.4. ərizələrin qəbul ediləcəyi informasiya sistemi haqqında məlumat;

2.4.5. investisiya layihəsinə dair bu Qaydaların 4.9-cu bəndində nəzərdə tutulmuş şərtlər və bu Qaydaların 4.10-cu bəndində nəzərdə tutulmuş qiymətləndirmə meyarları;

2.4.6. müsabiqədə iştirak üçün ərizəçilər tərəfindən təqdim ediləcək aşağıdakı sənədlər (məlumatlar):

2.4.6.1. fiziki şəxs olduqda – şəxsiyyətini təsdiq edən sənədin surəti, qeydiyyat ünvanı, VÖEN-i və vergi ödəyicisi kimi uçota alınması haqqında digər məlumatlar, əlaqə nömrələri, elektron poçt ünvanı;

2.4.6.2. hüquqi şəxs olduqda – hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın, onun nümayəndəsinin səlahiyyətini və şəxsiyyətini təsdiq edən sənədlərin surətləri, VÖEN-i və vergi ödəyicisi kimi uçota alınması haqqında digər məlumatlar, əlaqə nömrələri, elektron poçt ünvanı;

2.4.6.3. ərizəçinin oxşar layihələrin icrası sahəsində təcrübəyə malik olması, habelə idarəetmə imkanlarına, biliklərə, innovasiyaya, texnologiyalara və ya onların hazırlanması və ya cəlb edilməsi imkanlarına malik olması barədə özünün hazırladığı məlumat və təsdiqedici sənədlər;

2.4.6.4. ərizəçinin Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin və riskli vergi ödəyicisi olmaması barədə təsdiqedici sənədlər;

2.4.6.5. ərizəçinin son maliyyə ili üzrə maliyyə hesabatı, habelə azı son 12 aylıq dövrü əhatə edən bank dövriyyəsi barədə bank (banklar) tərəfindən verilmiş arayış (cari ildə fəaliyyətə başlama halında – maliyyə vəziyyəti barədə hesabat və bank dövriyyəsi barədə bank tərəfindən verilmiş arayış, bütün fəaliyyət dövrünü əhatə etməklə);

2.4.6.6. müsabiqədə iştirak haqqının ödənildiyini təsdiq edən sənəd;

2.4.7. Komissiyanın yerləşdiyi ünvan, telefon nömrələri və elektron poçt ünvanı;

2.4.8. müsabiqədə iştirak haqqının məbləği (hər iştirak üzrə 50 manat) və iştirak haqqının köçürüləcəyi Nazirliyin müvafiq bank hesabı.

2.5. Müsabiqədə iştirak üçün nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar sahibkarlıq subyektindən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sahibkarlıq subyektinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sahibkarlıq subyekti tərəfindən təmin edilir.

**3 Komissiyanın fəaliyyəti**

3.1. Komissiya Nazirlik tərəfindən təyin edilən sədr də daxil olmaqla 9 (doqquz) üzvdən – Nazirliyin (2 nəfər), Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (2 nəfər), Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin (1 nəfər), Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (1 nəfər), torpaq sahəsinin yerləşdiyi ərazi üzrə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin (1 nəfər) nümayəndələrindən ibarətdir.

3.2. Komissiyanın əsasnaməsini Nazirlik təsdiq edir.

3.3. Komissiya:

3.3.1. ərizəçilərdən EKTİS vasitəsilə qəbul olunmuş sənədlərin (məlumatların) tamlığını və düzgünlüyünü araşdırır, onların bu Qaydaların tələblərinə uyğun olub-olmadığını müəyyən edir;

3.3.2. bu Qaydaların 4.2-ci və 4.5-ci bəndlərinə uyğun olaraq qərar qəbul edir;

3.3.3. müsabiqə iştirakçılarının təqdim etdiyi investisiya layihələrini təhlil edir;

3.3.4. müsabiqə qalibinin müəyyən edilməsi barədə qərar qəbul edir;

3.3.5. müsabiqənin protokollarını, o cümlədən yekun protokolu rəsmiləşdirir;

3.3.6. əsasnaməsinə uyğun olaraq digər tədbirlər görür.

3.4. Komissiyanın qərarları hər bir Komissiya üzvünün bir səsi olmaqla, açıq səsvermə yolu ilə, iclasda iştirak edən Komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Komissiyanın iclaslarında onun üzvlərinin azı üçdə ikisi iştirak etdikdə Komissiya səlahiyyətlidir. Səslər bərabər olduqda, Komissiya sədrinin səsi həlledici hesab olunur. Komissiya üzvləri səsvermə zamanı bitərəf qala bilməzlər.

3.5. Komissiyanın qərarları onun sədri və Komissiyanın iclasında iştirak edən bütün üzvləri tərəfindən imzalanmış protokollarla rəsmiləşdirilir.

3.6. Komissiyanın qərarından inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər.

**4. İnvestisiya müsabiqəsinin keçirilməsi**

4.1. Ərizəçilər müsabiqədə iştirak üçün ərizəni elektron imza ilə təsdiq edərək, EKTİS-dəki şəxsi kabinetləri vasitəsilə Nazirliyə təqdim edirlər. Ərizə EKTİS-də müəyyən edilmiş elektron sənəd formasında "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq yaradılır. Nazirlik ərizəçilərdən daxil olmuş sənədləri (məlumatları) ərizələrin qəbulu müddəti başa çatdıqdan sonra 3 (üç) iş günü müddətində Komissiyaya təqdim edir. Sənədlər (məlumatlar) Komissiyaya təqdim edildikdən sonra Komissiya tərəfindən 5 (beş) iş günü müddətində həmin sənədlərin (məlumatların) tamlığı və düzgünlüyü araşdırılır. Sənədlərdə (məlumatlarda) aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, həmin çatışmazlıqların 2 (iki) iş günü müddətində aradan qaldırılması ilə bağlı ərizəçinin şəxsi kabinetinə bildiriş göndərilir.

4.2. Sənədlər tam və düzgün təqdim edildikdə Komissiya ərizəçinin müsabiqə iştirakçısı hesab olunmasına dair qərar qəbul edir və qərar qəbul edildiyi tarixdən 1 (bir) iş günü müddətində bu barədə ərizəçinin EKTİS-dəki şəxsi kabinetinə bildiriş göndərilməsini təmin edir.

4.3. Ərizəçinin iştirakçı hesab olunması barədə qərar qəbul edildikdən sonra təqdim etdiyi sənədlərdə (məlumatlarda) hər hansı dəyişiklik edilə bilməz.

4.4. Aşağıdakı hallarda ərizəçi müsabiqəyə buraxılmır:

4.4.1. müsabiqədə iştirak üçün ərizə və digər sənədlər (məlumatlar) müsabiqə keçirilməsi haqqında elanda göstərilən müddət bitdikdən sonra təqdim edildikdə;

4.4.2. sənədlərdə (məlumatlarda) olan çatışmazlıqlar bu Qaydaların 4.1-ci bəndi ilə müəyyən edilmiş müddətdə aradan qaldırılmadıqda.

4.5. Müsabiqəyə buraxılmayan ərizəçinin şəxsi kabinetinə bu Qaydaların 4.1-ci bəndində sənədlərin araşdırılması üçün nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra Komissiya tərəfindən qərar qəbul edilərək, 1 (bir) iş günü müddətində bu barədə bildiriş göndərilməsi təmin olunur.

4.6. Müsabiqə aşağıdakı hallarda baş tutmamış hesab edilir:

4.6.1. müsabiqədə iştirak etmək üçün müraciət olunmadıqda;

4.6.2. müsabiqədə iştirak etmək üçün ərizə vermiş bütün ərizəçilər müsabiqənin keçirilməsinədək və ya müsabiqə zamanı müsabiqədən imtina etdikdə;

4.6.3. ərizəçilərin heç biri iştirakçı kimi tanınmadıqda (müsabiqəyə buraxılmadıqda);

4.6.4. müsabiqədə bir ərizəçi iştirak etdikdə.

4.7. Müsabiqə bu Qaydaların 4.1-ci bəndində sənədlərin və məlumatların araşdırılması ilə bağlı nəzərdə tutulmuş müddət (çatışmazlıqların aradan qaldırılması üçün verilmiş müddət nəzərə alınmaqla) başa çatdıqdan sonra 30 (otuz) gün müddətində keçirilir.

4.8. Komissiya müsabiqə iştirakçılarının investisiya layihələri ilə bağlı təkliflərinə bu Qaydaların 4.10-cu bəndi ilə müəyyən edilmiş meyarları rəhbər tutaraq baxır.

4.9. Təklif edilən investisiya layihəsində aşağıdakı məlumatlar və tələblər (şərtlər) nəzərdə tutulmalıdır:

4.9.1. layihənin məqsədləri və mərhələli şəkildə icra müddəti göstərilməklə, layihənin təşkilati planı (o cümlədən istehsal və maliyyə planları), habelə ərizəçi haqqında bu Qaydaların 2.4.6.3-cü və 2.4.6.5-ci abzaslarında qeyd edilən məlumatlar;

4.9.2. satış bazarının xarakteristikası (o cümlədən istehsal ediləcək məhsulların xarici bazarlara çıxış imkanları);

4.9.3. məşğulluğun təmin edilməsi ilə bağlı həyata keçiriləcək tədbirlər, yaradılacaq iş yerləri, habelə layihənin icrası zamanı yerli resurslardan (yerli işçi qüvvəsindən (işğaldan azad edilmiş kəndlərdə və qəsəbələrdə məskunlaşan və yaşayan şəxslərdən), mal, iş və xidmətlərdən) istifadə edilməsi;

4.9.4. layihənin həyata keçirilməsi zamanı aqrar sığorta sisteminin tətbiq edilməsi;

4.9.5. istehsal üçün tələb olunan avadanlıq haqqında məlumatlar (o cümlədən məhsulun saxlanılması üçün elevatorlar (taxıl siloları) və soyuq hava depoları);

4.9.6. layihə ilə bağlı növbəti illərdə kreditə tələbatın dövrlər üzrə bölgüsü (aylar və illər üzrə ehtiyac olan kredit məbləğlərini göstərən qrafik);

4.9.7. layihə üzrə risklərin qiymətləndirilməsi;

4.9.8. layihənin icrasının ətraf mühitə, torpaqların münbitliyinə mənfi təsirlərinin qarşısının alınması, ekoloji risk səviyyəsinin azaldılması üçün həyata keçiriləcək tədbirlər, habelə yaşıl texnologiyaların tətbiq edilməsi;

4.9.9. intensiv əkinçilik layihəsi ilə bağlı (bu Qaydaların 4.9.1–4.9.8-ci yarımbəndlərində qeyd olunan məlumatlardan əlavə) aşağıdakı məlumatlar və tələblər (şərtlər):

4.9.9.1. əkin üçün seçilmiş bitkilərin, torpaq-iqlim şəraiti nəzərə alınmaqla müəyyən edilmiş bölgənin ixtisaslaşmasına uyğun olması;

4.9.9.2. sertifikatlı toxumlardan istifadə edilməsi;

4.9.9.3. ekoloji təmiz və digər kənd təsərrüfatı məhsullarının istehsalına dair beynəlxalq sertifikatın olması;

4.9.9.4. növbəli əkin metodundan istifadə edilməsi;

4.9.9.5. "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanına uyğun olaraq siyahısı Nazirlik tərəfindən müəyyən edilən aqrar sahədə güzəşt tətbiq olunan müasir suvarma sistemlərindən istifadə edilməsi;

4.9.9.6. torpaq-iqlim şəraitinə uyğun olan, habelə resursqoruyucu və digər ağıllı kənd təsərrüfatı texnologiyalarından istifadə edilməsi;

4.9.10. intensiv bağçılıq layihələri ilə bağlı (bu Qaydaların 4.9.1–4.9.8-ci yarımbəndlərində qeyd olunan məlumatlardan əlavə) aşağıdakı məlumatlar və tələblər (şərtlər):

4.9.10.1. alma bağlarında bir hektarda azı 2250 ədəd, armud və heyva bağlarında bir hektarda azı 1250 ədəd, süfrə sortu üzüm bağlarında bir hektarda azı 2500 ədəd, texniki sort üzüm bağlarında bir hektarda azı 3000 ədəd tingin dirək sistemində (dəmir, beton, profil və s.) əkilməsi;

4.9.10.2. çəyirdəkli (gilas, şaftalı, nektarin, ərik, gavalı) meyvə bağlarında bir hektarda azı 650 ədəd, fındıq bağlarında bir hektarda azı 500 ədəd, digər qərzəkli meyvə bağlarında bir hektarda azı 350 ədəd, nar və zeytun bağlarında bir hektarda azı 650 ədəd tingin əkilməsi;

4.9.10.3. "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanına uyğun olaraq siyahısı Nazirlik tərəfindən müəyyən edilən aqrar sahədə güzəşt tətbiq olunan müasir suvarma sistemlərindən istifadə edilməsi;

4.9.10.4. beynəlxalq sertifikatlı və ya xəstəlik və zərərvericilərdən azad olması akkreditasiyadan keçmiş laboratoriya tərəfindən təsdiqlənmiş tinglərdən istifadə edilməsi;

4.9.10.5. dolu riski mövcud olan ərazilərdə dolu əleyhinə avadanlıqla təchiz edilmə;

4.9.10.6. müasir texnologiya və metodikalardan (texnika izləmə, iqlim məlumatlarının toplanılması və analizi, suvarmaya nəzarət, inteqrasiya olunmuş mübarizə metodları və s.) istifadə edilməsi;

4.9.11. intensiv heyvandarlıq təsərrüfatları layihələri ilə bağlı (bu Qaydaların 4.9.1–4.9.8-ci yarımbəndlərində qeyd olunan məlumatlardan əlavə) aşağıdakı məlumatlar və tələblər (şərtlər):

4.9.11.1. iribuynuzlu heyvandarlıq təsərrüfatları üzrə azı 80 baş damazlıq inəyin və ya 50 baş ana camışın olması, habelə damazlıq istiqamətli təsərrüfatlarda inək, düyə və camış düyəsinin 100 faizinin süni mayalandırılması;

4.9.11.2. xırdabuynuzlu heyvandarlıq təsərrüfatları üzrə azı 500 baş ana qoyun və şişəyin və ya 200 baş ana keçi və küvərin olması;

4.9.11.3. yumurtalıq istiqamətli quşçuluq təsərrüfatları üzrə azı 50000 baş,

ətlik-yumurtalıq istiqamətli quşçuluq təsərrüfatları üzrə azı 25000 baş, ətlik istiqamətli quşçuluq təsərrüfatları üzrə azı 20000 baş kənd təsərrüfatı quşlarının yetişdirilməsi;

4.9.11.4. arıçılıq təsərrüfatları üzrə azı 150 vahid arı ailəsinin (pətək) olması;

4.9.11.5. donuzçuluq təsərrüfatları üzrə azı 100 baş ana donuzun olması;

4.9.11.6. təkdırnaqlı heyvandarlıq təsərrüfatları üzrə azı 30 baş madyanın və 10 baş ayğırın olması;

4.9.11.7. xəzdərili heyvandarlıq təsərrüfatları üzrə azı 50 baş ana xəzdərili heyvanın olması;

4.9.11.8. dovşançılıq təsərrüfatı üzrə azı 50 baş ana dovşanın olması;

4.9.11.9. heyvandarlıq təsərrüfatında zootexniki tələblərə və baytarlıq tələblərinə cavab verən mexanikləşdirilmiş tövlə, köməkçi bina, karantin izolyatoru, müalicəxana, dərman və dezinfeksiya maddələrinin saxlanılması üçün anbar, yem istehsalı sexi (və ya təsərrüfatı yemlə təmin edən digər infrastruktur), habelə ventilyasiya sisteminin olması;

4.9.11.10. bütün heyvanların identikləşdirilməsi, hərəkətinin izlənilməsi və hesabatlılığın təmin olunması üçün müasir elektronlaşdırılmış idarəetmə sisteminin olması;

4.9.11.11. yem bazasının (qüvvəli, qaba və sulu-şirəli yemə tələbat nəzərə alınmaqla) təşkil edilməsi və müvafiq kənd təsərrüfatı texnikasının olması.

4.10. Təklif edilən investisiya layihələri bu Qaydalara əlavəyə uyğun olaraq aşağıdakı meyarlar üzrə qiymətləndirilir və ən yüksək nəticə əldə etmiş iştirakçı müsabiqənin qalibi hesab olunur:

4.10.1. layihənin bu Qaydaların 4.9-cu bəndində müəyyən edilmiş tələblərə (şərtlərə) uyğunluğu;

4.10.2. layihənin iqtisadi səmərəliliyi, o cümlədən torpaqların hər hektarı üzrə qoyulacaq investisiyaya münasibətdə yaradılacaq əlavə dəyər (layihənin dəyər zəncirini ehtiva etməsi);

4.10.3. ərizəçinin Azərbaycan Respublikasında vergilər və ya digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin olmaması (habelə riskli vergi ödəyicisi olmaması);

4.10.4. ərizəçinin müvafiq fəaliyyət və ya oxşar layihələrin icrası sahəsində təcrübəyə malik olması;

4.10.5. layihənin icrası zamanı yarana biləcək maliyyə riskləri, o cümlədən ərizəçinin layihənin həyata keçirilməsi üçün maliyyə resurslarına və (və ya) həmin maliyyə resurslarını cəlb etmək imkanına malik olması;

4.10.6. ərizəçinin idarəetmə imkanlarına, biliyə, innovasiyaya və texnologiyalara və ya onların hazırlanması və ya cəlb edilməsi imkanlarına malik olması;

4.10.7. bu Qaydaların 4.10.1– 4.10.6-cı yarımbəndlərində göstərilən meyarlar üzrə qiymətləndirmə nəticələri bərabər olduğu təqdirdə, investisiya qoyuluşu nəzərdə tutulan inzibati ərazi dairəsində doğulmuş və ya qeydiyyatda olan ərizəçiyə (habelə həmin inzibati ərazi dairəsində dövlət qeydiyyatına alınmış və hüquqi ünvanı həmin ərazidə yerləşən (və ya faktiki olaraq həmin ərazidə fəaliyyət göstərən) hüquqi şəxsə) üstünlük verilməsi.

4.11. İnvestisiya layihələrinin qiymətləndirilməsi meyarlarının mühümlük dərəcəsi (xüsusi çəkisi) hər bir layihənin istiqamətinə uyğun olaraq Komissiya tərəfindən ayrı-ayrılıqda müəyyən edilir.

4.12. Müsabiqənin başa çatdığı gündən 2 (iki) iş günü müddətində, müsabiqənin nəticələri haqqında aşağıdakılar barədə məlumatlar qeyd edilməklə, Komissiya tərəfindən 2 (iki) nüsxədə protokol tərtib olunur və Komissiyanın sədri, onun iclasında iştirak edən üzvləri və müsabiqənin qalibi tərəfindən imzalanır:

4.12.1. müsabiqənin qalibi;

4.12.2. qalib gəlmiş investisiya layihəsinin həcmi və istiqamətləri;

4.12.3. investisiya layihəsinin həyata keçirilmə müddəti;

4.12.4. protokolun tərtib olunma yeri və tarixi.

4.13. Müsabiqənin başa çatdığı gündən 1 (bir) iş günü müddətində müsabiqənin nəticələri barədə müsabiqə iştirakçılarının şəxsi kabinetinə bildiriş göndərilir.

4.14. Təsdiq edilmiş protokolun bir nüsxəsi Nazirlikdə saxlanılır, digər nüsxəsi isə müsabiqənin qalibinə təqdim olunur.

4.15. Bu Qaydaların 4.12-ci bəndində nəzərdə tutulmuş protokol "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1323 nömrəli Fərmanına uyğun olaraq, torpaqlar barədə icarə müqaviləsinin bağlanılması üçün əsasdır.

4.16. Müsabiqənin nəticələri haqqında protokol təsdiq edildiyi gündən 20 (iyirmi) gün müddətində müsabiqənin qalibi EKTİS vasitəsilə elektron imzadan istifadə edilməklə elektron sənəd formasında Nazirliklə ilkin olaraq 5 (beş) il müddətinə icarə müqaviləsi imzalayır. Həmin müddətin sonunda bu Qaydaların 5-ci hissəsinə uyğun olaraq həyata keçirilən nəzarət tədbirlərinə əsasən, müsabiqə qalibinin bu Qaydaların və icarə müqaviləsinin tələblərinə əməl etdiyi (o cümlədən torpaqlardan səmərəli istifadə etdiyi) müəyyən edildikdə, icarə müqaviləsinin müddəti əlavə 44 (qırx dörd) ilədək uzadılır.

4.17. Müsabiqənin qalibi protokolu və ya icarə müqaviləsini imzalamaqdan imtina etdikdə və ya bu Qaydaların müvafiq olaraq 4.12-ci və 4.16-cı bəndləri ilə müəyyən olunmuş müddətdə imzalamadıqda, növbəti investisiya müsabiqələrinə buraxılmır və bu zaman müsabiqənin nəticələrinin ləğvi barədə Komissiya tərəfindən protokol tərtib edilir.

4.18. Bu Qaydaların 4.6.3-cü və 4.6.4-cü yarımbəndlərində göstərilən əsaslarla müsabiqənin baş tutmamış hesab edildiyi hallar istisna olmaqla, iştirak haqqı geri qaytarılmır. İştirak haqqının geri qaytarılmasına əsas olan hallarda iştirak haqqı 7 (yeddi) iş günü müddətində Nazirlik tərəfindən geri ödənilir.

4.19. Müsabiqə qalibinin bu Qaydaların 4.16-cı bəndinə uyğun olaraq bağladığı icarə müqaviləsinə əsasən icarəyə götürülmüş torpaqların subicarəyə verilməsinə yol verilmir.

4.20. Bu Qaydaların 4.16-cı bəndində nəzərdə tutulan müqavilə əsasında müvafiq infrastrukturun qurulması üçün tələb olunan torpaq sahəsinin ayrılması (kənd təsərrüfatı təyinatlı torpaqlar istisna olmaqla) "İşğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 mart tarixli 1304 nömrəli Fərmanına uyğun olaraq həyata keçirilir.

**5. İnvestisiya qoyuluşu üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarət**

5.1. Müsabiqənin qalibi müqavilə üzrə investisiya layihəsinin icrasına başlanıldığı tarixdən etibarən, bu Qaydaların 4.9.1-ci yarımbəndində nəzərdə tutulmuş təşkilati plana əsasən, hər mərhələnin yekununa dair hesabatı növbəti ayın 10-dək EKTİS vasitəsilə Nazirliyə təqdim etməlidir.

5.2. Bu Qaydaların 5.1-ci bəndi nəzərə alınmaqla, müqavilə ilə investisiya qoyuluşu üzrə nəzərdə tutulan öhdəliklər və investisiya proqramı tam yerinə yetirildikdən sonra müsabiqənin qalibi bütün müqavilə müddətini əhatə edən və müstəqil auditorun təsdiqlədiyi yekun hesabatı hazırlayıb EKTİS vasitəsilə Nazirliyə təqdim edir.

5.3. İnvestisiya layihəsinin xüsusiyyətləri nəzərə alınmaqla, bu Qaydaların 5.1-ci və 5.2-ci bəndlərində nəzərdə tutulan hesabatlara öhdəliklərin yerinə yetirilməsini təsdiq edən sənədlər əlavə olunur və hesabatlarda qeyd olunan məlumatların doğruluğuna görə müsabiqənin qalibi, bu Qaydaların 5.2-ci bəndində nəzərdə tutulmuş yekun hesabata münasibətdə isə həmçinin auditor məsuliyyət daşıyır.

5.4. İcarə müqaviləsinə qanunda və müqavilədə nəzərdə tutulmuş hallarda xitam verilir.

***"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə investisiya müsabiqələrinin keçirilməsi Qaydaları"na əlavə***

## İnvestisiya layihələrinin qiymətləndirilməsi balları

| Sıra №-si | Meyarlar | Meyarların mühümlük dərəcəsi (%-lə) | Qiymətləndirilmə balları | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | Uyğun deyil (nəzərə alınmayıb) | Qismən uyğundur (qismən nəzərə alınıb) | Əsasən uyğundur (əsasən nəzərə alınıb) | Uyğundur (nəzərə alınıb) | Tam uyğundur (tam nəzərə alınıb) |
| | | | 0 | 2 | 3 | 4 | 5 |
| 1. | Meyar 1. | | | | | | |
| 2 | Meyar 2. | | | | | | |
| 3. | . | | | | | | |
| | Yekun: | | | | | | |

**Qeyd.** İnvestisiya layihəsi meyarlara 10%-dək uyğun olduqda "0", 11−20% uyğun olduqda "2", 21−60% uyğun olduqda "3", 61−80% uyğun olduqda "4", 81−100% aralığında uyğun olduqda "5" balla qiymətləndirilir.

# Azərbaycan COP 29 konfransını qlobal ortaq yanaşma platformasına çevirə bildi

**Planetimizin flora və faunasının, insanların sağlamlığının qorunması hazırda bəşəriyyət qarşısında dayanan ən ciddi problemlərdən biridir. İqlim dəyişmələri, qlobal istiləşməyə qarşı mübarizə ilə bağlı dövlət başçılarının və dünyanın aparıcı beynəlxalq qurumlarının iştirakı ilə müzakirələr meydanı olan və öz işini uğurla başa çatdıran COP29 konfransı bu mənada, ümumbəşəri mahiyyət və məzmun kəsb edən beynəlxalq anlaşma platformasıdır. Azərbaycanın ev sahibliyi etdiyi bu nüfuzlu tədbir iqlim dəyişmələri ilə mübarizədə qlobal həmrəyliyi və əməkdaşlığı gücləndirmək məqsədi daşımaqla yanaşı, həm də Azərbaycanın beynəlxalq müstəvidə artan nüfuzunun və siyasi çəkisinin göstəricisidir.**






**Cavanşir FEYZİYEV,**
**Milli Məclisin deputatı,**
**fəlsəfə doktoru**

Qlobal iqlim dəyişmələri probleminə qarşı effektiv mübarizənin təşkili XXI əsrin ən mühüm çağırışlarından biri kimi aktuallıq daşıyır. “Yaşıl dünya naminə həmrəylik ili”ndə ölkəmizdə keçirilən COP29 konfransı bir daha göstərdi ki, dövlətimiz tərəfindən ümumbəşəri əhəmiyyət kəsb edən məsələlərin həlli istiqamətində irəli sürülən təşəbbüslər beynəlxalq miqyasda yekdilliklə qəbul edilir.

Planetimizdə səhralaşmanın, quraqlığın qarşısının alınması, su ehtiyatlarından düzgün və səmərəli istifadə, iqtisadi fəaliyyət nəticəsində atmosferə atılan qaz emissiyalarının və karbon tullantılarının həcminin azaldılması, müxtəlif ölkələrdə fəaliyyət göstərən nəhəng sənaye müəssisələrinin sayının minimuma endirilməsi və nəhayət, “yaşıl” texnologiyalara üstünlük verməyin vacibliyi müasir dövrümüzün ən zəruri tələbləridir. Bütün bunlar ölkəmizdə uğurla başa çatmış COP29-un və Azərbaycan tərəfindən irəli sürülmüş Bakı Qlobal İqlim Şəffaflığı Platformasının əsas gündəliyini təşkil edirdi.

Azərbaycanda ilk dəfə keçirilən COP29 konfransı bərpaolunan enerji mənbələrinin inkişafı və istifadəsi sahəsində yeniliklərin təqdim edilməsinə, günəş və külək enerjisi, yaşıl hidrogen və digər enerji mənbələrinin istehsalı və nəqli ilə bağlı fikir mübadiləsinə, bir sözlə, qlobal “yaşıl” enerji həmrəyliyinin inkişafına yeni fürsətlər açdı. Qlobal təhdidlərə qarşı mübarizədə səmərəli və inklüziv yanaşmaları ilə həll yolları müəyyənləşdirən Azərbaycan bu dəfə də mühüm təşəbbüslərlə çıxış etdi və konfransa ev sahibliyi edən dövlət kimi dünya birliyini COP29-dan anlaşma, sülh və barış platforması kimi istifadə olunmasına çağırdı.

Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkəmiz Avropa Birliyinin 10 ölkəsinin etibarlı enerji təminatçısıdır. Azərbaycan COP29 platforması çərçivəsində göstərdi ki, alternativ enerji ilə bağlı layihələr, o cümlədən “yaşıl” enerjinin dünya bazarına nəqli dövlətimizin enerji siyasətində prioritet sahələrdir. Prezident İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında ekoloji mühitin sağlamlaşdırılması məqsədilə bir sıra mühüm vəzifələr müəyyənləşdirilib və biomüxtəlifliyin mühafizəsi, su və digər təbii ehtiyatların davamlı və səmərəli idarə olunması sahəsində nəzərəçarpacaq nailiyyətlər əldə olunub.

COP29 konfransında iştirak etmək üçün 196 ölkədən ölkəmizə gəlmiş 76 min iştirakçının arasında 80 prezident, vitse-prezident və baş nazirlər vardı. Bu da ölkəmizin beynəlxalq arenada qazandığı nüfuzun və qlobal miqyaslı etimadın göstəricisidir. COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməklə ölkəmiz ətraf mühitə verdiyi önəmin, daha geniş anlamda isə sağlam bir dünyanın gələcək nəsillərə ötürülməsi üçün qlobal məqsədlərin gerçəkləşdirilməsinə verdiyi töhfənin göstəricisidir.

Sammitin açılış mərasimində Prezident İlham Əliyevin çıxışı iqlim dəyişmələri ilə bağlı məsələlərin həllinə Azərbaycanın yanaşmasını və qlobal səviyyədəki töhfəsini əks etdirən mühüm məqamlarla yadda qaldı. COP29 Liderlər Sammiti ilə ölkəmiz beynəlxalq birliyə iqlim çağırışları ilə bağlı müzakirələrin aparılması üçün böyük bir platforma təqdim etdi. Bakıda COP29-un yüksək səviyyədə keçirilməsi müxtəlif ölkələri təmsil edən qonaqlar, rəsmi şəxslər, media nümayəndələri və ekspertlərlə yanaşı, dünya liderləri tərəfindən də olduqca yüksək qiymətləndirildi. Dövlət başçıları, yüksək səviyyəli rəsmi nümayəndələr konfrans çərçivəsində keçirilən plenar iclaslarda, eləcə də digər tədbir və görüşlərdə, müsahibələrində Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətini, qonaqpərvərliyini və peşəkarlığını qeyd edərək COP29 danışıqlarının uğurla nəticələndiyini təsdiq etdilər.

Aydındır ki, iqlim dəyişmələrinin fəsadları bütün dünya üçün ciddi narahatlıq yaradır. Lakin bundan ən çox təsirlənən ölkələr ilk növbədə inkişaf etməmiş və ya inkişafda olan kiçik ada dövlətləridir. Qlobal iqlim dəyişmləri bu ölkələr üçün ekzistensial təhlükə yaradır. Məhz Bakının təşəbbüsü ilə iqlim dəyişmələrinin inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün yaratdığı problemlər Tərəflər Konfransının 29-cu sessiyasının əsas mövzularından birinə çevrildi. Azərbaycan dövləti bəyan etdi ki, bu problemin həlli qlobal səylər və qlobal həmrəylik tələb edir. Prezident İlham Əliyev COP29 çərçivəsində noyabrın 13-də keçirilən İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammitində çıxışı zamanı “Mən inkişaf etmiş ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə kiçik ada ölkələrinə yardım etmələri üçün müraciət edirəm”, – deməklə həm də kiçik ada dövlətlərinin taleyi üçün olduqca əhəmiyyətli bir ənənənin əsasını qoydu. Qlobal iqlim konfransında ilk dəfə kiçik ada dövlətlərinin problemləri beynəlxalq arenada Azərbaycan Prezidenti tərəfindən səsləndirildi və dünya birliyinin diqqəti bu problemlərin həllinə çəkildi.

Qlobal səviyyədə bərabərhüquqlu əməkdaşlığa və beynəlxalq ədalətə üstünlük verən Azərbaycan dövləti kiçik ada dövlətlərinə həmişə yardım və dəstək verib. Təbii fəlakətlər zamanı humanitar yardımların göstərilməsi, həmin ölkələrdə həyata keçirilən mədəni irsin bərpası layihələri və zəif inkişaf etmiş ölkələrin vətəndaşlarına ali təhsil üçün təqdim edilən təqaüd proqramları bu istiqamətdə atılmış mühüm addımlardır. Xüsusilə dövlətimizin Qoşulmama Hərəkatına sədrliyi müddətində 20 kiçik ada dövləti də daxil olmaqla çoxsaylı ölkələrə humanitar və maliyyə yardımları təqdim etməsi bu istiqamətdə Azərbaycanın atdığı xoşməramlı addımlardır.

Tərəflər Konfransının 29-cu sessiyasında da ilk dəfə olaraq iqlim dəyişmələrinin Fransa və Niderlandın keçmiş müstəmləkə ərazilərində daha çox hiss olunduğu barədə açıq bəyanatlar səsləndirildi. Xüsusilə Karib dənizi və Sakit okean hövzəsində ekosistemin pozulmasının ciddi narahatlıq doğurduğu bəyan edildi. Fransa Polineziyasında və Yeni Kaledoniyada nüvə sınaqları nəticəsində ətraf mühitə və yerli icmaların sağlamlığına vurulmuş ciddi zərərlərdən danışıldı. O da vurğulandı ki, Fransa rejiminin bu ərazilərdəki repressiv siyasəti Yeni Kaledoniya və digər müstəmləkə ərazilərində insan hüquqlarının pozulması halları ilə müşayiət olunur. Təəssüf ki, bu hadisələr Avropa Parlamenti, Avropa Komissiyası tərəfindən gözardı edilir və özlərini müstəsna olaraq dünyanın sivil hissəsi hesab edən inkişaf etmiş ölkələr tərəfindən həyəcan təbili çalınmır. Əksinə, onlar həmişə bu barədə susmağa üstünlük veriblər. Bu, Avropa diplomatiyasının ikili standartlarını, həm də beynəlxalq səviyyədə ədalət anlayışına birmənalı yanaşmanın mövcud olmadığını göstərir.

Əlbəttə, COP29 çərçivəsində müzakirə edilən məsələlər heç də bütün dövlətlərin asanlıqla həmrəy olacağı sadə məsələlər deyildi. Xüsusilə iqtisadi cəhətdən yüksək inkişaf etmiş ölkələr vaxtilə özləri üçün yaratdığı imtiyazlardan sui-istifadə edərək planetin və atmosferin çirklənməsində daha çox iştirak ediblər. Bu gün də həmin ölkələrdə fəaliyyət göstərən nəhəng miqyaslı trans-milli sənaye obyektləri ətraf mühitin çirkləndirilməsində aparıcı rol oynayırlar. Buna baxmayaraq, konfransa sədrlik edən Azərbaycan müzakirələri ortaq məxrəcə gətirərək müsbət nəticə ilə sonuclandırmağı bacardı. Konfransa rəhbərlik edən dövlətin başçısı kimi Azərbaycan liderinin siyasi peşəkarlığı və mahir diplomatiyası burada da öz sözünü dedi və bir çox məsələlər üzrə vahid yanaşma platformasının formalaşdırılması mümkün oldu. Prezident İlham Əliyevin COP29-a ev sahibliyi etməklə bağlı təşəbbüsünün uğurlu nəticələri ölkəmizin qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə qazanılmış böyük etimadı bir daha doğrultdu.

Bakıda keçirilmiş COP29 konfransı dünya ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirildi. Məsələn, Moldova Respublikasının “Noi.md” xəbər portalında rus və rumın dillərində nəşr edilən “Moldova Prezidenti və Bakıda keçirilən COP29-un digər nüfuzlu iştirakçıları Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə ideyalarını dəstəkləyirlər” sərlövhəli məqalədə belə bir nüfuzlu beynəlxalq konfransın Bakıda təşkili təqdir edilir, müzakirə olunan strateji mövzular geniş təhlil olunur və bildirilir ki, konfransda iştirak edən dövlət başçıları, bütövlükdə, konfransın gedişatını və hər sessiyanın əsas doktrinasını alqışlayıblar.

Bütün bunlar onu deməyə əsas verir ki, COP29 ərəfəsində Fransanın “moderatorluğu” ilə Azərbaycana qarşı həyata keçirilən qarayaxma kampaniyaları iflasa uğradı və nəticəsiz qaldı. Son günlərdə dünya mediasının gündəmində əsas müzakirə mövzusu olan COP29 konfransı ictimaiyyətə həm də onu göstərmiş oldu ki, ölkəmiz qlobal problemlərdən olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə geniş miqyasda öz töhfələrini verə bilmək iqtidarındadır.

# Sabun köpüyü

**(əvvəli 1-ci səhifədə)**



Ancaq Ermənistan, belə demək mümkünsə, “dövlət piratçılığı” yolu ilə də xüsusi bir iqtisadi irəliləyişə nail olmur. Axı “Quyuya su tökməklə sulanmaz!” Beləliklə, 2024-cü ilin yanvar–oktyabr aylarında ölkədə iqtisadi fəallığın 8,1 faiz əhəmiyyətli artımına baxmayaraq, ekspertlər və analitiklər iqtisadiyyatda ciddi struktur problemlərinin olduğunu qabardır və artımın səngiyəcəyi riskləri barədə söz açırlar. Bunu noyabrın 25-də Ermənistan statistika komitəsinin açıqladığı rəqəmlər də təsdiqləyir. Bildirilir ki, oktyabrda artım templərində azalma müşahidə olunub. Konkret olaraq, sentyabr ayı ilə müqayisədə, 4,6 faiz azalma var.

2024-cü ilin ilk on ayında iqtisadi artımın əsas amilləri ticarət (18,8 faiz), tikinti (15,5 faiz) və sənaye (11,7 faiz) olub. Xidmətlər sektoru üzrə cəmi 5,8 faizlə daha mülayim artım var. Xarici ticarətdə xüsusilə təsirli rəqəmlər qeydə alınıb: ümumi ticarət dövriyyəsi 67,6 faiz, ixrac 95,1 faiz, idxal isə 50,8 faiz artıb. Əlbətdə ticarətdə artımın nəyin hesabına olduğunu açıqladıq. Elə isə davam edək. Daha doğrusu, həyəcanverici tendensiyalara keçid alaq. Məsələn, iqtisadçı Suren Parsyan öz təhlilində, ilk baxışdan, müsbət perspektiv vəd edən bəzi rəqəmlərin arxasında gizlənən ciddi problemləri qeyd edib. Onun sözlərinə görə, Ermənistanda iqtisadi aktivliyin tempi oktyabrda 8,1 faiz azalmaqda davam edib və bu, ilk on ayın göstəricisidir. Ekspertin fikrincə, göstəricini doğuran səbəb bitkiçilik sektorunda 12 faiz azalmanın qeydə alınmasıdır. Əlbəttə, geriləməni doğuran həm də zərgərlik məmulatlarının istehsalı həcmindəki mənfi hallardır. Onun sözlərinə görə, qızılın təkrar ixracı faizlərinin azalması fonunda noyabr və dekabr aylarında azalma daha da dərinləşəcək.

Ermənistanın ümumi durumundakı xoş olmayan vəziyyəti şərtləndirən sırf iqtisadi amillər deyil. Ekspertlər dövlət idarəçiliyində sistemli problemlərin olduğunu bildirirlər. Məsələn, “Luys” analitik fondu 2024-cü ilin doqquz ayı üzrə dövlət büdcəsinin icrasının nəticələrinə əsasən apardığı araşdırmada dövlət proqramlarının yerinə yetirilməsində kritik problemlər aşkarlayıb. Bu isə öz növbəsində, ümumi iqtisadi fəaliyyətə mənfi təsir göstərib. Məsələ ondadır ki, Ermənistanda ümumi büdcə və vergi gəlirlərinin artımı müvafiq olaraq 6,4 faiz və 7,8 faiz dəqiqləşdirilmiş plana çatmayıb.

Əsaslı məsrəflərlə bağlı vəziyyətdə də xüsusi narahatlıq var ki, həmin məsrəflərin yerinə yetirilməsi cari xərclərin tam yerinə yetirilməməsindən 3,2 dəfə çoxdur. “Bu, təkcə dövlət aparatının səmərəsizliyinə işarə etmir, həm də ölkənin iqtisadi artım potensialını sarsıdır”, – deyə sözügedən fondun analitikləri vurğulayıblar. Onlar ən problemli proqramların şəhərsalma, yüksək texnologiyalar və ətraf mühitin mühafizəsi sahəsini əhatə etdiyini önə çəkib və bildiriblər ki, mövcud istiqamətlərdə işlərin 69 faizi icra olunmayıb.

“Luys” ekspertlərinin fikrincə, Ermənistanda dövlət idarəçiliyinin səmərəsizliyi özünü daha çox təhsil müəssisələrinin tikintisi və modernləşdirilməsi proqramları üzrə göstərib. Belə ki, 121 milyon dollarlıq planla doqquz ayda cəmi 20 milyon dollar xərclənib ki, bu rəqəm həmin xərclərin təyinatı üzrə olmasını şübhə altına alır. Halbuki, plana görə, 300 məktəb və 500 uşaq bağçasının tikintisi nəzərdə tutulmuşdu.

Eyni zamanda, ölkə üçün strateji əhəmiyyət daşıyan hərbi-sənaye kompleksinin inkişafı proqramının tam icra edilməməsi və rəqəmsal transformasiya proqramının minimum, yəni cəmi 2,6 faiz icrası da ekspert dairələrində xüsusi narahatlıq doğurur. Analitiklər, həmçinin iqtisadi artımın ümumi zəifləməsi fonunda dövlət investisiyalarının qeyri-kafi səviyyədə olması ilə bağlı Ermənistan iqtisadiyyatı üçün ciddi risk faktorlarından söz açırlar.

Digər yandan, ekspertlər bildirirlər ki, artan geosiyasi risklər, hərbi münaqişə təhlükəsi, nəqliyyat məhdudiyyətləri və məhdud daxili bazar səbəbindən ölkə xarici özəl investisiyaların cəlb edilməsində ciddi problemlər yaşayır. Belə bir şəraitdə dövlət investisiya proqramlarının kifayət qədər maliyyələşdirilməsi iqtisadi inkişaf potensialını sarsıdır. Mövcud şəraitdə dövlət kapitalının inyeksiyasının problemli şəkildə həyata keçirilməsi xüsusilə təhlükəlidir. Çünki məhz iri dövlət layihələri işgüzar aktivliyi saxlamaq və xarici artım amillərinin zəifləməsini kompensasiya etmək üçün mühüm stimul ola bilər. Adekvat dövlət investisiyaları olmadan isə iqtisadiyyat vaxtından əvvəl tənəzzülə girmək riski ilə üzləşir ki, bunun da ölkənin uzunmüddətli inkişaf perspektivlərinə mənfi təsir göstərmə ehtimalı son dərəcə böyükdür.

Başqa bir məqama diqqət yetirək. Ermənistanda iqtisadiyyatın ciddi şəkildə geriləməsi şəraitində hökumətin 2025-ci ildə dövlət büdcəsinə vergi daxilolmalarının həcmini əhəmiyyətli dərəcədə artırmaq istəyi ekspertlərin narahatlığına səbəb olur. Onlar biznesə vergi təzyiqinin sərtləşdirilməsini proqnozlaşdırırlar ki, bunun da ümumi investisiya mühitinə mənfi təsiri qaçılmazdır. Məsələn, Ermənistanın keçmiş maliyyə naziri Vardan Aramyan bildirib ki, hökumətin vergi inzibatçılığını sərtləşdirmək planları həyəcanverici durum formalaşdırır. “Bu, iqtisadiyyatda təhriflərə gətirib çıxaracaq və onsuz da ağır günlər yaşayan investisiya mühitinə mənfi təsir göstərəcək”, – deyən sabiq nazir xəbərdarlıq edib.

V.Aramyan, habelə, kapital axınının ciddi narahatlıq doğuran tendensiyasına da xüsusi diqqət yetirib: “Artıq bu ilin birinci yarısında biz Ermənistandan kapital axınını görürük. İlin birinci yarısı üçün birbaşa xarici investisiyaların ümumi saldosu mənfidir. Yəni, mənfi 55 milyon dollar. Xarici investorlar Ermənistan iqtisadiyyatını pul qazanmaq üçün cəlbedici mühit hesab etmirsə, ortada təhlükəli durum var”.

Bundan başqa, “Luys” fondunun analitikləri 2024-cü ilin doqquz ayı ərzində Ermənistanın dövlət borcunun 5,5 faiz artdığını və bu göstəricinin 12,5 milyard dolları keçdiyini qeyd edirlər. Daxili borcun 51,8 faizə çatan rekord payı xüsusi narahatlıq doğurur ki, bu da daha yüksək faiz dərəcələri səbəbindən, istər-istəməz, xidmət xərclərinin artmasına səbəb olacaq.

Həmçinin, iqtisadi sahənin mütəxəssisləri rüblər üzrə iqtisadi artımın sabit zəifləməsini qeydə alıblar. Belə ki, 2024-cü ilin birinci rübündə – bir il əvvəlki 11,8 faizə nisbətən 6,6 faiz, ikinci rübdə 6,4 faizə qarşı 9,3 faiz, üçüncü rübdə isə 7,4 faizə qarşı 5,2 faiz zəifləmə var. Durum Rusiya – Ukrayna münaqişəsi ilə bağlı xarici amillərin müsbət təsirinin zəifləməsi və iqtisadiyyata dövlət dəstəyinin effektiv tədbirlərinin olmaması ilə bağlıdır.

Bütün bunlara görə, fikirlərini az əvvəl diqqətə çatdırdığımız sabiq maliyyə naziri V.Aramyanın proqnozuna görə, Ermənistanın 2025-ci il büdcəsinin icrası ciddi problemlərlə üzləşəcək. Nəticədə planlaşdırılan iqtisadi artım tempinin 5,6 faizə çatması böyük sual altına düşəcək. Sonda qeyd edək ki, əlbəttə, Ermənistan rəhbərliyi gücü silahlanmağa verirsə, iqtisadi inkişafdan danışmağa dəyməz. Rəsmi İrəvan ölkəni Qərbin Cənubi Qafqaz avantürasının alətinə çevirirsə, heç dəyməz. Yalnız gələcək iflası proqnozlaşdırmaq olar. İflas ssenarsisi isə hər ötən gün özünü daha qabarıq göstərməkdədir. Qərb yönümlü Nikol Paşinyan administrasiyasının Ermənistanı regionda anti-Rusiya, anti-Azərbaycan cəbhəsi formalaşdırmaq üçün yalnız ofis kimi idarə etdiyi bir durumda başqa perspektiv mümkün də deyil.

***Ə.RÜSTƏMOV***
***XQ***




# Azərbaycan dünyaya yaşıl qətiyyət etalonu təqdim etdi

(əvvəli 1-ci səhifədə)

**Milli Məclisin deputatı, Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü, "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri, sosial fəlsəfə üzrə fəlsəfə doktoru Azər ALLAHVERƏNOV dedi:**



– Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının ölkəmizdə keçirilmiş 29-cu sessiyasının (COP29) yekunları və onun uğurlu nəticələri Azərbaycan vətəndaşı kimi hər birimizdə qürur hissi doğurur. Çünki dünyanın indiyədək iqlim dəyişiklikləri ilə mübarizə sahəsində əldə etdiyi ən böyük uğurlara məhz Bakı iqlim konfransında imza atıldı.

Qeyd etmək istəyirəm ki, COP29-a qədər olan proseslər onu göstərirdi ki, Azərbaycan paytaxtında keçiriləcək iqlim müzakirələrində kifayət qədər vacib məsələlər müzakirəyə çıxarılacaq. Elə Bakı iqlim konfransından əvvəl kifayət qədər iddialı, tam fərqli qütblərin və ziddiyyətli mövqe sərgiləyən qüvvələrin fikirlərini əks etdirən, hətta mübahisə doğuracaq məsələlərin gündəliyə salınması ilə bağlı müəyyən təkliflərin irəli sürülməsi də bunu təsdiq edirdi. Ümumilikdə isə, dünyanın bu məsələlərlə bağlı skeptik bir yanaşması vardı.

Məlum olduğu kimi, COP29-un Azərbaycana həvalə olunması ilə bağlı qərar ötən ilin sonlarında Dubayda keçirilmiş COP28-də qəbul edilmişdi. Bu ilin fevral ayından etibarən isə Azərbaycan çox ciddi şəkildə COP29-a hazırlaşmağa başladı. Elə bir sıra konseptual qərarlar da məhz həmin ayda verildi. Ən vacib qərar isə, heç şübhəsiz, ölkəmizin təşəbbüsü ilə COP28, COP29 və COP30 sədrliklərindən ibarət "Troika" kimi tanınan üçlüyün yaradılması idi. Üç ölkənin nümayəndələrindən ibarət platformanın qarşısına kifayət qədər iddialı hədəflər qoyuldu. Xüsusən də COP29-un iqlim maliyyəsi gündəliyinin müəyyən olunması və ondan irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı üzərinə çox böyük öhdəliklər düşdü.

Təsadüfi deyil ki, elə məhz həmin kontekstdən çıxış edərək COP29-u haqlı olaraq iqlim maliyyəsi COP-u da adlandırırdılar. Çünki iqlim maliyyələşməsi ilə bağlı çox ciddi qərarlar məhz Bakıda verilməli idi. Nəticə etibarilə uzun çəkən danışıqlar, Azərbaycanın vasitəçiliyi ilə keçirilən görüşlər, tərəflərin tamamilə ziddiyyətli mövqeyi – qlobal Cənub və qlobal Şimala aid edilən dövlətlərin bəzi hallarda maliyyə hədəfləri ilə bağlı məsələlərə fərqli yanaşması, xüsusən də inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan dövlətlərə maliyyə yardımı edilməsindən yayınmağa cəhdlər göstərməsi kimi məsələlər bu və ya digər şəkildə özünü büruzə verirdi. Hətta deyərdim ki, dünyanın inkişaf etmiş ölkələrində məsələyə skeptik yanaşanlar və bundan irəli gələrək müəyyən mənada proseslərə elə də fəal qoşulmayan tərəflər də var idi. Onlar hesab edirdilər ki, COP29 da COP28 kimi heç bir nəticə əldə olunmadan bitəcək, əsas qərarlar isə COP30-da qəbul ediləcək. Amma bütün bunlara baxmayaraq, Azərbaycan bu prosesə çox inamlı şəkildə start verdi. Ölkəmizdə təşkilatçılıq nöqteyi-nəzərindən uğurlu işlər görüldü. COP29 günlərində isə qərarların qəbul olunması sahəsində konseptual addımlar atıldı.

Qeyd etmək istəyirəm ki, ölkəmiz qarşıya qoyulmuş hədəflərə heç də rahat olmayan bir şəraitdə çata bildi. Çünki geosiyasi müstəvidə cərəyan edən gərginliklər, müxtəlif qitələrdə gedən müharibələr, eləcə də dünyanın aparıcı dövlətlərinin hazırda diqqəti daha çox özlərinin təhlükəsizlik sistemi ilə bağlı məsələlərə yönəltməsi ilk baxışdan iqlim mövzusunu bir qədər arxa plana atmışdı. Amma Azərbaycanın səyi nəticəsində bu məsələ yenidən önə çıxarıldı. Ölkəmiz iki həftə ərzində dünyanın bütün informasiya resurslarının şahidliyi ilə BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına uğurla ev sahibliyi etdi. Bu konfransda qəbul olunan mütərəqqi qərarlar isə hələ uzun müddət müzakirə olunacaq. Çünki Bakı iqlim konfransında qəbul edilmiş qərarlar, həqiqətən də, planetimizin gələcəyinin zəmanətli şəkildə təmin olunmasına xidmət edən qərarlardır.

Bəs həmin qərarlar hansılardır? İlk öncə Bakı Maliyyə Məqsədi barədə razılaşmanın əhəmiyyətini diqqətə çatdırmaq istəyirəm. Hər şeydən əvvəl, COP29-un Bakı Maliyyə Məqsədi sənədi inkişaf etmiş ölkələrin 2035-ci ilədək inkişaf etməkdə olan ölkələr üçün hər il, ən azı, 300 milyard dollar vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirdi. Artıq ümumi razılığa gəlindi ki, bu həcmdə vəsait həm də inkişaf etməkdə olan dövlətlərə veriləcək. Doğrudur, onların gözləntiləri 2035-ci ilədək bu məbləğin 1 trilyon dollardan daha yuxarı olması ilə bağlı idi. Yeri gəlmişkən, iqlim maliyyələşdirilməsi ilə bağlı növbəti hədəf – 1,3 trilyon dolların ayrılması ilə bağlı müəyyən razılığa da məhz COP29-də gəlindi. Düşünürəm ki, Bakı Maliyyə Məqsədi ilə bağlı razılığın əldə olunması faktiki olaraq təkcə COP29-un yox, ümumilikdə, bütün COP-ların ən uğurlu qərarlarından biri hesab olunur. Çünki indiyədək belə bir məbləğ barədə heç düşüncələr belə yox idi. Bu heç inandırıcı da görünmürdü. Çünki, qeyd etdiyim kimi, inkişaf etmiş ölkələr bundan hər vəchlə yayınmağa çalışırdılar.

COP29-da Paris sazişinin 6-cı maddəsi tam olaraq işlək vəziyyətə gətirildi. Bu da son dərəcə mühüm bir nailiyyətdir. Çünki 2015-ci ildən bəri Paris sazişinin bu maddəsi ilə bağlı çoxlu mübahisəli, ziddiyyətli fikirlər mövcud idi. Bu sahədə müəyyən polemikalar aparılırdı. Amma bütün bunlara baxmayaraq, heç bir razılıq əldə olunmurdu. Hətta COP29-a qədər sözügedən maddə ilə bağlı mənfi fikirlər də səsləndirilirdi. Amma COP29-da Azərbaycanın xüsusi səyi nəticəsində Paris sazişinin 6-cı maddəsi ilə bağlı razılıq əldə olundu. Qeyd edim ki, bir ölkədə emissiyanın azaldılması hesabına karbon bazarları vasitəsilə digər ölkədə emissiyaların çox olmasının tarazlaşdırılmasına razılığın verilməsi, bütövlükdə, Paris sazişinin 6-cı maddəsinin təmin olunmasına xidmət edən vacib bir elementdir. Bu da olduqca təqdirəlayiq bir haldır.

COP29-un növbəti uğuru 2025-ci ildə fəaliyyətə başlayacaq İtki və Zərər Fondunun təsdiqi ilə bağlıdır. Xatırladım ki, 2022-ci ildə yaradılmış bu fond vasitəsilə müəyyən vəsaitin akkumulyasiya olunması ilə bağlı fikirlər var idi. Amma bu fondun işlək mexanizmə çevrilməsi ilə bağlı yekun qərar məhz Bakıda verildi. Artıq ölkələr tərəfindən İtki və Zərər Fonduna vəd edilən vəsaitin həcmi 730 milyon dolları ötüb. Bu da onu göstərir ki, artıq fond iqlim dəyişikliklərinin təsirlərinə məruz qalan ölkələrə böyük həcmdə maliyyə yardımı ayırmaq iqtidarındadır.

Bakı Adaptasiya Yol Xəritəsinin yaradılması da COP29-un önəmli qərarlarındandır. Bu olduqca vacib bir sənəddir. Çünki adaptasiya məsələsi Paris sazişinin ikinci mühüm məqsədlərindən biridir. Yol Xəritəsinin məhz COP29-da Azərbaycanın təşəbbüsü ilə yaradılması ölkəmizin çox böyük uğurlarından biri hesab edilir.

Bütövlükdə isə, sadaladığım bu uğurlar hesabına Bakıda iqlim dəyişiklikləri ilə mübarizədə dönüş nöqtəsinin baş verdiyini böyük əminliklə söyləmək olar. Dönüş nöqtəsi, həm də onunla bağlıdır ki, Azərbaycanda keçirilən COP29 bir çox müsbət presedentlərin əsasını qoydu. Gələcəkdə COP formatında keçiriləcək tədbirlər üçün çox yüksək bir format müəyyənləşdirildi. Bu format çox ideal, həm də olduqca iddialıdır. Eyni zamanda, Azərbaycanın praqmatik baxışı bu formatın əlçatanlığının təmin olunmasına xidmət etdi.

Məlum olduğu kimi, Azərbaycanın çoxsaylı tərəfdaşları, strateji müttəfiqləri var. Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İslam Ölkələri Təşkilatında və digər platformalarda ölkəmizi dəstəkləyən dövlətlərin sayı getdikcə artır. Azərbaycanın sadaladığım bu platformalarda uğurlu təmsilçiliyi, eləcə də ölkəmizin etibarlı tərəfdaş kimi mövqeyini getdikcə gücləndirməsi həmin dövlətlərin bizə olan inamını daha da artırdı. Nəticədə, Azərbaycana yenidən etimad göstərildi, tərəfdaşlarımız və müttəfiqlərimiz iqlimlə bağlı uğurların əldə olunmasında ölkəmizin yanında oldular. Bunun da nəticəsində Azərbaycan, sadəcə, ev sahibi yox, həm də iqlim cəbhəsində iştirak edən ölkələr sırasında öncül mövqe qazandı.

COP29-da qəbul edilən bir sıra mühüm qərarlar onu göstərdi ki, Azərbaycanın məsələyə yanaşması, baxış bucağı, ölkəmizin bununla bağlı perspektivləri, üzərinə götürdüyü öhdəlikləri, regional müstəvidə bir çox uğurlu fəaliyyətlərin həyata keçirilməsi, xüsusən də yaşıl iqtisadiyyata keçid, yaşıl energetikasının inkişaf etdirilməsi sahəsində əldə etdiyi uğurlu nəticələri COP30-da və bundan sonra keçiriləcək digər iqlim tədbirlərində nümunə olaraq göstəriləcək. Eyni zamanda, planetar mahiyyət kəsb edən bu kimi formatlarda və dünyada gedən proseslərin fövqündə, xüsusilə də iqlim dəyişiklikləri ilə mübarizə sahəsində Azərbaycanın ön mövqelərdə qərarlaşması olduqca qürurvericidir.

Ümummilli mahiyyət kəsb edən bütün məsələlərdə xalqımız hər zaman dövlətimizin, cənab Prezidentin yanındadır. İqlim dəyişikliyi ilə mübarizə sahəsində dövlətimiz tərəfindən həyata keçirilən strategiya da həmin mühüm məsələlərdəndir. Bu mövqedən çıxış edərək düşünürəm ki, hər bir vətəndaş da iqlim dəyişiklikləri ilə mübarizə kontekstində Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin icra olunmasına öz töhfəsini verməklə iştirakını gücləndirməlidir. Bu prosesdə kifayət qədər fəal rol oynayan qeyri-hökumət təşkilatlarının təşəbbüsü ilə yaradılmış bir çox platformalar da bu istiqamətdə növbəti uğurların əldə olunmasına xidmət edəcək. Eyni zamanda, milli qeyri-hökumət təşkilatlarının bir çox istiqamətlərdə uğurla fəaliyyət göstərməsi, onların ayrı-ayrı qütblərdə müxtəlif koalisiyaların yaradılmasında yaxından iştirakı dövlət olaraq öz üzərimizə götürdüyümüz bir sıra vacib öhdəliklərin uğurla icra olunmasını təmin etmək üçün əlavə QHT seqmentinin prosesə daha fəal şəkildə qoşulmasına imkan yaradacaq. Əminliklə deyə bilərəm ki, Braziliyada keçiriləcək növbəti COP30-da həmin beynəlxalq platforma və koalisiyalar il ərzində qazanacaqları uğurları təqdim edə biləcəklər.

# Bakı konfransı iqlim həmrəyliyinə yeni nəfəs verdi

**COP29-un Azərbaycanda keçiriləcəyi ilə bağlı yekdil qərar imzalandığı ilk günlərdən konfrans başa çatana kimi Fransa, ABŞ, Niderland, Norveç, Almaniya və digər ölkələrın respublikamıza qarşı qarayaxma, təzyiq kampaniyaları ara vermədi. Bütün bunlara baxmayaraq sammit uğurlu sonluqla yekunlaşdı. Bir sözlə, nüfuzlu bir tədbiri siyasi şouya çevirmək istəyənlərin, suyu bulandırmağa cəhd göstərənlərin bütün cəhdləri nəticəsiz qaldı.**




Siyasi və iqtisadi məsələlər üzrə şərhçi, Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri Fikrət Yusifovun sözlərinə görə, dünyada ən mötəbər tədbirlərindən hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi qərarının qəbulundan ötən müddət ərzində bu sammitin ölkəmizdə keçirilməsini istəməyən güclər bütün imkanlarını bir araya gətirərək belə bir toplantının respublikamızda keçirilməsini boykot etməyə çalışdılar. Lakin alınmadı. Qərbin bu sıradan olan ədalətsizliklərinə bir qayda olaraq öz əməli işi ilə cavab verən Azərbaycan növbəti dəfə bu basqılara qətiyyətlə sinə gərdi.

Ermənistan hərbi birləşmələri tərəfindən torpaqlarımızın 30 il işğal altında saxlandığı zaman kəsiyində Qərbin bu problemin çözülməsi istiqamətində sərgilədiyi ikili standartları nə Azərbaycan hakimiyyəti, nə də Azərbaycan xalqı unutmayacaq. Bu dövrdə nə ABŞ, nə də Avropa Birliyi torpaqlarımızın işğaldan azad edilməsi yolunda heç bir əməli addım atmadı. Yeganə edə bildikləri ATƏT-in Minsk Qrupunun 30 il ərzində bölgəyə mənasız səfərlərini təşkil etmək oldu. Dünyanın istənilən ölkəsinə BMT Təhlükəsizlik Şurasının razılığı olmadan, min bir bəhanə tapıb hərbi müdaxilə edənlər, 30 il ərzində işğal olunmuş torpaqlarımızdan erməni hərbi birləşmələrinin qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını gerçəkləşdirəcək bir addım belə atmaq istəmədilər.

Problemin həllində Qərbin belə yanaşmasını görən Azərbaycan hökuməti sonda öz ordusu ilə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını reallaşdırdı. Məhz ölkəmizin bu addımından sonra Qərbin ona qarşı basqıları daha da artdı. Qərb Fransa kimi işğalçı və dünyada siyasi əxlaqa sığmayan əməlləri ilə tanınan bir ölkənin əli ilə Azərbaycana təzyiqləri artırmaqda davam etdi. Azərbaycanın bir milyon qaçqın və köçkününü, Qarabağda daşın daş üstündə saxlanmadığını görməzdən gələn bu dövlətlər indi də qəsbkardan təmizlənən torpaqlardan öz istəyi ilə gedən erməniləri ora qaytarmağın yollarını axtarırlar. Bu, əslində, erməni sevgisi deyil! Bu, sadəcə, bölgəyə girmək üçün seçdikləri yoldur! Ancaq ağılsız bir seçimdir.

F.Yusifov bildirir ki, Azərbaycan bu gün Qərbin siyasi dairələrinin bütün basqılarına baxmayaraq öz siyasi iradəsini dünyaya nümayiş etdirir. Azərbaycan kiminsə vassalı olacaq bir dövlət deyil! Qərbin böyük gücü hesab edilən Fransa kimi dövlətlərin həzm edə bilmədikləri bax, budur. Onlar özlərindən kiçik ölkələrin müstəqil siyasət yürütməsini həzm edə bilmirlər. Bu səbəbdən də əllərinə düşən istənilən fürsətdən Azərbaycana qarşı basqı edirlər.

Beləliklə, Azərbaycanın uğurlarına qısqanclıqla yanaşan, ölkəmizə şər-böhtan atmaqdan belə çəkinməyən həmin ölkələrin diqtəsi ilə aparılan qarayaxma kampaniyaları uğursuzluqla nəticələndi. Konfrans iştirakçılarında Azərbaycanda mövcud xalq-iqtidar birliyi haqqında aydın təsəvvür yarandı. Dövlətimizin başçısının iqlim konfransında dərin məzmunlu çıxışları, müxtəlif ölkə rəhbərləri və digər ali qonaqlarla səmimi görüşlərindəki söhbətləri Prezident İlham Əliyevin sülhpərvər siyasət yürütdüyünü, yerləşdiyimiz coğrafiyada əmin-amanlığın tərəfdarı olduğunu bir daha dünyaya nümayiş etdirdi.

# "Yaşıl" keçidə dəstək

**İqtisadiyyat Nazirliyinin Harvard Universiteti ilə birgə hazırladığı və COP29-a təqdim etdiyi "Yaşıl artım portalı" ölkələrə və investorlara "yaşıl" keçid strategiyalarını təkmilləşdirməyə kömək edəcək.**




İqtisadiyyat naziri Mikayıl Cabbarov bununla bağlı bildirib ki, Harvard Universitetinin Beynəlxalq İnkişaf Mərkəzinin təsisçisi və direktoru, professor Rikardo Hausmanın rəhbərliyi ilə yaradılan interaktiv alət "yaşıl" dəyər zənciri üzrə tədqiqat məlumatlarını əhatə edir: "Yaşıl artım portalı" karbonsuzlaşmaya xidmət edən yeni sənaye sahələrinin, yeni bazarların və inkişaf istiqamətlərinin formalaşmasını stimullaşdıracaq. Karbonsuz iqtisadiyyat üçün təchizatçı olmaq "yaşıl" artıma və qlobal emissiyaların azalmasına töhfə verəcək".

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycan Respublikasında seçki keçiriləcək bələdiyyələrin siyahısı

**1 saylı Şərur-Sədərək seçki dairəsi**
*Şərur rayonu üzrə*
1. Alışar bələdiyyəsi
2. Dizə bələdiyyəsi
3. Düdəngə bələdiyyəsi
4. Kürçülü bələdiyyəsi
5. Qarxun bələdiyyəsi
6. Siyaqut bələdiyyəsi
*Sədərək rayonu üzrə*
7. Dəmirçi bələdiyyəsi
8. Sədərək bələdiyyəsi

**2 saylı Şərur-Kəngərli seçki dairəsi**
*Şərur rayonu üzrə*
1. Çərçiboğan bələdiyyəsi
2. Daşarx bələdiyyəsi
3. Xanlıqlar bələdiyyəsi
4. Qışlaqabbas bələdiyyəsi
5. Püsyan bələdiyyəsi
6. Şərur bələdiyyəsi
*Kəngərli rayonu üzrə*
7. Qarabağlar bələdiyyəsi
8. Qıvraq bələdiyyəsi

**3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsi**
*Babək rayonu üzrə*
1. Babək bələdiyyəsi
2. Cəhri bələdiyyəsi
3. Şıxmahmud bələdiyyəsi
4. Vayxır bələdiyyəsi
*Şahbuz rayonu üzrə*
5. Ayrınc bələdiyyəsi
6. Kolanı bələdiyyəsi
7. Külüs bələdiyyəsi
8. Şahbuz bələdiyyəsi
*Kəngərli rayonu üzrə*
9. Xok bələdiyyəsi

**4 saylı Naxçıvan şəhər seçki dairəsi**
1. Naxçıvan bələdiyyəsi (bir hissəsi)

**5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsi**
*Babək rayonu üzrə*
1. Qahab bələdiyyəsi
2. Nehrəm bələdiyyəsi
3. Sirab bələdiyyəsi
*Naxçıvan rayonu üzrə*
4. Qaraçuq bələdiyyəsi
Naxçıvan bələdiyyəsi (bir hissəsi)
*Culfa rayonu üzrə*
5. Culfa bələdiyyəsi
6. Ərəzin bələdiyyəsi

**6 saylı Ordubad-Culfa seçki dairəsi**
*Ordubad rayonu üzrə*
1. Biləv bələdiyyəsi
2. Dəstə bələdiyyəsi
3. Dırnıs bələdiyyəsi
4. Düylün bələdiyyəsi
5. Nüsnüs bələdiyyəsi
6. Ordubad bələdiyyəsi
7. Sabirkənd bələdiyyəsi
8. Vənənd bələdiyyəsi
*Culfa rayonu üzrə*
9. Bənəniyar bələdiyyəsi
10. Milax bələdiyyəsi
11. Saltaq bələdiyyəsi
12. Yaycı bələdiyyəsi

**7 saylı Səbail seçki dairəsi**
1. Badamdar bələdiyyəsi
2. Səbail bələdiyyəsi (bir hissəsi)

**8 saylı Binəqədi birinci seçki dairəsi**
1. Binəqədi bələdiyyəsi (bir hissəsi)

**9 saylı Binəqədi ikinci seçki dairəsi**
Binəqədi qəsəbə bələdiyyəsi (bir hissəsi)
1. M.Ə.Rəsulzadə bələdiyyəsi

**10 saylı Binəqədi üçüncü seçki dairəsi**
1. Biləcəri bələdiyyəsi (bir hissəsi)
2. Binəqədi qəsəbə bələdiyyəsi (bir hissəsi)

**11 saylı Binəqədi-Qaradağ seçki dairəsi**
*Binəqədi rayonu üzrə*
Biləcəri bələdiyyəsi (bir hissəsi)
1. Xocəsən bələdiyyəsi
*Qaradağ rayonu üzrə*
2. Lökbatan bələdiyyəsi

**12 saylı Xəzər birinci seçki dairəsi**
1. Buzovna bələdiyyəsi
2. Mərdəkan bələdiyyəsi

**13 saylı Xəzər ikinci seçki dairəsi**
1. Binə bələdiyyəsi
2. Qala bələdiyyəsi

**14 saylı Xəzər-Pirallahı seçki dairəsi**
*Xəzər rayonu üzrə*
1. Şüvəlan bələdiyyəsi
2. Türkan bələdiyyəsi
3. Zirə bələdiyyəsi
*Pirallahı rayonu üzrə*
4. Pirallahı bələdiyyəsi

**15 saylı Yasamal birinci seçki dairəsi**
Yasamal bələdiyyəsi (bir hissəsi)

**16 saylı Yasamal ikinci seçki dairəsi**
Yasamal bələdiyyəsi (bir hissəsi)

**17 saylı Yasamal üçüncü seçki dairəsi**
1. Yasamal bələdiyyəsi (bir hissəsi)

**18 saylı Nərimanov-Nizami-Binəqədi seçki dairəsi**
*Nərimanov rayonu üzrə*
Nərimanov bələdiyyəsi (bir hissəsi)
*Nizami rayonu üzrə*

**1 Keşlə bələdiyyəsi**
*Binəqədi rayonu üzrə*
Binəqədi bələdiyyəsi (bir hissəsi)

**19 saylı Nərimanov birinci seçki dairəsi**
1. Nərimanov bələdiyyəsi (bir hissəsi)

**20 saylı Nərimanov ikinci seçki dairəsi**
Nərimanov bələdiyyəsi (bir hissəsi)

**21 saylı Nəsimi-Binəqədi seçki dairəsi**
*Nəsimi rayonu üzrə*
1. Nəsimi bələdiyyəsi (bir hissəsi)
*Binəqədi rayonu üzrə*
Biləcəri bələdiyyəsi (bir hissəsi)
Binəqədi bələdiyyəsi (bir hissəsi)

**22 saylı Nəsimi-Yasamal seçki dairəsi**
*Nəsimi rayonu üzrə*
Nəsimi bələdiyyəsi (bir hissəsi)
*Yasamal rayonu üzrə*
Yasamal bələdiyyəsi (bir hissəsi)

**23 saylı Nəsimi-Səbail seçki dairəsi**
*Nəsimi rayonu üzrə*
Nəsimi bələdiyyəsi (bir hissəsi)
*Səbail rayonu üzrə*
Səbail bələdiyyəsi (bir hissəsi)

**24 saylı Nizami birinci seçki dairəsi**
Nizami bələdiyyəsi (bir hissəsi)

**25 saylı Nizami ikinci seçki dairəsi**
1. Nizami bələdiyyəsi (bir hissəsi)

**26 saylı Sabunçu birinci seçki dairəsi**
1. Bakıxanov bələdiyyəsi (bir hissəsi)

**27 saylı Sabunçu ikinci seçki dairəsi**
Bakıxanov bələdiyyəsi (bir hissəsi)
1. Balaxanı bələdiyyəsi
2. Ramana bələdiyyəsi (bir hissəsi)
3. Sabunçu bələdiyyəsi

**28 saylı Sabunçu üçüncü seçki dairəsi**
1. Bilgəh bələdiyyəsi
2. Maştağa bələdiyyəsi

**29 saylı Sabunçu dördüncü seçki dairəsi**
1. Kürdəxanı bələdiyyəsi
2. Nardaran bələdiyyəsi
3. Pirşağı bələdiyyəsi
Ramana bələdiyyəsi (bir hissəsi)
4. Zabrat bələdiyyəsi

**30 saylı Suraxanı birinci seçki dairəsi**
1. Hövsan bələdiyyəsi
2. Yeni Suraxanı bələdiyyəsi

**31 saylı Suraxanı ikinci seçki dairəsi**
1. Qaraçuxur bələdiyyəsi (bir hissəsi)

**32 saylı Suraxanı üçüncü seçki dairəsi**
1. Bülbülə bələdiyyəsi
2. Əmircan bələdiyyəsi
Qaraçuxur bələdiyyəsi (bir hissəsi)

**33 saylı Xətai birinci seçki dairəsi**
1. Əhmədli bələdiyyəsi
2. Xətai bələdiyyəsi (bir hissəsi)

**34 saylı Xətai ikinci seçki dairəsi**
Xətai bələdiyyəsi (bir hissəsi)

**35 saylı Xətai üçüncü seçki dairəsi**
Xətai bələdiyyəsi (bir hissəsi)
36 saylı Xətai-Suraxanı seçki dairəsi
*Xətai rayonu üzrə*
Xətai bələdiyyəsi (bir hissəsi)
*Suraxanı rayonu üzrə*
1. Zığ bələdiyyəsi

**37 saylı Qaradağ seçki dairəsi**
1. Ələt bələdiyyəsi
2. Qobustan bələdiyyəsi
3. Sahil bələdiyyəsi
4. Sanqaçal bələdiyyəsi

**38 saylı Gəncə birinci seçki dairəsi**
Nizami bələdiyyəsi (bir hissəsi)

**39 saylı Gəncə ikinci seçki dairəsi**
Kəpəz bələdiyyəsi (bir hissəsi)
1. Nizami bələdiyyəsi (bir hissəsi)

**40 saylı Gəncə üçüncü seçki dairəsi**
1. Kəpəz bələdiyyəsi (bir hissəsi)

**41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsi**
*Gəncə rayonu üzrə*
Kəpəz bələdiyyəsi (bir hissəsi)
*Samux rayonu üzrə*
1. Çobanabdallı bələdiyyəsi
2. İnstitut bələdiyyəsi
*Goranboy rayonu üzrə*
3. Dəliməmmədli bələdiyyəsi
4. Düzqışlaq bələdiyyəsi
5. Fəxralı bələdiyyəsi

**42 saylı Sumqayıt birinci seçki dairəsi**
1. Sumqayıt bələdiyyəsi (bir hissəsi)

**43 saylı Sumqayıt ikinci seçki dairəsi**
Sumqayıt bələdiyyəsi (bir hissəsi)

**44 saylı Sumqayıt üçüncü seçki dairəsi**
Sumqayıt bələdiyyəsi (bir hissəsi)

**45 saylı Sumqayıt dördüncü seçki dairəsi**
Sumqayıt bələdiyyəsi (bir hissəsi)

**46 saylı Sumqayıt beşinci seçki dairəsi**
1. Hacı Zeynalabdin bələdiyyəsi
Sumqayıt bələdiyyəsi (bir hissəsi)

**47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsi**
*Sumqayıt rayonu üzrə*
1. Corat bələdiyyəsi
Sumqayıt bələdiyyəsi (bir hissəsi)
*Abşeron rayonu üzrə*
2. Aşağı Güzdək bələdiyyəsi
3. Ceyranbatan bələdiyyəsi
*Qaradağ rayonu üzrə*
4. Qızıldaş bələdiyyəsi
5. Müşviqabad bələdiyyəsi

**48 saylı Abşeron birinci seçki dairəsi**
1. Hökməli bələdiyyəsi
2. Xırdalan bələdiyyəsi (bir hissəsi)
3. Qobu bələdiyyəsi

**49 saylı Abşeron ikinci seçki dairəsi**
Xırdalan bələdiyyəsi (bir hissəsi)
1. Masazır bələdiyyəsi

**50 saylı Abşeron üçüncü seçki dairəsi**
1. Digah bələdiyyəsi
2. Fatmayı bələdiyyəsi
3. Mehdiabad bələdiyyəsi
4. Məmmədli bələdiyyəsi
5. Novxanı bələdiyyəsi
6. Saray bələdiyyəsi

**51 saylı Şirvan seçki dairəsi**
1. Şirvan bələdiyyəsi (bir hissəsi)

**52 saylı Yevlax seçki dairəsi**
1. Qaraməmmədli bələdiyyəsi
2. Qoyunbinəsi bələdiyyəsi
3. Yevlax bələdiyyəsi

**53 saylı Yevlax-Mingəçevir seçki dairəsi**
*Yevlax rayonu üzrə*
1. Aran bələdiyyəsi
2. Aşağı Bucaq bələdiyyəsi
3. Havarlı bələdiyyəsi
4. Xaldan bələdiyyəsi
5. Salahlı bələdiyyəsi
6. Səmədabad bələdiyyəsi
7. Tanrıqulular bələdiyyəsi
*Mingəçevir rayonu üzrə*
Mingəçevir bələdiyyəsi (bir hissəsi)

**54 saylı Mingəçevir seçki dairəsi**
1. Mingəçevir bələdiyyəsi (bir hissəsi)

**55 saylı Siyəzən-Quba-Xızı seçki dairəsi**
*Siyəzən rayonu üzrə*
1. Həmyə bələdiyyəsi
2. Siyəzən bələdiyyəsi
3. Yenikənd bələdiyyəsi
*Quba rayonu üzrə*
4. Çiçi-Zərqava bələdiyyəsi
5. Qonaqkənd bələdiyyəsi
6. Rustov bələdiyyəsi
*Xızı rayonu üzrə*
7. Giləzi bələdiyyəsi
8. Xızı bələdiyyəsi

**56 saylı Şabran-Xaçmaz seçki dairəsi**
*Şabran rayonu üzrə*
1. Ağalıq bələdiyyəsi
2. Gəndov bələdiyyəsi
3. Pirəbədil bələdiyyəsi
4. Rəhimli bələdiyyəsi
5. Şabran bələdiyyəsi
*Xaçmaz rayonu üzrə*
6. Çarxı bələdiyyəsi
7. Hülövlü bələdiyyəsi

**57 saylı Xaçmaz şəhər seçki dairəsi**
1. Xaçmaz bələdiyyəsi
2. Köhnə Xaçmaz bələdiyyəsi
3. Qaraqurdlu bələdiyyəsi
4. Yergüc bələdiyyəsi

**58 saylı Xaçmaz kənd seçki dairəsi**
1 Xudat bələdiyyəsi
2 İstisu bələdiyyəsi
3 Qımılqışlaq bələdiyyəsi
4 Qusarçay bələdiyyəsi
5 Nərəcan bələdiyyəsi
6 Yalama bələdiyyəsi
7 Yeni Həyat bələdiyyəsi

**59 saylı Quba seçki dairəsi**
1. Alpan bələdiyyəsi
2. Xınalıq bələdiyyəsi
3. Küpçal-Dağlı bələdiyyəsi
4. Qəçrəş bələdiyyəsi
5. Qırmızı Qəsəbə bələdiyyəsi
6. Quba bələdiyyəsi
7. Söhüb bələdiyyəsi
8. Talabıqışlaq bələdiyyəsi
9. Timiryazev-Alekseyevka bələdiyyəsi
10. Tüləkəran bələdiyyəsi
11. Vəlvələ bələdiyyəsi

**60 saylı Quba-Qusar seçki dairəsi**
*Quba rayonu üzrə*
1. Amsar bələdiyyəsi
2. Birinci Nügədi bələdiyyəsi
3. Digah-Xucbala bələdiyyəsi
4. Hacıhüseynli bələdiyyəsi
5. İkinci Nügədi bələdiyyəsi
6. Vladimirovka bələdiyyəsi
7. Zərdabi-Barlı bələdiyyəsi
*Qusar rayonu üzrə*
8. Bala Qusar bələdiyyəsi
9. Quxuroba bələdiyyəsi

**61 saylı Qusar seçki dairəsi**
1. Düztahir bələdiyyəsi
2. Həzrə bələdiyyəsi
3. Hil bələdiyyəsi
4. İmamqulukənd bələdiyyəsi
5. Köhnə Xudat bələdiyyəsi
6. Qusar bələdiyyəsi
7. Samur bələdiyyəsi
8. Urva bələdiyyəsi

**62 saylı Kürdəmir seçki dairəsi**
1. Atakişili bələdiyyəsi
2. Cəyli bələdiyyəsi
3. Xırdapay bələdiyyəsi
4. Karrar bələdiyyəsi
5. Karrar qəsəbə bələdiyyəsi
6. Kürdəmir bələdiyyəsi
7. Mehdili bələdiyyəsi
8. Şilyan-Qarabucaq bələdiyyəsi
9. Topalhəsənli bələdiyyəsi
10. Yenikənd bələdiyyəsi

**63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi**
*Hacıqabul rayonu üzrə*
1. Abdulabad bələdiyyəsi
2. Atbulaq-Navahı bələdiyyəsi
3. Hacıqabul bələdiyyəsi
4. Qarasu bələdiyyəsi
5. Meyniman bələdiyyəsi
6. Rəncbər bələdiyyəsi
7. Udullu bələdiyyəsi
*Kürdəmir rayonu üzrə*
8. Sığırlı bələdiyyəsi

**64 saylı Salyan seçki dairəsi**
1. Arbatan bələdiyyəsi
2. Çuxanlı bələdiyyəsi
3. Həsənli bələdiyyəsi
4. Xələc bələdiyyəsi
5. Kürsəngi bələdiyyəsi
6. Qarabağlı bələdiyyəsi
7. Qaraçala bələdiyyəsi
8. Yenikənd bələdiyyəsi
9. Yolüstü bələdiyyəsi

**65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsi**
*Salyan rayonu üzrə*
1. Kür Qaraqaşlı bələdiyyəsi
2. Qızılağac bələdiyyəsi
3. Salyan bələdiyyəsi
4. Sarvan bələdiyyəsi
5. Şorsulu bələdiyyəsi
*Biləsuvar rayonu üzrə*
6. Xırmandalı bələdiyyəsi
*Neftçala rayonu üzrə*
7. Qaraqaşlı bələdiyyəsi

**66 saylı Saatlı seçki dairəsi**
1. Azadkənd bələdiyyəsi
2. Dədə Qorqud bələdiyyəsi
3. Qara Nuru bələdiyyəsi
4. Qıraqlı bələdiyyəsi
5. Məmmədabad bələdiyyəsi
6. Nəsimikənd bələdiyyəsi
7. Orta Muğan bələdiyyəsi
8. Saatlı bələdiyyəsi

**67 saylı Sabirabad seçki dairəsi**
1. Cavad bələdiyyəsi
2. Kürkəndi bələdiyyəsi
3. Qalağayın bələdiyyəsi
4. Qaralar bələdiyyəsi
5. Qasımbəyli bələdiyyəsi
6. Sabirabad bələdiyyəsi
7. Surra bələdiyyəsi
8. Ulacalı bələdiyyəsi
9. Yolçubəyli bələdiyyəsi

**68 saylı Sabirabad-Şirvan seçki dairəsi**
*Sabirabad rayonu üzrə*
1. Azadkənd bələdiyyəsi
2. Güdəcühür bələdiyyəsi
3. Qaragüney bələdiyyəsi
4. Qaratəpə bələdiyyəsi
5. Quruzma bələdiyyəsi
6. Moranlı bələdiyyəsi
7. Muğan Gəncəli bələdiyyəsi
8. Nizami bələdiyyəsi
9. Şəhriyar bələdiyyəsi
*Şirvan rayonu üzrə*
Şirvan bələdiyyəsi (bir hissəsi)

**69 saylı Biləsuvar seçki dairəsi**
1. Ağalıkənd bələdiyyəsi
2. Ağayrı bələdiyyəsi
3. Amankənd bələdiyyəsi
4. Bağbanlar bələdiyyəsi
5. Bəydili bələdiyyəsi
6. Biləsuvar bələdiyyəsi
7. Əsgərabad bələdiyyəsi
8. İsmətli bələdiyyəsi
9. Nərimankənd bələdiyyəsi
10. Nəsimi bələdiyyəsi

**70 saylı Neftçala seçki dairəsi**
1. Aşağı Surra bələdiyyəsi
2. Həsənabad bələdiyyəsi
3. Xıllı bələdiyyəsi
4. Xol Qarabucaq bələdiyyəsi
5. Xol Qaraqaşlı bələdiyyəsi
6. Qədimkənd bələdiyyəsi
7. Neftçala bələdiyyəsi

**71 saylı Cəlilabad şəhər seçki dairəsi**
1. Ağdaş bələdiyyəsi
2. Cəlilabad bələdiyyəsi
3. Hamarqışlaq bələdiyyəsi
4. Komanlı bələdiyyəsi
5. Kürdlər bələdiyyəsi
6. Muğan bələdiyyəsi
7. Uzuntəpə bələdiyyəsi

**72 saylı Cəlilabad kənd seçki dairəsi**
1. Alar bələdiyyəsi
2. Boyxanlı bələdiyyəsi
3. Cəngan bələdiyyəsi
4. Gülməmmədli bələdiyyəsi
5. Günəşli bələdiyyəsi
6. Xanəgah bələdiyyəsi
7. Qarazəncir bələdiyyəsi
8. Ləkin bələdiyyəsi
9. Şiləvəngə bələdiyyəsi
10. Təklə bələdiyyəsi
11. Üçtəpə bələdiyyəsi

**73 saylı Masallı-Cəlilabad seçki dairəsi**
*Masallı rayonu üzrə*
1. Güllütəpə bələdiyyəsi
2. Xırmandalı bələdiyyəsi
3. Masallı bələdiyyəsi
4. Təklə bələdiyyəsi
5. Təzə Alvadı bələdiyyəsi
*Cəlilabad rayonu üzrə*
6. Göytəpə bələdiyyəsi

**74 saylı Masallı seçki dairəsi**
1. Bədələn bələdiyyəsi
2. Boradigah bələdiyyəsi
3. Hişkədərə bələdiyyəsi
4. Kolatan bələdiyyəsi
5. Mahmudavar bələdiyyəsi
6. Musaküçə bələdiyyəsi
7. Şərəfə bələdiyyəsi
8. Viləş bələdiyyəsi
9. Yeddioymaq bələdiyyəsi

**75 saylı Yardımlı-Masallı seçki dairəsi**
*Yardımlı rayonu üzrə*
1. Aşağı Astanlı bələdiyyəsi
2. Çay Üzü bələdiyyəsi
3. Ərus bələdiyyəsi
4. Hamarkənd bələdiyyəsi
5. Porsova bələdiyyəsi
6. Şəfəqli bələdiyyəsi
7. Vərgədüz bələdiyyəsi
8. Yardımlı bələdiyyəsi
*Masallı rayonu üzrə*
9. Banbaşı bələdiyyəsi
10. Ərkivan bələdiyyəsi
11. Qəriblər bələdiyyəsi

**76 saylı Lənkəran-Masallı seçki dairəsi**
*Lənkəran rayonu üzrə*
1. Boladı bələdiyyəsi
2. Göyşaban bələdiyyəsi
3. Liman bələdiyyəsi
4. Nərimanabad bələdiyyəsi
5. Osakücə bələdiyyəsi
6. Separadi bələdiyyəsi
7. Şağlaser bələdiyyəsi
8. Vilvan bələdiyyəsi
*Masallı rayonu üzrə*
9. Xıl bələdiyyəsi

**77 saylı Lənkəran şəhər seçki dairəsi**
1. Hirkan-Xanbulan bələdiyyəsi
2. Xolmili-Şıxakəran bələdiyyəsi
3. Lənkəran bələdiyyəsi
4. Mamusta bələdiyyəsi
5. Sütəmurdov bələdiyyəsi

**78 saylı Lənkəran kənd seçki dairəsi**
1. Aşağı Nüvədi bələdiyyəsi
2. Gəgiran bələdiyyəsi
3. Gərmətük bələdiyyəsi
4. Girdəni bələdiyyəsi
5. Haftoni bələdiyyəsi
6. İstisu bələdiyyəsi
7. Kərgəlan bələdiyyəsi
8. Rvo bələdiyyəsi
9. Səpnəkəran bələdiyyəsi
10. Şiləvar bələdiyyəsi
11. Şürük bələdiyyəsi

**79 saylı Astara seçki dairəsi**
1. Astara bələdiyyəsi
2. Ərçivan bələdiyyəsi
3. Kijəbə bələdiyyəsi
4. Şahağac bələdiyyəsi

(ardı 10-cu səhifədə)

# Azərbaycan Respublikasında seçki keçiriləcək bələdiyyələrin siyahısı

(əvvəli 9-cu səhifədə)

**80 saylı Lerik-Astara seçki dairəsi**
*Lerik rayonu üzrə*
1. Blaband bələdiyyəsi
2. Çayrud bələdiyyəsi
3. Əliabad bələdiyyəsi
4. Lerik bələdiyyəsi
5. Qosmalıan bələdiyyəsi
6. Osyodərə bələdiyyəsi
7. Siyov bələdiyyəsi
8. Şingədulan bələdiyyəsi
9. Veri bələdiyyəsi
10. Vizəzəmin bələdiyyəsi

*Astara rayonu üzrə*
11. Pensər bələdiyyəsi
12. Siyaku bələdiyyəsi

**81 saylı İmişli seçki dairəsi**
1. Bəcirəvan bələdiyyəsi
2. İmişli bələdiyyəsi
3. Xəlfəli bələdiyyəsi
4. Qaralar bələdiyyəsi
5. Məmmədli bələdiyyəsi
6. Muradalılı bələdiyyəsi
7. Yuxarı Qaralar bələdiyyəsi

**82 saylı İmişli-Saatlı seçki dairəsi**
*İmişli rayonu üzrə*
1. Aranlı bələdiyyəsi
2. Bəhrəmtəpə bələdiyyəsi
3. Cəfərli bələdiyyəsi
4. Məzrəli-Qaradonlu bələdiyyəsi
5. Sarıxanlı bələdiyyəsi
6. Yalavac bələdiyyəsi

*Saatlı rayonu üzrə*
7. Nərimanov bələdiyyəsi
8. Varxan bələdiyyəsi

**83 saylı Beyləqan seçki dairəsi**
1. Aşıqalılar bələdiyyəsi
2. Beyləqan bələdiyyəsi
3. Birinci Aşıqlı bələdiyyəsi
4. Birinci Şahsevən bələdiyyəsi
5. Bünyadlı bələdiyyəsi
6. Dünyamalılar bələdiyyəsi
7. Eyvazalılar bələdiyyəsi
8. Əlinəzərli bələdiyyəsi
9. İkinci Şahsevən bələdiyyəsi
10. Kəbirli bələdiyyəsi
11. Qəhrəmanlı bələdiyyəsi
12. Mil bələdiyyəsi
13. Örənqala bələdiyyəsi
14. Təzəkənd bələdiyyəsi
15. Türklər bələdiyyəsi
16. Yeni Mil bələdiyyəsi

**84 saylı Füzuli seçki dairəsi**
1. Alxanlı bələdiyyəsi
2. Bala Bəhmənli bələdiyyəsi
3. Böyük Bəhmənli bələdiyyəsi
4. Əhmədalılar bələdiyyəsi
5. Əhmədbəyli bələdiyyəsi
6. Horadiz bələdiyyəsi
7. Kərimbəyli bələdiyyəsi

**85 saylı Füzuli-Ağcabədi seçki dairəsi**
*Ağcabədi rayonu üzrə*
1. Boyat bələdiyyəsi
2. Hindarx bələdiyyəsi
3. Kəhrizli bələdiyyəsi
4. Muğanlı bələdiyyəsi
5. Sarıcalı bələdiyyəsi
6. Yuxarı Qiyaməddinli bələdiyyəsi

**86 saylı Ağcabədi seçki dairəsi**
1. Ağcabədi bələdiyyəsi
2. Avşar bələdiyyəsi
3. Hacıbədəlli bələdiyyəsi
4. Hüsülü bələdiyyəsi
5. Xocavənd bələdiyyəsi
6. Qaradolaq bələdiyyəsi
7. Qaravəlli bələdiyyəsi
8. Təzəkənd bələdiyyəsi
9. Yeni Qaradolaq bələdiyyəsi

**87 saylı Qobustan-Şamaxı-İsmayıllı seçki dairəsi**
*Qobustan rayonu üzrə*
1. Cəyirli bələdiyyəsi
2. Ərəbşalbaş bələdiyyəsi
3. Qobustan bələdiyyəsi
4. Poladlı bələdiyyəsi
5. Sündü bələdiyyəsi

*Şamaxı rayonu üzrə*
6. Nağaraxana bələdiyyəsi
7. Sabir bələdiyyəsi

*İsmayıllı rayonu üzrə*
8. Basqal bələdiyyəsi
9. Lahıc bələdiyyəsi

**88 saylı Şamaxı seçki dairəsi**
1. Bağırlı bələdiyyəsi
2. Çarhan bələdiyyəsi
3. Göylər bələdiyyəsi
4. Quşçu bələdiyyəsi
5. Mədrəsə bələdiyyəsi
6. Məlhəm bələdiyyəsi
7. Meysəri bələdiyyəsi
8. Şamaxı bələdiyyəsi

**89 saylı İsmayıllı seçki dairəsi**
1. İsmayıllı bələdiyyəsi
2. İvanovka bələdiyyəsi
3. Kürdmaşı bələdiyyəsi
4. Qalacıq bələdiyyəsi
5. Qalınçaq bələdiyyəsi
6. Qubaxəlilli bələdiyyəsi
7. Quşençə bələdiyyəsi
8. Talıstan bələdiyyəsi
9. Təzəkənd bələdiyyəsi

**90 saylı Ağsu seçki dairəsi**
1. Ağsu bələdiyyəsi
2. Bico bələdiyyəsi
3. Bozavand bələdiyyəsi
4. Ərəbuşağı bələdiyyəsi
5. Gəgəli bələdiyyəsi
6. Kalva bələdiyyəsi
7. Kəndoba bələdiyyəsi
8. Qaraqoyunlu bələdiyyəsi
9. Növcü bələdiyyəsi
10. Pirhəsənli bələdiyyəsi

**91 saylı Göyçay seçki dairəsi**
1. Bığır bələdiyyəsi
2. Cəyirli bələdiyyəsi
3. Çaxırlı bələdiyyəsi
4. Çərəkə bələdiyyəsi
5. İnçə bələdiyyəsi
6. Ləkçıplaq bələdiyyəsi
7. Qarabaqqal bələdiyyəsi
8. Qaraməryəm bələdiyyəsi
9. Potu bələdiyyəsi
10. Şəkər bələdiyyəsi
11. Yeniarx bələdiyyəsi

**92 saylı Göyçay-Ağdaş seçki dairəsi**
*Göyçay rayonu üzrə*
1. Ərəbcəbirli bələdiyyəsi
2. Göyçay bələdiyyəsi

*Ağdaş rayonu üzrə*
3. Xosrov bələdiyyəsi
4. Kotanarx bələdiyyəsi
5. Ləki bələdiyyəsi

**93 saylı Ağdaş seçki dairəsi**
1. Ağdaş bələdiyyəsi
2. Eymur bələdiyyəsi
3. Kükəl bələdiyyəsi
4. Qolqəti bələdiyyəsi
5. Qoşaqovaq bələdiyyəsi
6. Mürsəl bələdiyyəsi
7. Pirəzə bələdiyyəsi
8. Yuxarı Qəsil bələdiyyəsi

**94 saylı Ucar seçki dairəsi**
1. Bərgüşad-Yuxarı Şilyan bələdiyyəsi
2. Boyat bələdiyyəsi
3. Qarabörk bələdiyyəsi
4. Qaracallı bələdiyyəsi
5. Qaradağlı bələdiyyəsi
6. Qazıqumlaq-Ramal bələdiyyəsi
7. Qazyan bələdiyyəsi
8. Ucar bələdiyyəsi

**95 saylı Zərdab-Kürdəmir-Ucar seçki dairəsi**
*Zərdab rayonu üzrə*
1. Bıçaqçı bələdiyyəsi
2. Çallı bələdiyyəsi
3. Dəkkəoba bələdiyyəsi
4. Gəlmə bələdiyyəsi
5. Kəndəbil bələdiyyəsi
6. Məlikli bələdiyyəsi
7 Məmmədqasımlı bələdiyyəsi
8. Zərdab bələdiyyəsi

*Kürdəmir rayonu üzrə*
9. Köhünlü bələdiyyəsi
10. Mollakənd bələdiyyəsi
11. Muradxan bələdiyyəsi

*Ucar rayonu üzrə*
12. Lək bələdiyyəsi

**96 saylı Goranboy-Naftalan seçki dairəsi**
*Goranboy rayonu üzrə*
1. Aşağı Ağcakənd bələdiyyəsi
2. Boluslu bələdiyyəsi
3. Borsunlu bələdiyyəsi
4. Goranboy bələdiyyəsi
5. Hazırəhmədli bələdiyyəsi
6. Xoylu bələdiyyəsi
7. Qaradağlı bələdiyyəsi
8. Qaramusalı bələdiyyəsi
9. Qızılhacılı bələdiyyəsi
10. Muzdurlar bələdiyyəsi
11. Səfikürd bələdiyyəsi
12. Tap Qaraqoyunlu bələdiyyəsi
13. Veyisli bələdiyyəsi

*Naftalan rayonu üzrə*
14. Naftalan bələdiyyəsi

**97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsi**
*Tərtər rayonu üzrə*
1. Bəyimsarov bələdiyyəsi
2. Buruc bələdiyyəsi
3. Qaraağacı bələdiyyəsi
4. Qaradağlı bələdiyyəsi
5. Səhləbad bələdiyyəsi
6. Seydimli bələdiyyəsi
7. Tərtər bələdiyyəsi

*Goranboy rayonu üzrə*
8. Xan Qərvənd bələdiyyəsi

**98 saylı Bərdə-Tərtər seçki dairəsi**
*Bərdə rayonu üzrə*
1. Alpout bələdiyyəsi
2. Xanərəb bələdiyyəsi
3. Xəsili bələdiyyəsi
4. Kətəlparaq bələdiyyəsi
5. Körpüsındıran bələdiyyəsi
6. Qarayusifli bələdiyyəsi
7. Lək bələdiyyəsi
8. Lənbəran bələdiyyəsi
9. Mollalı bələdiyyəsi
10. Nazırlı bələdiyyəsi
11. Otuzikilər bələdiyyəsi
12. Şirvanlı bələdiyyəsi
13. Uğurbəyli bələdiyyəsi

*Tərtər rayonu üzrə*
14. Azad Qaraqoyunlu bələdiyyəsi
15. Hüsənli bələdiyyəsi
16. Mamırlı bələdiyyəsi

**99 saylı Bərdə seçki dairəsi**
1. Bərdə bələdiyyəsi
2. Gərənə bələdiyyəsi
3. Həsənqaya bələdiyyəsi
4. Mirzəcəfərli bələdiyyəsi
5. Mirzəxan Qaraqoyunlu bələdiyyəsi
6. Yeni Daşkənd bələdiyyəsi
7. Yeni Əyricə bələdiyyəsi

**100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsi**
*Göygöl rayonu üzrə*
1. Balçılı bələdiyyəsi
2. Çaykənd bələdiyyəsi
3. Göygöl bələdiyyəsi
4. Hacıməlik bələdiyyəsi
5. Qızılca-Üçtəpə bələdiyyəsi
6. Quşçara bələdiyyəsi
7. Topalhəsənli bələdiyyəsi

*Daşkəsən rayonu üzrə*
8. Daşkəsən bələdiyyəsi
9. Qabaqtəpə bələdiyyəsi
10. Qaraqullar bələdiyyəsi
11. Quşçu bələdiyyəsi

**101 saylı Samux-Şəmkir seçki dairəsi**
*Samux rayonu üzrə*
1. Qaraağaclı bələdiyyəsi
2. Qarayeri bələdiyyəsi
3. Lək bələdiyyəsi
4. Samux bələdiyyəsi
5. Sərkar bələdiyyəsi
6. Ziyadlı bələdiyyəsi

*Şəmkir rayonu üzrə*
7. Ağlavaşlı bələdiyyəsi
8. Keçili bələdiyyəsi
9. Könüllü bələdiyyəsi
10. Kür bələdiyyəsi
11. Qaracəmirli bələdiyyəsi

**102 saylı Şəmkir şəhər seçki dairəsi**
1. Aşağı Seyfəli bələdiyyəsi
2. Çinarlı bələdiyyəsi
3. Şəmkir bələdiyyəsi
4. Təzəkənd bələdiyyəsi
5. Yuxarı Seyfəli bələdiyyəsi

**103 saylı Şəmkir kənd seçki dairəsi**
1. Çaparlı bələdiyyəsi
2. Çənlibel bələdiyyəsi
3. Dəllər Cəyir bələdiyyəsi
4. Düyərli bələdiyyəsi
5. Şiştəpə bələdiyyəsi
6. Zəyəm bələdiyyəsi
7. Zəyəm Cırdaxan bələdiyyəsi

**104 saylı Gədəbəy seçki dairəsi**
1. Arıqıran bələdiyyəsi
2. Gədəbəy bələdiyyəsi
3. Kiçik Qaramurad bələdiyyəsi
4. Qoşabulaq bələdiyyəsi
5. Miskinli bələdiyyəsi
6. Novoivanovka bələdiyyəsi
7. Slavyanka bələdiyyəsi
8. Söyüdlü bələdiyyəsi

**105 saylı Tovuz-Gədəbəy seçki dairəsi**
*Tovuz rayonu üzrə*
1. Alakol bələdiyyəsi
2. Düz Qırıqlı bələdiyyəsi
3. Əyyublu bələdiyyəsi
4. İbrahimhacılı bələdiyyəsi
5. Qəribli bələdiyyəsi
6. Qovlar bələdiyyəsi

*Gədəbəy rayonu üzrə*
7. Düz Rəsullu bələdiyyəsi
8. Qaraməmmədli bələdiyyəsi

**106 saylı Tovuz seçki dairəsi**
1. Aşağı Quşçu bələdiyyəsi
2. Bayramlı bələdiyyəsi
3. Bozalqanlı bələdiyyəsi
4. Dondar Quşçu bələdiyyəsi
5. Düz Cırdaxan bələdiyyəsi
6. Əlimərdanlı bələdiyyəsi
7. Qaraxanlı bələdiyyəsi
8. Tovuz bələdiyyəsi

**107 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi**
*Tovuz rayonu üzrə*
1. Aşağı Öysüzlü bələdiyyəsi
2. Böyük Qışlaq bələdiyyəsi
3. Çatax bələdiyyəsi
4. Əlibəyli bələdiyyəsi
5. Kirən bələdiyyəsi
6. Yuxarı Öysüzlü bələdiyyəsi

*Qazax rayonu üzrə*
7. Ağköynək-Qarapapaq bələdiyyəsi
8. Çaylı bələdiyyəsi
9. Xanlıqlar bələdiyyəsi

*Ağstafa rayonu üzrə*
10. Həsənsu bələdiyyəsi
11. Köçəsgər bələdiyyəsi

**108 saylı Ağstafa seçki dairəsi**
1. Ağstafa bələdiyyəsi
2. Aşağı Kəsəmən bələdiyyəsi
3. Dağ Kəsəmən bələdiyyəsi
4. Göycəli bələdiyyəsi
5. Xətai bələdiyyəsi
6. Qarahəsənli bələdiyyəsi
7. Qırılı bələdiyyəsi
8. Muğanlı bələdiyyəsi
9. Poylu bələdiyyəsi
10. Sadıqlı bələdiyyəsi

**109 saylı Qazax seçki dairəsi**
1. Alpout bələdiyyəsi
2. Aslanbəyli bələdiyyəsi
3. Daş Salahlı bələdiyyəsi
4. Kəmərli-Qaymaqlı bələdiyyəsi
5. Kosalar bələdiyyəsi
6. Qazax bələdiyyəsi
7. Salahlı bələdiyyəsi
8. Şıxlı bələdiyyəsi

**110 saylı Balakən seçki dairəsi**
1. Balakən bələdiyyəsi
2. Gərəkli bələdiyyəsi
3. Hənifə bələdiyyəsi
4. Xalatala bələdiyyəsi
5. Qazma bələdiyyəsi
6. Qullar bələdiyyəsi
7. Mahamalar bələdiyyəsi
8. Meşəşambul bələdiyyəsi
9. Şərif bələdiyyəsi
10. Talalar bələdiyyəsi
11. Tülü bələdiyyəsi

**111 saylı Zaqatala-Balakən seçki dairəsi**
*Zaqatala rayonu üzrə*
1. Car bələdiyyəsi
2. Çardaxlar bələdiyyəsi
3. Dağlı-Üçüncü Tala bələdiyyəsi
4. Danaçı bələdiyyəsi
5. Göyəm bələdiyyəsi
6. Maqov bələdiyyəsi
7. Zaqatala bələdiyyəsi

*Balakən rayonu üzrə*
8. Katex bələdiyyəsi
9. Kortala bələdiyyəsi

**112 saylı Zaqatala seçki dairəsi**
1. Aşağı Tala bələdiyyəsi
2. Bəhmətli bələdiyyəsi
3. Çobankol bələdiyyəsi
4. Əliabad bələdiyyəsi
5. Gözbarax bələdiyyəsi
6. Qandax bələdiyyəsi
7. Mosul-Yengiyan bələdiyyəsi
8. Muxax bələdiyyəsi
9. Yeni Suvagil bələdiyyəsi
10. Yuxarı Tala bələdiyyəsi

**113 saylı Qax-Şəki seçki dairəsi**
*Qax rayonu üzrə*
1. Almalı bələdiyyəsi
2. Əlibəyli bələdiyyəsi
3. İlisu bələdiyyəsi
4. Qax bələdiyyəsi
5. Qaxbaş bələdiyyəsi
6. Qıpçaq bələdiyyəsi
7. Qum bələdiyyəsi
8. Zəyəm-Tasmalı bələdiyyəsi

*Şəki rayonu üzrə*
9. Aşağı Göynük bələdiyyəsi
10. Baş Layısqı bələdiyyəsi

**114 saylı Şəki şəhər seçki dairəsi**
1. Baş Göynük bələdiyyəsi
2. Kiş bələdiyyəsi
3. Qoxmuq bələdiyyəsi
4. Oxud bələdiyyəsi
5. Şəki bələdiyyəsi (bir hissəsi)

**115 saylı Şəki kənd seçki dairəsi**
1. Aydınbulaq bələdiyyəsi
2. Baş Zəyzid bələdiyyəsi
3. Böyük Dəhnə bələdiyyəsi
4. Cəfərabad bələdiyyəsi
5. Cəyirli bələdiyyəsi
6. Cumakənd bələdiyyəsi
7. Kiçik Dəhnə bələdiyyəsi
8. Orta Zəyzid bələdiyyəsi

*Şəki bələdiyyəsi (bir hissəsi)*
9. Turan bələdiyyəsi

**116 saylı Qəbələ seçki dairəsi**
1. Hacıalılı bələdiyyəsi
2. Qəbələ bələdiyyəsi
3. Nohurqışlaq bələdiyyəsi
4. Soltannuxa bələdiyyəsi
5. Vəndam bələdiyyəsi
6. Yeni Dizaxlı bələdiyyəsi
7. Yenikənd bələdiyyəsi
8. Zarağan bələdiyyəsi

**117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsi**
*Oğuz rayonu üzrə*
1. Bucaq bələdiyyəsi
2. Xaçmaz bələdiyyəsi
3. Kərimli bələdiyyəsi
4. Qumlaq-Xalxal bələdiyyəsi
5. Oğuz bələdiyyəsi
6. Padar bələdiyyəsi

*Qəbələ rayonu üzrə*
7. Bum bələdiyyəsi
8. Cığatelli bələdiyyəsi
9. Mıxlıqovaq bələdiyyəsi
10. Nic bələdiyyəsi

*Şəki rayonu üzrə*
11. Baş Kəldək bələdiyyəsi

**119 saylı Ağdam seçki dairəsi**
1. Çəmənli bələdiyyəsi
2. Əfətli bələdiyyəsi
3. Əhmədağalı bələdiyyəsi
4. Xındırıstan bələdiyyəsi
5. Qaradağlı bələdiyyəsi
6. Quzanlı bələdiyyəsi
7. Üçoğlan-Alıbəyli bələdiyyəsi
8. Zəngişalı bələdiyyəsi

# Azərbaycan heyəti Daşkənd enerji sammitində



**Daşkənddə Özbəkistan İnkişaf və Tənzimləmə Agentliyi Asiya İnkişaf Bankı ilə birgə "Regional enerji islahatları: tənzimləyici təcrübələrin gücləndirilməsi" adlı sammit keçirib. Beynəlxalq toplantıda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Gürcüstan və Türkiyədən olan ekspertlər də iştirak ediblər.**

Ölkəmizi məclisdə Energetika Nazirliyinin Enerji Məsələlərini Tənzimləmə Agentliyinin şöbə müdirlərii Ağa Hacızadə və Elmar Güləliyev təmsil ediblər.

Özbəkistan İnkişaf və Tənzimləmə Agentliyinin direktoru Şerzod Xocayev bildirib ki, qlobal dəyişikliklər və texnologiyanın sürətli inkişafı şəraitində bizim vəzifəmiz təkcə tendensiyaları izləmək deyil, həm də digər ölkələrin ən yaxşı təcrübələrini nəzərə alaraq strategiyamızı formalaşdırmaqdır. Son 5 ildə respublikada elektrik enerjisinə tələbat 1,6 dəfə artıb. Hazırda bu rəqəm ildə 86 milyard kilovatsaata çatıb. Artan tələbatı ödəmək üçün 2030-cu ilə qədər hasilatın həcmi 135 milyard kilovatsaata çatdırılmalıdır.

Sonra iştirakçı ölkələrin nümayəndələri "Regional enerji islahatları: tənzimləyici təcrübələrin gücləndirilməsi" sammitində çıxış ediblər.

Sammitdə tənzimləyici islahatların əsasları, enerji bazarının dinamikası, davamlı enerjiyə keçid, sənayedə rəqəmsallaşma və innovasiyalar müzakirə olunub.

Ağa Hacızadə təmsil etdiyi agentliyin fəaliyyəti haqqında danışaraq deyib ki, yarandığı gündən agentlik elektrik enerjisi sahəsinin liberallaşdırma yolu ilə yenidən qurulması, həmçinin elektrik enerjisi bazarlarnın yaradılması və bu sahədə dövlət tərəfindən tənzimləmə rəcrübəsini öyrənir. Bununla əlaqədar müxtəlif dövlətlərin, beynəlxalq institutların, təşkilatların və professional birliklərin tənzimləyiciləri ilə sıx əməkdaşlıq qurulub.

Bildirilib ki, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Dünya Bankı, Avropa Enerjitənzimləyicilər Şurası kimi beynəlxalq maliyyə İnstitutları, həmçinin xarici dövlətlərin əlaqəli qurumları ilə münasibətlər yaradılıb.

Azərbaycanın və Özbəkistanın energetika nazirlikləri arasında isə münasibətlərin inkişafı ilə bağlı 2023-2025-ci illər üçün Yol Xəritəsi qəbul olunub.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin Türküstan müxbiri**
**Daşkənd**

# "Şahdəniz" yatağı – Xəzərin zəngin qaz xəzinəsi

*9 ayda dənizin dibindən 20 milyard kubmetr qaz və 3 milyon tondan çox kondensat çıxarılıb*

**(əvvəli 1-ci səhifədə)**

"BP-Azərbaycan" şirkətinin məlumatına görə, 2024-cü ilin yanvar-sentyabr aylarında "Şahdəniz" layihəsinin əməliyyat tədbirlərinə 1 milyard 780 milyon dollar, əsaslı məsrəflərinə isə 582 milyon dollar xərclənib. Həmin vəsaitin böyük əksəriyyəti hazırda fəal işlənmə mərhələsində olan "Şahdəniz-2" layihəsinə sərf edilib.

İlin ötən dövründə təbii qazın "Şahdəniz" yatağından Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC şirkətinə) və Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib.

Məlum olduğu kimi, zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən "Şahdəniz" yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Həmin qurğuların gündəlik hasilat gücü təxminən 80,7 milyon (ildə 29,5 milyard kubmetrdən artıq) kubmetr təşkil edir. Bu ilin doqquz ayında "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından, ümumilikdə, təqribən 20 milyard kubmetr qaz və 3 milyon tondan artıq kondensat çıxarılıb.

"Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi isə genişliyi və əhatəliyi baxımından seçilir. Layihə çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur ki, bu da BP şirkətinin dünya üzrə operatoru olduğu ən iri sualtı infrastrukturdur. Təxminən, 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir. Layihənin detallarına, həmçinin Azərbaycan ərazisində 428 kilometr, Gürcüstan ərazisində isə 59 kilometr uzunluğunda yeni boru kəmərləri və iki yeni kompressor stansiyası, eləcə də Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi daxildir.

"Şahdəniz" yatağının ikinci işlənmə mərhələsində qaz hasilatına 2018-ci il iyulun 30-da başlanıb. Həmin gün yatağın şimal cinahındakı "SDC03Z" quyusunun istismara verilməsi ilə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə hasilat artmağa başlayıb. 2022-ci ildə isə "Şahdəniz-2" layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları yatağın qərb-cənub cinahını işlənməyə daxil ediblər.

2024-cü ilin üçüncü rübündə sözügedən layihə çərçivəsində işlər yatağın şərq-şimal cinahından 3-cü quyunun istismara daxil edilməsi istiqamətində davam etdirilib. Bununla yanaşı, "Xankəndi" sualtı tikinti gəmisinin köməyilə hazırda istismarda olan bütün "Şahdəniz-2" və AÇG sualtı hasilat obyektlərinə texniki xidmət, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə dəstək verilib. Regionda tətbiq edilən vahid gəmi strategiyasına uyğun olaraq "Xankəndi" dənizdəki bütün tikinti, quraşdırma, müayinə, təmir və texniki xidmət işləri və fövqəladə hallara cavab tədbirləri üçün əsas gəmi kimi istifadə olunur. Bu da BP və tərəfdaşlarının əməliyyatlarının daha təhlükəsiz və daha səmərəli olmasına xidmət edir. Bütövlükdə isə, ilin ötən dövründə "Xankəndi" gəmisinin əsas iş həcmi məhz "Şahdəniz-2" layihəsi ilə bağlı olub. Burada əsas diqqət layihə üzrə qalan quyuların təhvil verilməsinə yönəlib. Gəmidən və qazma qurğularından səmərəli istifadəni təmin etmək məqsədilə fəaliyyətlərin optimallaşdırılması və quyuların işə salınması müddətinin sürətləndirilməsi üçün inteqrasiya olunmuş qrafik hazırlanıb.



Bu ilin üçüncü rübündə "Şahdəniz Alfa" platformasının qazma qurğusunda aparılan profilaktik işlər səbəbindən yeni quyu qazılmayıb. Bununla belə, "İstiqlal" və Heydər Əliyev qazma qurğuları "Şahdəniz-2" layihəsi çərçivəsində quyular üzrə işləri davam etdirib. "İstiqlal" qazma qurğusu yatağın şərq-şimal cinahında SDH02 quyusu və qərb-şimal cinahında SDF02 quyusu üzərində işlər həyata keçirib. Heydər Əliyev qazma qurğusu isə yatağın qərb cinahında SDD05 quyusunun qazma işlərini davam etdirib. Ümumilikdə isə, ötən müddətdə "Şahdəniz-2" çərçivəsində 21 quyu qazılaraq istismara verilib. Həmin quyuların 5-i yatağın şimal, 4-ü qərb, 4-ü şərq-cənub, 5-i qərb-cənub, 3-ü isə şərq-şimal cinahlarında qazılıb.

Bununla yanaşı, "Şahdəniz" müqaviləsi sahəsində Heydər Əliyev yarımdalma qazma qurğusu vasitəsilə qazılmış SDX-8 kəşfiyyat quyusunun hədəflədiyi laylardan 2023-cü ildə əldə olunmuş məlumatların təhlili cari ilin ötən dövründə davam etdirilib. Bundan da məqsəd hazırda istismarda olan məhsuldar layların altındakı daha dərin horizontları qiymətləndirməkdir.

"Şahdəniz" yatağından hasil edilən qaz sualtı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda "Şahdəniz" qazı üçün təqribən 81 milyon standart kubmetr təşkil edir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 100 milyon standart kubmetrdir.

Qaz terminaldan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi (CQBKG) sistemi də daxil olmaqla əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK) və terminalın qaz emalı obyektlərini SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac olunur. Cari ilin üç rübü ərzində terminaldan, həmçinin gündəlik orta hesabla, təxminən, 74 milyon kubmetr "Şahdəniz" qazı göndərilib.

Məlum olduğu kimi, Səngəçal terminalındakı mövcud qurğular qazı qəbul edərək Cənubi Qafqaz boru kəmərinə ötürür. Bu ilin 9 ayında Cənubi Qafqaz boru kəmərinin əməliyyat tədbirlərinə təqribən 60 milyon dollar, əsaslı məsrəflərinə isə 13 milyon dollar xərclənib.

Qeyd edək ki, 2006-cı ilin sonlarında istismara verilmiş Cənubi Qafqaz boru kəməri "Şahdəniz" qazını Azərbaycan, Gürcüstan və Türkiyəyə nəql edir. Ötən müddətdə Türkiyəyə və Avropadakı alıcılara daha çox qaz çatdırmaq məqsədilə kəmərin imkanları xeyli genişləndirilib. Genişləndirilmiş Cənubi Qafqaz boru kəməri sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlanılıb. Bu ilin 9 ayı ərzində Cənubi Qafqaz boru kəmərinin ixrac üçün gündəlik orta ötürücülük gücü 61,7 milyon kubmetr təşkil edib.

## AYİB-nin ölkəmizlə bağlı nikbinliyi

**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycanda orta illik inflyasiyanın bu il 2023-cü ildəki 8,8 faizdən 3,5 faizə qədər azalacağını proqnozlaşdırır. Bu barədə məlumat bankın hesabatında yer alıb.**




AYİB-in proqnozlarına görə, Azərbaycanın tədiyyə balansının cari hesabının profisitinin ÜDM-yə nisbətinin ötən ildəki 9,9 faizə qarşı 2024-cü ilin yekunlarına əsasən 8,5 faiz təşkil edəcək. Ölkəmizdəki cari makroiqtisadi mühitə toxunan bank qeyd edir ki, 2024-cü ildə ÜDM-in artım tempi sürətlənib, inflyasiya isə azalıb. Neft-qaz sektoru "mavi yanacağa" olan güclü tələbat sayəsində artım trayektoriyasına qayıdıb.

İnflyasiyanın Mərkəzi Bankın hədəf diapazonu həddində (4+/-2) qaldığını vurğulayan hesabat müəllifləri qeyd ediblər ki, enerji daşıyıcılarının ixracı və dövlət investisiyaları növbəti illərdə ölkənin ÜDM artımını stimullaşdırmağa davam edəcək. "Bizim qiymətləndirmələrimizə görə, Azərbaycanda real ÜDM artımı 2024-cü ildə 3,8 faiz, 2025-ci ildə isə 2,7 faiz təşkil edəcək. Proqnoz neft və qaz qiymətlərinin dəyişməsinə, həmçinin regionda geosiyasi qeyri-sabitliyə qarşı çox həssasdır", – deyə hesabatda vurğulanıb.

Xatırladaq ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi 2024-cü ildə ÜDM artımını 4,2 faiz, gələn il isə 3,5 faiz səviyyəsində proqnozlaşdırır. Orta illik inflyasiya proqnozu müvafiq olaraq 2,7 faiz və 4,6 faiz təşkil edir. Yeri gəlmişkən, Azərbaycan iqtisadiyyatı 2023-cü ildə 1,1 faiz artıb, orta illik inflyasiya isə 8,8 faiz səviyyəsində olub.

## Mingəçevir Sənaye Parkı ixracı genişləndirir

**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Mingəçevir Sənaye Parkında indiyədək 313 milyon manatlıq məhsul istehsal edilib ki, bunun da 85 faizi (267 milyon manat) ixraca yönəldilib.**




Agentlikdən redaksiyamıza verilən məlumata görə, 26 hektar ərazini əhatə edən sənaye parkının əsas fəaliyyət istiqaməti tekstil və yüngül sənayenin inkişaf etdirilməsidir. Hazırda parkın 1 rezidenti ("Mingəçevir Tekstil" MMC) var. Müəssisədə Almaniya, İsveçrə, Yaponiya və Türkiyə texnologiyaları əsasında "Ring" və "Open End" üsulları ilə iplik istehsal edilir.

İndiyədək parka 159 milyon manat investisiya yatırılıb, 500-dən çox daimi iş yeri yaradılıb. İstehsal olunan məhsullar daxili bazara satılmaqla yanaşı, "Made In Azerbaijan" brendi ilə Türkiyə, Rusiya və s. ölkələrə ixrac olunub.

Xatırladaq ki, cari ilin yanvar-oktyabr aylarında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye zonalarında 27 sahibkarlıq subyektinə rezident statusu verilib. Bunlardan 13-ü Ağdam Sənaye Parkının, 6-sı "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, 2-si Sumqayıt Kimya Sənaye Parkının, 1-i Pirallahı Sənaye Parkının, 1-i Hacıqabul Sənaye Parkının, 2-si Masallı Sənaye Məhəlləsinin, 2-si Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınıb.

Qeydiyyata alınmış rezidentlər tərəfindən sənaye zonalarına, ümumilikdə, 213 milyon manatdan çox investisiyanın yatırılması, 2600-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, indiyədək adıçəkilən agentliyin idarəçiliyində olan sənaye zonalarında investisiya həcmi 7,82 milyard manatdan artıq olan 129 sahibkarlıq subyektinə rezident statusu verilib.

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatın bütün sahələrində, eləcə də sənayenin inkişafında böyük uğurlar əldə edir. Bu gün iqtisadi fəallığın artırılması, dayanıqlı inkişafın təmin olunması məqsədilə ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal obyektlərinin, sənaye parklarının yaradılması da intensiv xarakter daşıyır.

Qeyri-neft sektorunda nəzərə çarpan müsbət dinamika həm də ölkəmizdə uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların geniş cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib.

Sənaye parklarının yaradılmasında əsas məqsəd innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafına, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılmasına və mövcud sahədə sahibkarlığın dəstəklənməsinə nail olmaqdır. Eyni zamanda, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlər də qarşıda mühüm vəzifələr kimi durur.

Qarabağın dirçəlməsində də sənayeləşmə siyasətinə mühüm önəm verilir. Başqa sözlə, işğaldan azad edilmiş ərazilərimizdə sənaye parklarının yaradılması və bu sahəyə investisiya cəlb olunması bölgənin resurslarından, həmçinin iqtisadi imkanlardan yararlanmaqla Qarabağın ölkə iqtisadiyyatına səmərəli reinteqrasiyasına əlavə stimul yaradır.

Düşməndən xilas olunan torpaqlarımızın dirçəldilməsi və sənaye potensialının inkişaf etdirilməsi məqsədilə yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti formalaşdırılıb ki, bu da iş adamlarının sözügedən sənaye zonalarına marağının artmasına səbəb olub.

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə qurucluq və abadlıq işlərinin uğurla həyata keçirilməsi, eləcə də əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi məqsədilə rəqabətqabiliyyətli və dayanıqlı iqtisadiyyatın formalaşdırılması, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafı və zəruri stimulların tətbiqinin xüsusi əhəmiyyəti nəzərə alınaraq dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə Ağdam şəhərində 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb.

## Ölkəmizdə müasir pambıq zavodları tikiləcək

**Yaxın 3 il ərzində xam pambığın innovativ və daha səmərəli emal olunması üçün yeni zavodlar tikiləcək. Bu barədə məlumat verən "Prime Cotton" şirkətinin baş icraçı direktoru Rövşən Mahmudov deyib ki, yeni emal prosesinə keçid nəticəsində tayalarda yığılan pambığın keyfiyyətinin itirilməsinin qarşısı alınacaq.**

Son illər ölkəmizdə istehsal edilən xam pambığın 75 faizinin ixraca yönəldildiyini bildirən direktorun sözlərinə görə, tekstil sənayesinin inkişaf etdirilməsi iplik və tekstil fabrik və zavodlarının fəaliyyətinin genişləndirilməsinə səbəb olacaq. "Belə olduğu təqdirdə biz xam pambığın mahlıc kimi satışını dayandırıb daxili bazara yönəldə bilərik. Bu isə ölkənin tekstil sənayesinin inkişafına müsbət təsir edəcək və yeni iş yerlərinin açılmasına şərait yaradacaq", – deyə o əlavə edib.

Rəhbərlik etdiyi müəssisədə 6,5 minə yaxın iş yerinin yaradıldığını, hətta mövsüm ərzində bu rəqəmin 9 minə çatdığını diqqətə çatdıran R. Mahmudov onu da deyib ki, gələcəkdə iş yerlərinin sayının daha da artırılması nəzərdə tutulur. Bu da öz növbəsində həm ölkə iqtisadiyyatı, həm də regionların inkişafı üçün çox səmərəli olacaq.



## Paytaxtda 81 min yeni mülkiyyət qeydiyyata alınıb

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti cari ilin yanvar-oktyabr aylarında daşınmaz əmlak üzərində 306 min 456 mülkiyyət hüququnu qeydiyyata alaraq çıxarışla təmin edib.**




Dövlət Xidmətinin məlumatına görə, bu göstəricinin 51 min 502-si (16,8 faiz) ilkin, 254 min 954-ü isə (83,2 faiz) isə təkrar qeydiyyatla rəsmiləşdirilib. Eyni zamanda, hesabat dövründə fərdi yaşayış və bağ evi üzərində 51 min 582, mənzil üzərində 70 min 691, torpaq sahəsi 173 min 315, qeyri-yaşayış binası 2855, qeyri-yaşayış sahəsi 7277, əmlak kompleksi 688, çoxmərtəbəli yaşayış binası üzərində isə 48 mülkiyyət hüququnun dövlət qeydiyyatı aparılıb. Bu dövrdə mülkiyyət hüquqlarının 81 min 250-si Bakı şəhərində, qalan hissəsi isə bölgələrdə qeydiyyata alınıb.

## Qeyri-neft ixracı 2,8 milyard dollara yüksəlib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"na əsasən, 2024-cü ilin yanvar-oktyabr aylarında Azərbaycanın qeyri-neft ixracı 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artaraq 2,8 milyard ABŞ dolları təşkil edib. Hesabat dövrü ərzində yeyinti məhsulları 13,6 faiz artaraq 803,1 milyon dollara bərabər olub.**



Cari ilin 10 ayı ərzində şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 61,8 faiz artaraq 35,2 milyon dollar, pambıq lifi 63,9 faiz artaraq 161,4 milyon dollar, bitki mənşəli yağlar və piylər 29,4 faiz artaraq 22,8 milyon ABŞ dollar, kimya sənayesi məhsulları 18,6 faiz artaraq 237,3 milyon dollar, spirtli və spirtsiz içkilərin ixracı 15,8 faiz artaraq 59,4 milyon dollar təşkil edib.

2024-cü ilin yanvar-oktyabr ayları ərzində aqrar məhsullar 5,7 faiz artaraq 603,5 milyon dollara, aqrar-sənaye məhsulları 60,3 faiz artaraq 260,9 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 17,8 faiz artaraq 864,4 milyon ABŞ dolları təşkil edib.

**Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ**

Məmməd Arif Dadaşzadə – 120

# Görkəmli ədəbiyyatşünas, ictimai xadim




**Azərbaycan professional ədəbiyyatşünaslığının yaradıcılarından biri, tərcüməçi, pedaqoq, nasir, ictimai xadim, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Məmməd Arif Dadaşzadənin anadan olmasının 120 illiyi münasibətilə Beynəlxalq Muğam Mərkəzində "Ədəbi üfüqlərdə" adlı bədii-musiqili mərasim keçirilib.**

Yubiley mərasimi akademik Məmməd Arif Dadaşzadənin ömür yolunu işıqlandıran videosüjetin nümayişi ilə başlanılıb.

Sonra Əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Qafar Əsgərzadə alimin ömür yoluna nəzər salıb, yaradıcılığından danışıb. O bildirib ki, ədəbi-mədəni aləmdə Məmməd Arif adı ilə tanınan alim-pedaqoq elmi fəaliyyətində, təhlillərində və qiymətləndirmələrində obyektivliyi, ədaləti, gerçəkliyi qoruyub saxlayıb. Akademik Məmməd Arif Dadaşzadə bir çox elmi-nəzəri kitab, dərslik, yüzlərlə məqalə yazıb, ömrünün təqribən 40 ilini dünya ədəbiyyatından tərcümələrə həsr edib. O, sözün əsl mənasında, ədəbiyyatşünaslıq məktəbi, ədəbi tənqid və tənqidçilər məktəbi yaratmış şəxsiyyətlərdən biridir.

Mərasimdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, Milli Məclisin vitse-spikeri, akademik Rafael Hüseynov və başqaları çıxış edərək bildiriblər ki, dəyərli ziyalı, bütöv bir şəxsiyyət olan Məmməd Arif Azərbaycan ədəbiyyatının və ədəbi dilinin inkişafına çox böyük töhfələr verib. Məmməd Arif Azərbaycan ədəbiyyatı tarixi tədqiqinin əsasını qoyan alimlərdəndir. O, ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi", üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi", ikicildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi" kimi mühüm tədqiqatların müəlliflərindən və baş redaktorlarından biridir. Onun "Azərbaycan xalqının ədəbiyyatı" kitabı ingilis, fars, rus, bolqar dillərində, "Azərbaycan ədəbiyyatı" monoqrafiyası Moskvada çap olunub.

Çıxışlarda görkəmli alimin XX əsr Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslıq elminin inkişafında mühüm xidmətləri vurğulanıb. Məmməd Arif Dadaşzadənin Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun yaranmasında, təşəkkülündə, strukturunun və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində xüsusi rolu olub. Məmməd Arif Dadaşzadə 1938-ci ildən Ədəbiyyat İnstitutunda fəaliyyətə başlayıb, həmin ildən şöbə müdiri, 1939-cu ilin yanvar-sentyabr aylarında direktor müavini vəzifələrində işləyib, iki dəfə bu elm ocağının direktoru seçilib. O, 1960-cı ildən ömrünün sonunadək Elmlər Akademiyasının vitse-prezidenti kimi fəaliyyət göstərib.

Bədii yaradıcılıqla yanaşı, müntəzəm olaraq Məmməd Arif dünya klassiklərinin əsərlərindən bədii tərcümələr edib. Azərbaycan oxucuları rus ədəbiyyatının korifeylərindən L.Tolstoyun "Hərb və sülh", N.Ostrovskinin "Polad necə bərkidi", M.Qorkinin "Dankonun ürəyi", "Makar Çudra", dünya ədəbiyyatından M.Servantesin "Don Kixot" və s. kimi bədii əsərləri Məmməd Arifin tərcüməsində oxuyur.

Əməkdar incəsənət xadimi Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansamblı mərasimi bədi nömrələrlə müşayiət edib. Sonda görkəmli alimin nəvələri Zümrüd və Aqşin Dadaşzadələr babalarının xatirəsinə göstərilən diqqətə görə tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürlərini bildiriblər.

**T.RÜSTƏMLİ**
**XQ**

# Azərbaycan media landşaftı üzrə məlumat bazası

**Mətbuat Şurasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə reallaşdırdığı "Azərbaycan media landşaftı üzrə məlumat bazasının yaradılması" layihəsi çərçivəsində sonuncu – beşinci toplantı keçirilib.**

Tədbiri açan MŞ-nin sədri Rəşad Məcid Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə sözügedən layihəyə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Diqqətə çatdırılıb ki, "Azərbaycan media landşaftı üzrə məlumat bazasının yaradılması" layihəsi 7 ay davam edib. Layihə çərçivəsində Azərbaycan mediasının bütün istiqamətləri üzrə tədqiqatlar aparılıb, sorğular keçirilib. Medianın fərqli istiqamətləri ilə bağlı indiyədək 4 toplantı olub. Bu toplantılarda layihə çərçivəsində görülmüş işlər təhlil olunub, o cümlədən ölkəmizin media məkanı barədə təsəvvür formalaşdıran məlumat bazasının strukturuna dair fikir mübadiləsi aparılıb, təkliflər qruplaşdırılıb.

MŞ İdarə Heyətinin üzvü, "Azərbaycan media landşaftı üzrə məlumat bazasının yaradılması" layihəsinin eksperti Müşfiq Ələsgərli iştirakçıları "Azərbaycanın media landşaftı" kateqoriyasında yerləşdirilmiş yeni məlumatlarla tanış edib. Bu kontekstdə o, layihə çərçivəsində aparılmış "Azərbaycan jurnalist təşkilatları barədə tədqiqat"ın nəticələrini şərh edib. Bildirib ki, "Azərbaycan media landşaftı üzrə məlumat bazası" beynəlxalq standartlara uyğun hazırlanıb.

Toplantıda çıxış edənlər icra olunan layihənin əhəmiyyətindən söz açıb, Azərbaycanın media məkanına aid bilgilərin, araşdırma materiallarının bir ünvanda toplanmasının vacibliyindən bəhs ediblər.

# "Tamahkar" Dərbənd səhnəsində

**Bu günlərdə Dağıstan Respublikasının Dərbənd şəhərində Azərbaycan teatrı adına bir bayram yaşanıb. Qədim diyarda fəaliyyət göstərən Azərbaycan Dövlət Dram teatrında Süleyman Sani Axundovun "Tamahkar" tamaşasının premyerası olub. Əsəri səhnə üçün Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov hazırlayıb.**



Dərbənd Azərbaycan teatrında çoxdan idi ki, belə qələbəlik yaşanmamışdı. Azərbaycan mədəniyyətini sevən hər kəs həmin axşam tamaşanı seyr etmək üçün zala toplaşmışdı. Burda azərbaycanlılarla birgə rus, ləzgi və digər xalqların nümayəndələri də vardı.Teatr onlar üçün birbaşa olaraq rus dilində sinxron tərcümə də təşkil eləmişdi. Qeyd edək ki, səhnə əsərindəki mahnılara yazılan şeir parçaları da quruluşçu rejissora məxsusdur.

Dərbənddən yenicə qayıtmış Firudin Məhərrəmovla onun yaradıcılıq uğurlarını daim izlədiyimiz Sumqayıt teatrında görüşdük. Növbəti məşqdən imkan tapıb bizimlə söhbət etdi.

Firudin Məhərrəmov bəxtinə Mədəniyyət və İncəsənət Universitetində Mehdi Məmmədov, Azər Paşa Nemətov kimi ustadlardan dərs almaq düşən tələbələrdən olub. Ömrünün yarıdan çoxunu doğma teatrda keçirib. 1997-ci ildən Sumqayıt Dövlət Dram Teatrının baş rejissorudur. Kulturoloq Hafiz Ataxanlının onun həyat və yaradıcılığına həsr etdiyi yeni "Altıncı hücrənin remarkası" kitabında da göstərildiyi kimi, həyatını bu sənət məbədindən kənarda təsəvvür edə bilmir. İndiyədək burada 55, ümumiyyətlə isə, 80 tamaşaya uğurlu quruluş verib, 30-dək səhnələşdirdiyi yubiley təqdimatı olub. Neçə-neçə film ssenarisi yazıb. İllərdir ki, o, Sumqayıtda keçirilən dövlət səviyyəli tədbirlərin ssenari müəllifi və quruluşçu rejissoru kimi də yorulmaz fəaliyyət göstərir. Sırf sənət uğurlarına gəlincə, dəfələrlə beynəlxalq festivalların qalibi olub. "Tərəqqi", "Teatr xadimi", "Sənətkar" medalları ilə, 2 dəfə "Qızıl Dərviş" mükafatı ilə təltif edilib. Eyni zamanda Prezident mükafatçısı olan Xalq artisti yaradıcılığının ən parlaq dövrünü yaşayır.

***– Firudin müəllim, "Tamahkar"ın Dərbənd "sərgüzəşti"ni necə dəyərləndirmək olar? – deyə ona ilk sualımızı verdik.***

– Əvvəla onu deyim ki, dəvətlə getdiyim Dərbənddə Azərbaycan teatrı üçün tikilən yeni bina hələ istifadəyə verilmədiyindən "Tamahkar"ın premyerası Ləzgi Dövlət Dram teatrının binasında nümayiş olunurdu, – deyə cavab verdi. – Tamaşada milli koloritlə əhatə olunmuş hər bir oynaq, ritmik səhnənin seyrçi alqışları ilə mükafatlandırıldığını da fəxrlə bildirirəm. Musiqi və mahnı parçaları tamaşaya xüsusi ovqat qatırdı. Orada hər an hamı tərəfindən özümə qarşı bir doğmalıq hiss edirdim.

***– Əvvəllər də sizin başqa teatrlarda işləriniz uğurla səhnəyə qoyulub. Bəs, Dərbənd teatrının tamaşaya cəlb olunan aktyor heyətinin oyunundan necə, razı qaldınızmı?***

– Bəli, istedadlı sənətçilərdir. Tamaşada rolları teatrın aktyorlarından Hörmət Aslanov, Əli Ağalarov, Səidə Əliyeva, Sərxan Səmədov, Dağıstan Respublikasının əməkdar artistləri Əfsanə Məlikova, Məhərrəm Ömərov, Rəhilə Ömərova, Mahir Məlikov, Əlimovsüm Abbasov ifa edirdilər. Hər biri üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdi. Tamaşa qədim şəhərin ictimaiyyəti tərəfindən Dərbənd Azərbaycan teatrının böyük uğuru kimi dəyərləndirildi.

***– Bir neçə kəlmə də rəhbərlik etdiyiniz Sumqayıt teatrındakı son işlər barədə məlumat verərdiniz.***

– Bildiyiniz kimi, bu günlər Sumqayıtın 75 yaşı qeyd olunur. Yubileylə bağlı teatrımızda Əməkdar incəsənət xadimi Əli Əmirlinin şəhərin tarixindən, quruculuq salnaməsindən bəhs edən "Sevgilim Sumqayıt" tamaşası hazırlanıb və repertuarımızda önəmli yer tutur. Son işlərdən biri də elə həmin müəllifin 44 günlük Vətən müharibəsində Qələbəmizi tərənnüm edən "Xeyir xəbər" tamaşasıdır. Bu əsər rejissor Fuad Cavadzadənin quruluşunda yenicə nümayiş olunub.

Onu da xatırladım ki, bu il həm də bizim teatrımızın 55 illidir, yəni ikiqat bayram ovqatındayıq. 8 noyabr – Zəfər Günü münasibətilə Hafiz Ataxanlının qələmə aldığı, mənim quruluş verdiyim "Missiya" mistik qəhrəmanlıq dramı uğurla nümayiş etdirildi. İfaçılarımızı hər kəs ayaq üstə alqışlayırdı. S.Mrojekin "Mühacirlər" əsəri əsasında rejissor Ümid Abbasın quruluş verdiyi "Mənfi 1" tamaşası da uğur siyahımıza yazıla bilər. Növbədə Kamran Nəzirlinin "Narkoman" əsərinin tamaşasıdır, ayın sonunda oynanılacaq. Kiçik yaşlı tamaşaçılar üçünsə "Sehrin gücü" hazırlanıb. Repertuarımızda bir sıra başqa əsərlər də yer alıb.

**Müsahibəni hazırladı:**
**Ə.DOSTƏLİ**
**XQ**

Şəhidin doğum günü

# Atasının döyüşdüyü yerdə şəhid olan oğul

**– Heç kim bizə azadlıq verə bilməz. Heç kim bizə işğal olunmuş torpaqlarımızı qaytarmayacaq. Əgər cəsarətimiz varsa, əgər torpaq qeyrəti çəkiriksə, ölümün gözünə dik baxaraq yurd yerlərimizi qaytarmalıyıq. Bu sözləri tez-tez təkrar edirdi Fərid. Dedi də, elədi də.**




Abışov Fərid Əlfayım oğlu 1996-cı il noyabrın 28-də Yevlax rayonunun Qoyunbinəsi kəndində anadan olub. Şəhid Rövşən Rzayev adına Qoyunbinəsi kənd tam orta məktəbində təhsil alıb. 2015-ci ildə hərbi xidmətə yola düşüb. Füzulidə hərbi xidmətdə olarkən Aprel döyüşlərində igidliklə döyüşüb. Hərbi xidmətdən qayıtdıqdan sonra müxtəlif yerlərdə çalışıb. Öz çalışqanlığı, əməksevərliyi ilə həmişə seçilib.

Yağı düşmən yeni torpaq sevdasına düşən zamandan Fərid könüllü olaraq 29 sentyabr 2020-ci ildən döyüşlərə qatılıb. Ballıqaya döyüşlərində igidliklər göstərib. Tərtər istiqamətində – ən qızğın nöqtədə şüçəətlə vuruşub. 18 saat fasiləsiz döyüşüb və ayağından yaralanıb. Yoldaşları nə qədər təkid etsələr də, döyüş bölgəsindən ayrılmayıb, yarasını sarıyıb, döyüşə davam edib. İgidlərimiz cəsarətlə Suqovuşan istiqamətində ermənilərin qurdugu 24 postu darmadagın edib irəliləyiblər. Fərid məharətli snayper idi, nişan aldığı hec bir hədəf gülləsindən yayınmazdı.

Çox igid, qoçaq oğlan idi.Torpaqlarımızı mənfur düşmənlərin tapdağından azad etməmiş şəhid olmaq yoxdur, –söyləyirdi Fərid. Amma güllə yağışı, dayanmadan atılan düşmən topları igidin arzusunu yarımçıq qoydu. Fərid 13 oktyabr 2020-ci ildə Ağdərə döyüşləri zamanı şəhid olub. O yerdə ki, I Qarabağ müharibəsi zamanı atası Əlifayım döyüşmüşdü. Fərid dəfn olunan gün anasının ürəyi dəlik-deşik olub, sızıltısını dünya duyub, sanki. Dağ-daş dilə gəlib, Günəş şəhid anasından qaçıb gizlənib. Və ana ürəyi fəryad qoparıb... Nə gözəl deyib sevimli şairimiz Telli Pənahqızı:

*Gül üzlü, şəhid balam,*
*Nuruna qurban olum,*
*Qibləgahıma dönən,*
*Goruna qurban olum,*
*Atəşinə yandığın*
*Qoruna qurban olum,*
*Sən indi qeyrət qalam,*
*Sən mənim Kəbəm, pirim,*
*Qərənfillər qoynunda*
*Uyuyan ilk and yerim.*

Fərid bütün elin-obanın gözyaşları ilə Yevlaxın Şəhidlər xiyabanında dəfn olunub.

Bu günlərdə şəhidin valideynləri Əlifayım kişi və Gülşən xanımla əlaqə saxladım. Əlifayım Abışov 1-ci Qarabağ müharibəsinə könüllü getmişdi, ürəklə vuruşmuşdu və vuruşduğu məkanda oğlu şəhid olmuşdu. O dedi ki, oğul itkisi ağırdır, amma təki Vətən yaşasın, oğul Vətən üçündür.

Ailənin 3 övladı olub. 3-ü də oğlan – Fərid, Nurlan, Fəqan. Nurlan indi Yevlax şəhər Polis İdarəsində serjantdır. 2 övladı var. Fəqan isə 10-cu sinifdə təhsil alır.

Vətəndən söz düşəndə Abışovlar ailəsi həmişə gözəl oğulları Fəridi göz önünə gətirirlər.

İgid, qoçaq, necə deyərlər, sözü özündə, özü özündə, kənddə hər kəsin hörmətini qazanmış bir oğul idi. Öz şəhid izini torpağa salan Fərid Əlifayım oğlu Abışov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Əminə YUSİFQIZI,**
**Əməkdar jurnalist**

# UNESCO-da Azərbaycan rəssamlarının yaşıl sərgisi

**Azərbaycanın UNESCO yanında daimi nümayəndəliyinin təşkilatçılığı ilə qurumun Parisdəki mənzil-qərargahında azərbaycanlı rəssamların sənət əsərlərinin nümayiş etdirildiyi "Dayanıqlı baxış: Daha yaşıl gələcək üçün incəsənət" adlı sərginin açılışı olub.**




Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi səfir Elman Abdullayev sərginin iqlim dəyişikliyinə qarşı mübarizədə ölkəmizin sarsılmaz öhdəliyinin təcəssümü olduğunu bildirib. O qeyd edib ki, Azərbaycanın uğurla ev sahibliyi etdiyi COP29 və onun yekununda əldə olunmuş razılaşmalar beynəlxalq iqlim diplomatiyasında dönüş nöqtəsidir.

Prezident İlham Əliyevin liderliyi ilə ölkəmizin qlobal iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsinə əhəmiyyətli töhfələr verdiyini qeyd edən E.Abdullayev Azərbaycanın COP29-un iqlim danışıqlarında tarixi nəticələrə imza atdığını diqqətə çatdırıb.



Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə elan edilmiş "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunmuş sərgidə Azərbaycanın Xalq rəssamı Sakit Məmmədovun, eləcə də rəssamlar Xanlar Əsədullayev, Aqşin Kazımov, Nihad Ağazadə, Çinarə Baxşıyeva-Qafarova, Mahir Qafarov, Aynur Məmmədova, həmçinin gənc rəssamlar Nazilə Fərzullayeva, Məryəm Abdulla və Nərmin Nəsibovanın əsərləri nümayiş olunub.

UNESCO Baş Konfransının 42-ci sessiyasının sədri Simona Mirela Mikulesku, UNESCO Baş direktorunun mədəniyyət işləri üzrə müavini Ernesto Ottone, Afrika prioriteti və xarici əlaqələr üzrə müavini Firmin Eduard Matoko, təbiət elmləri üzrə müavini Lidia Brito, habelə təşkilat yanında akkreditə olunmuş ölkələrin səfirləri, daimi nümayəndələri və yerli incəsənət nümayəndələri sərginin açılış mərasimində iştirak ediblər.

UNESCO-nun rəhbər nümayəndələri də mərasimdə çıxış edərək mədəniyyətin dayanıqlı inkişafda oynadığı mühüm rolu, habelə UNESCO-nun qlobal problemlərin həlli üçün mədəniyyətdən və yaradıcılıqdan dinamik qüvvə kimi istifadə etmək baxışını vurğulayıblar. COP29-a uğurla ev sahibliyi etdiyinə görə ölkəmizə təbriklər də ünvanlanıb, bu uğurun Azərbaycanın iqlim məsələlərinə verdiyi əhəmiyyətin təzahürü olduğu diqqətə çatdırılıb.

Sərgidə nümayiş olunan əsərlər Azərbaycanın zəngin mədəni irsini və bənzərsiz təbiət gözəlliklərini əks etdirir. Yaşıl ekspozisiya incəsənətin təbliği ilə yanaşı, dayanıqlı gələcək naminə qlobal həmrəyliyin vurğulanması nöqteyi-nəzərindən böyük əhəmiyyət daşıyır.

**XQ**

## 28 noyabr Həsən bəy Zərdabinin xatirə günüdür

# Milli oyanışı istiqlal mübarizəsinə hazırlamış xalq xadimi

**Bu gün Azərbaycan maarifçilik hətəkatını ədəbi-estetik məcradan əməli fəaliyyət relsinə keçirməklə ümummilli oyanışa təkan vermiş, istiqlal mübarizəsi üçün ideya-məfkurəvi zəmin hazırlamış təbiətşünas alim Həsən bəy Zərdabinin əbədiyyətə qovuşmasından 117 il keçir.**

1907-ci il noyabrın 28-də milli mətbuatımızın, teatrımızın, sivil təhsilimizin, xeyriyyəçilik hərəkatının banisinin, bir sıra digər fəaliyyət sahələri üçün təməllər yaratmış Həsən bəy Məlikzadənin xalqın azadlığı və tərəqqisi yolunda şam kimi əritdiyi ömrünün son şöləsi də söndü.

Sağlığında çox da qədrini bilmədikləri, çağırışlarına o qədər də məhəl qoymadıqları, dediklərini axıradək eşitmədikləri, göstərdiklərinə göz dolusu baxmadıqları bu azman insanın yoxluğu bir anın içində xalqı diksindirib ayağa qaldırdı. Bu acı xəbər məhəllədən-məhəlləyə yayılıb insanları küçələrə çıxardı, bir saatın içində dərya kimi dalğalanan izdiham yaratdı, çevrəsi anbaan artan milli hüznə çevrildi.

Milli ziyalıların mənəvi atasının cənazəsinə onu oxunduğu Əjdər bəy məscidində, yaşadığı kasıb, darısqal mənzil ünvanı olan kommunal evinin qarşısında və uzun illər deputatı olaraq şəhərin ümumi inkişafına xidmət etdiyi Dumanın qarşısında keçirilən mitinqlərdə Həsən bəy Zərdabinin əzəmətli obrazı qarşısında möhtəşəm təzimlər edildi.

Həsən bəyin açdığı milli mücadilə cəbhəsinin öndə gedən publisistlərindən Əh-

Müasirlərinin xalq xadimi statusu daşımış bu insanı özləri ilə yanaşı, millətin də mənəvi atası adlandırması tamamilə təbiidir.

Bu böyük məslək və əməl adamı həyat yoldaşı Hənifə xanımın yazdığı ilk bioqrafiyaya görə,1837-ci il iyunun 28-də Göyçay qəzasının Zərdab kəndində dünyaya gəlmiş və 1907-ci il noyabrın 28-də Bakıda vəfat etmişdir (bəzi mənbələr 1837-ci il tarixini 1842-ci il kimi qəbul etmişdir). İlk təhsilini Zərdab mollaxanasında alan balaca Həsən sonra Şamaxı qəza məktəbində rus dilində oxumuşdur. Bundan sonra isə bilik mənimsəmə uğurları nəzərə alınaraq Tiflis gimnaziyasında və Moskva İmperator Universitetinin fizika-riyaziyyat fakültəsində təhsil almışdır. Zərdabi Rusiyada ali təhsil alan ilk azərbaycanlı və müsəlman olmuşdur. O, Tiflisdə və Bakıda məmurluq və pedaqoji fəaliyyət göstərmiş, özünə xalqa xidmət missiyası yaradıb bu yolda ömrünü şam kimi əritmişdir.

Həsən bəy hökumət idarələrində uzunmüddətli xidmətinə görə "Müqəddəs Anna" qızıl medalı ilə təltif olunmuşdur. Lakin bu yabançı fəxri nişanı heç zaman yaxasına taxmamışdır. Hətta Qafqaz ca-

li yer tutmuş, Şeyx Şamilin ideya rəhbəri Şirvanlı İsmayıl Əfəndinin oğlu, Osmanlı dövlətində yüksək dövlət vəzifələrində çalışmış, müxtəlif illərdə Şam və Suriya valisi, maliyyə və daxiliyyə naziri və nəhayət, Sultan Əbdüləzizin hakimiyyəti dövründə Osmanlı dövlətinin Baş naziri vəzifəsinə qədər yüksəlmiş Şirvanzadə Məhəmməd Rüşdü Paşa yardımçı olmuşdur. Mətbəə avadanlığı Bakıya çatan kimi Həsən bəy Azərbaycan dilində ilk qəzet olan "Əkinçi"nin ilk nömrəsini hazırlayıb 1875-ci il iyulun 22-də Bakı quberniya mətbəəsində nəşr etdirmişdir.

Qəzetə "Əkinçi" adı təsadüfi verilməmişdir. Bu adda qəzetin kənd təsərrüfatı təmayüllü olmasını düşünmək yanlışlıq olardı. Əsas məqsəd həmvətənlərinin qəlbinə, şüuruna maarif, elm, mədəniyyət toxumu səpib cücərtməkdən ibarət idi. Ən əhəmiyyətlisi odur ki, qəzetdə cəmiyyətin geridə qalma səbəbləri və əhalinin maarifləndirilməsi məsələlərinə dair ciddi, ictimai-siyasi, mənəvi-məfkurəvi məqalələr dərc olunurdu. Nəşr böyük əks-səda doğurdu: qısa müddətdə onun nömrələri təkcə Azərbaycanda deyil, Rusiyada da yayıldı.

"Əkinçi" ana dili probleminə ciddi əhəmiyyət verir və onun təkmilləşdirilməsi məsələlərinə kifayət qədər yer ayırırdı. Qəzet sadə, anlaşıqlı xalq dilində nəşr olunurdu. M.F.Axundzadə "Əkinçi"nin nəşr dili haqqında Həsən bəy Zərdabiyə 21 ap-





məd bəy Ağayev matəm mərasimində öz ustadının cansız bədəninə "Ey ali Ruh!" deyə xitab etdi. Onun məslək dostu Əli bəy Hüseynzadə dedi ki, müsəlman dünyasının qaranlığında ilk şamı bu möhtərəm zat yandırdı. Pedaqoq-publisist Haşım bəy Vəzirov redaktoru olduğu "Təzə həyat" qəzetində çap etdiyi nekroloqda bildirdi ki, 70 yaşa çatmış bu millət fədaisi öz xalqı yolunda bu qədər ki zəhmət və əziyyətlər çəkmişdi, gərək çoxdan ölmüş olaydı.

Vəfalı həyat yoldaşı, məsləkdaşı və silahdaşı, milli ziyalı qadınların mənəvi anası Hənifə xanım Abayeva-Məlikzadə sonralar həmin anlarda düşündüklərini belə ifadə etmişdi: "Bu vaxtadək Azərbaycan türkləri arasında belə bir xadim olmamışdır. Öz xalqını belə fədakarlıqla sevən başqası nə vaxtsa olacaqmı – kim bilir?!". Həsən bəyin pedaqoq qızı Qəribsoltan Məlikzadə isə atası barədə xatirələrində yazmışdır: "Dərin qırışlarla örtülmüş üzlərdə böyük ehtiyac, ümidsizlik və ağır iztirab hissləri bir-birinə qarışmışdı. Bu kasıb insanlar öz qızğın, atəşli müdafiəçiləri və sədaqətli oğulları ilə vidalaşırdılar".

Həsən bəy Zərdabi Azərbaycan tarixində yeni epoxaya vəsilə yaradan nadir şəxsiyyətlərdəndir. O, maarifçiliyi inqilabi demokratiya mərhələsinə qovuşdurmuş, istiqlal mübarizəsinə yol açmış, azərbaycançılıq ideologiyasının ilkin qaynaqlarını formalaşdırmışdır.

nişini Bakıya gələndə xaçşəkilli medalı döşünə taxmamağı üçün özünü xəstəliyə vurmuşdur. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixində əhəmiyyətli bir mərhələni təmsil edir və cəmiyyətdəki rolu dövrün ictimai-siyasi mənzərəsini dərindən əks etdirir. Bir insan kimi yalnız bir həyatı olan Zərdabinin ömür yolunun tarixi isə onlaca fəsillərdən ibarətdir.

Həsən bəy Zərdabi uzun müddət Azərbaycan dilində qəzet nəşr etmək arzusunu reallaşdırmağa səy göstərmiş və ömrünün önəmli bir hissəsini bu yolda sərf etmişdir. Qəzeti millətin intibah göstəricisi kimi dəyərləndirən Zərdabinin ideallarından danışan mətbuat tədqiqatçısı Həmid Vəliyev onun maraq göstərdiyi xarici mətbuat orqanlarından ən birincisinin Böyük Britaniyanın "Tayms" qəzetinin olduğunu yazır. Alim fikirini əsaslandıraraq qeyd edir ki, "Əkinçi" öz problemlərindən yazanda "Times"ı müsbət nümunə kimi göstərirdi. Doğrudan da, Zərdabinin özünün də yazdığı kimi, "Bizim müsəlman tayfasının nə qədər geri qaldığını "Əkinçi" qəzetinə və Londonda nəşr edilən "Tayms" qəzetinə baxmaq ilə bilmək olar".

Həsən bəy qəzet nəşr etmək kimi böyük amalın həyata vəsiqə alması üçün bütün çətinlikləri inadla aradan qaldırmışdır. O, "Əkinçi" qəzetini nəşr etmək üçün türk dilinə uyğun ərəb əlifbalı şrifti İstanbula gedib oradan əldə etmişdir. Bu işdə ona türk dünyasının məşhurları sırasında önəm-

rel 1875-ci il tarixli məktubunda yazırdı: "Sizin qəzetinizin məziyyətlərindən biri də üslub gözəlliyi, məlumatların şərhinin incəliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyüdür".

Əlimərdan bəy Topçubaşovun "Azərbaycanın mayakı" adlı xatirə yazısında Həsən bəy Zərdabi və "Əkinçi" qəzetinin dili ilə əlaqədar söylədiyi fikirlər də diqqəti cəlb edir. O göstərirdi ki, Həsən bəy böyük enerji ilə ana dilinin müdafiəsi üçün səylə çalışırdı: "O, "Əkinçi"də fars və ərəb sözlərindən qaçmağa və müstəsna şəkildə türkcə-azərbaycanca yazmağa çalışırdı; imkan daxilində ən sadə və asan başa düşülən xalq sözləri və ifadələri işlədilirdi".

Qəzetin təsis edilməsi Bakı general-qubernatoru Dmitri Staroselskinin himayəsi sayəsində mümkün olmuşdur. Qubernatorun Həsən bəylə, gürcü əsilli xanımı Yekaterina Quramaşvilinin isə Zərdabinin xanımı Hənifə ilə səmimi münasibətləri olmuşdur. Bu iki ailə arasındakı yaxın əlaqələr nəşri xeyli müddət təzyiqlərdən qorumuş, hətta qubernatorun ailəsi Həsən bəyin layihəsinə maliyyə dəstəyi də göstərmişdir. General Staroselski Bakıdan geri çağırıldıqdan sonra qəzetin fəaliyyəti təhlükə altına düşmüşdür.

Staroselskini əvəz edən vitse-qubernatorun qəzetə və Zərdabiyə xoş olmayan münasibəti çox qısa müddətdə qəzetin vəziyyətini daha da çətinləşdirmişdir. Bu işdə də erməni xəyanəti öz işini görmüşdür. "Əkinçi"nin mürəttibi Minasovun "donos"ları nəticəsiz qalmamışdır. Beləliklə, 1877-ci ilin sentyabr ayında qəzet bağlanmalı olmuşdur. Bu, Həsən bəyin həyatında böyük məyusluq yaratmış və ömrünün son günlərinə kimi nisgil olaraq qalmışdır. Hətta qəzetin bağlanması Zərdabini maliyyə borcu ilə də üzləşdirmişdir. Lakin Həsən bəy maarifçilik işinə olan inamını və həvəsini itirməmişdir.

"Əkinçi" qəzetinin 56 nömrəsi işıq üzü görmüşdür. Lakin bu qısa müddətdə belə Zərdabinin ideyaları cəmiyyətə xeyli təsir göstərmişdir. "Əkinçi" qəzetinin fəaliyyəti dayandırılsa da, onun mətbu yolu və maarifçilik ideyaları davam etmişdir.

"Əkinçi"nin bağlanmasından 20 il sonra – 1897-ci ildə nüfuzlu neft sənayeçisi və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev mətbəə ilə birlikdə rusdilli "Kaspi" qəzetini almışdır. Nəşrin Zərdabinin kürəkəni Əlimərdan bəy Topçubaşova həvalə edilməsi Bakının intellektual elitasının həyatında olduğu kimi, Zərdabinin həyatında da yeni bir hadisə olmuşdur. Bu, Həsən bəyin sevdiyi jurnalistika sahəsinə qayıtmaq imkanı olmuş və o, nəşrin həmredaktoru vəzifəsini üzərinə götürmüşdür.

Moskva Universitetini namizədlik diplomu ilə bitirən Həsən bəy Zərdabi görkəmli ziyalı, naşir və publisist kimi də tanınır. O, yaradıcılığında təbiətin elmi izahına, onun sirlərinin öyrənilməsinə də geniş yer vermişdir. Bakıda dərc olunan "Həyat" və "Kaspi" qəzetlərində Zərdabinin məktəb və tərbiyə, eyni zamanda, anatomiya, fiziologiya, zoologiya məsələlərinə aid və ilk uşaq jurnalı olan "Dəbistan"da "Qarınca", "Bal arısı", "Pişiyə dair", "Kəsəyənə dair", "Qara mala dair", "Su itinə dair" sərlövhəli təbii-elmi və kütləvi məqalələri dərc edilmişdir. "Şərqi-Rus", "Məktəb", "Füyuzat", "İrşad" kimi qəzet və jurnallarda da elmi məqalələri yer almışdır.

Zərdabinin "Yer, su və hava" adlı əsəri coğrafiya və təbiət tarixinə dair mühüm araşdırmaları əhatə edir. Bu əsərdə o, zəlzələ və vulkanların təsirlərini təhlil etmişdir. Xüsusilə, Zərdabi zəlzələnin dağıdıcı təsirinin onun gücündən deyil, davam etmə müddətindən asılı olduğunu müəyyən etmişdir. Sonrakı tədqiqatlar onun əsərindəki bəzi elmi məlumatların dəqiqləşdirilməyə ehtiyacı olduğunu göstərmişdir. Buna baxmayaraq, həmin əsər öz dövrü üçün əhəmiyyətli elmi töhfə hesab olunur.

Həsən bəy Zərdabinin vida mərasimində ailəsinə və övladlarına dəstək olmağı barədə səsləndirilən vədlər unudulmuşdur. Təsəlli burasındadır ki, böyük maarifçilinin yetişdirdiyi milli ziyalıların barmaqla sayılan dəstəsi bu misilsiz, yeri çətin dola biləcək itkini ümummilli matəm kimi qarşılayıb öz müəllimlərinin mübarizə yolunu davam etdirmək üçün qeyrətlə səfərbər olmuşlar. Hənifə xanım isə Həsən bəy vəfat etdikdən sonra Bakı şəhər qadın məktəbinin rəhbəri vəzifəsini həyat yoldaşının arzularına uyğun davam etdirmişdir. O, 1929-cu ildə dünyasını dəyişmiş və milli ziyalıların səyi ilə son mənzilə ehtiramla yola salınmışdır.

Zərdabilər ailəsinin 2 oğlu və 2 qızı olmuşdur. Böyük qız Pərisoltan Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Əlimərdan bəy Topçubaşovla ailə qurmuş, 1919-cu ildə həyat yoldaşı ilə Parisə köçmüş və ömrünün sonunadək orada yaşamışdır. Ailənin böyük oğlu Midhət bəy siyasi repressiyaya məruz qalmışdır. Kiçik oğul Səfvət bəy Türkiyədə yaşamış, Ankaranın baş memarı olmuş, ötən əsrin 60-cı illərində orada vəfat etmişdir. Zərdabi ailəsinin kiçik qızı Qəribsoltan Məlikova Azərbaycanda qalan yeganə varisi kimi müəllimlik etmiş, məhrumiyyətlər içində yaşamışdır. O, 1967-ci ildə vəfat etmiş, məzarı indiyədək baxımsız qalmışdır.

Uzun illər Həsən bəy Zərdabinin yubileyləri keçirilməmiş, irsinə layiqli qayğı göstərilməmişdir. Yalnız müstəqillik dövründə ilk dəfə Həsən bəy Zərdabinin 170 illik yubileyi Prezident İlham Əliyevin 4 iyun 2012-ci il tarixli Sərəncamına əsasən ölkəmizdə geniş qeyd edilmişdir.

Böyük maarifçi-demokrat, xalqımız üçün bir sıra sivil özüllər qurmuş Həsən bəy Zərdabinin parlaq əməlləri, misilsiz xidmətləri illər keçdikcə daha dərindən dərk ediləcək, yeni-yeni qiymətlər alacaq. Onun pak və uca adı xalqa təmənnasız xidmətin bənzərsiz örnəklərindən birinə əbədi bələdçilik edəcək.

**Namiq QƏDİMOĞLU**
**XQ**

# Kəlağayı milli baş örtüyü, bəşəri irsdir

**Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində "İnkişaf" Elmi Mərkəzi və Basqal "Kəlağayı" İpək Mərkəzinin birgə təşkil etdiyi kəlağayı sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyinə həsr olunmuş tədbir keçirildi.**



Mərasimdən öncə Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin bələdçisi Rəfiqə Həsənzadə 3 mərtəbədən ibarət yaradıcılıq mərkəzi, onun fəaliyyəti barədə məlumat verdi, Xalq yazıçısı Maqsud İbrahimbəyovun həyatı və yaradıcılığından danışdı. Bələdçi qeyd etdi ki, Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində həm ədəbiyyat, həm də incəsənətin digər növləri ilə bağlı müxtəlif mədəni tədbirlərin təşkili və keçirilməsi mümkündür. Mərkəzin divarları arasında 20-ci əsrin əvvəlində əfsanəvi ədəbi dərnəklərinin və eyni zamanda, 21-ci əsrin kreativ məkanlarının ab-havası yaradılıb.

Tədbiri giriş sözü ilə açan Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova qonaqları salamladıqdan sonra dedi ki, kəlağayı mədəni irsimizdir, onun qorunması, yaşadılması zəruridir. O qeyd etdi ki, kəlağayı incəliyinə, gözəlliyinə, tibbi baxımdan xeyrinə görə digər baş örtüklərindən fərqlənir. Kəlağayı baş örtüyü olmaqla yanaşı, ismət və sevgi simvoludur.

Kəlağayı konsepsiyasının həmmüəllifi, professor Rəna İbrahimbəyova kəlağayının tarixindən, konsepsiyasından, mədəni əhəmiyyətindən və milliliyindən söz açdı. Təqdimatla çıxış edən professor bildirdi ki, kəlağayısız Azərbaycan qadınını təsəvvür etmək çətindir. Milli xüsusiyyətlərimizin əsas daşıyıcılarından biri olan kəlağayımızdan uzaqlaşmağa, ona biganə yanaşmağa haqqımız yoxdur. Onun sözlərinə görə, orta əsrlərdə Azərbaycanda kəlağayı istehsal edən kiçik müəssisələr mövcud olub. Bu sənət növü tədricən inkişaf etdirilib. Azərbaycanda ipəkçiliyin inkişafı kəlağayı istehsalı ilə birbaşa bağlı olub. Hazırda kəlağayının yeni məzmunla zənginləşdiyini, rəngarəng olduğunu qeyd edən Rəna İbrahimbəyova diqqətə çatdırdı ki, bu prosesdə Birinci xanım Mehriban Əliyevanın danılmaz əməyi var. Məhz onun səyi nəticəsində kəlağayı dünya mədəniyyətində layiqli yer tutub.

"XQ"yə müsahibəsində sabiq diplomat, alim Həsən Həsənov dedi ki, kəlağayının UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsinin 10 illiyi təntənəli şəkildə qeyd edilir. Mədəni irsimizin tanıdılmasında Heydər Əliyev Fondunun xüsusi xidmətləri var. Azərbaycanın zəngin mədəni irsinin ən gözəl nümunələrindən biri sayılan kəlağayı Azərbaycanda qadının təvazökar və zərif dünyasının təcəssümüdür. Həsən Həsənov təklif etdi ki, universitetlərdə mədəniyyətyönümlü ixtisaslarda kəlağayı tədris proqramına daxil edilsin.

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə vurğuladı ki, kəlağayı qədim, milli dəyərləri özündə daşıyır. Dövlət tərəfindən də bu sahəyə diqqət ayrılıb. Heydər Əliyev Fondunu Azərbaycan mədəni irsinin mühafizəsinə yönəlmiş səyləri, kəlağayını yox olmaqdan qorudu.

İncəsənət xadimlərinin, ziyalıların iştirak etdiyi tədbirdə bildirildi ki, kəlağayının UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi yalnız zərgərlik sənəti kimi deyil, həm də Azərbaycan xalqının mədəni irsi və kimliyinin ayrılmaz bir hissəsi olaraq dünya səhnəsində tanınmasını təmin edir.

**Rizvan FİKRƏTOĞLU**
**XQ**

# Bədii sözün təbiət harayı

**Xəbər verdiyimiz kimi, ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ilə əlaqədar Azərbaycan Yazıçılar Birliyi (AYB) təbiət mövzusunda şeirlərdən ibarət "Yaşılım, yaşılım, hara gedirsən" adlı toplu nəşr etdirib.**

**Xalq yazıçısı, AYB-nin sədri Anar kitaba "Dünyanın yaşıllıq həsrəti" adlı Ön söz yazıb. Nəşrin ideya müəllifi AYB sədrinin müavini Rəşad Məcid, tərtibçisi AYB-də multikultural məsələlər üzrə məsul şəxs Xatirə Fərəcli, redaktoru Əməkdar mədəniyyət işçisi şair Vaqif Bəhmənlidir. Oxucular üçün maraqlı olacağını nəzərə alaraq Xalq yazıçısı Anarın toplu üçün yazdığı Ön sözü təqdim edirik.**



## Dünyanın yaşıllıq həsrəti

**Anar, AYB-nin sədri, Xalq yazıçısı**




**Bakıda iqlim problemlərinə həsr olunmuş xalqlararası tədbir ərəfəsində belə bir kitabın çapdan çıxması yerinə düşür. Rəşad Məcidin təşəbbüsü ilə nəşr olunan bu kitab təbiətə həsr olunmuş şeirlər toplusudur.**

Bütün sənət növlərindən təbiətə ən yaxın olan rəssamlıq və poeziyadır. Dağların və meşələrin, dənizlərin və göllərin, çayların və dərələrin təsviri olmasaydı, rəssamlığımız və söz sənətimiz nə qədər kasıb olardı. Eyni zamanda, yağlı ya sulu boyalarla çəkilmiş mənzərələr, ilin rəngini dəyişən fəsilləri, güllərin, çiçəklərin rayihəsi ən incə, ecazkar şeir diliylə vəsf edilməsəydi, insanlar bu gözəllikləri bu qədər dərindən duya bilərdilərmi?

Kitabın adı unudulmaz şairimiz Eldar Baxışın misralarındandır: "Yaşılım, yaşılım, hara gedirsən?". Alimlər dəqiq müəyyənləşdirmişlər ki, haçansa yer üzünün ən böyük səhrası Saxara – yaşıl ormanlardan ibarət imiş. Bu gün dünya həyəcan təbili çalır: Amandır, iqlim dəyişir.

Afrikanın göbəyinə qar yağır, cənub ölkələrinin sakinləri yayda isti dənizdə çimmək üçün şimala üz tuturlar. Dənizlər (Xəzər, Aral), göllər (Urmiya) Qurunun qabağından qaçır, geri çəkilir, get-gedə daralır. Bəlkə bir gün Bakıdan Narginə piyada getməli oldular. Kürreyi-ərzin ciyərləri Braziliyanın Amazon cəngəllikləri Səhrayi-kəbirəmi çevriləcək?

Kosmonavtlar "göyün yeddinci qatından" planetimizə baxanda onu mavi rəngdə görürlər. Bu təbiidir, kürəmizin dörddə üçünü okeanlar, dənizlər tutur. Amma axı yer üzündə narın qumlu sarı səhralar, zirvələri bəyaz qarla örtülmüş dağlar, yam-yaşıl meşələr, bağlar, tarlalar da var... Nədən tör-töküntülər okeanda balıqlara qənim kəsiləndə, nüvə artıqları çayları zəhərləyəndə, gözəl qərənfillərin əndazəsiz çoxluğu (və ifrat gəlir mənbəyi olması), Abşeron torpağının dadını qaçıranda – üzümün, tutun, əncirin, tərəvəzin təmi dəyişəndə Göy Qurşağının bütün rənglərindən daha çox sarının, qırmızının yox, yaşılın həsrətini çəkirik?

"Yaşılım, yaşılım, hara gedirsən?"

Hara qeyb olursan, dünyanın yaşıl libası? Nədən təbiətin qorunması üçün ayaqlananlar məhz yaşıl rəngi rəmz seçdilər. Dünyanın bir çox ölkələrində "Yaşıllar partiyaları" meydana çıxdı və söz sahibi oldular.

Yaşıl həm də İslamın rəngidir. Hər bir böyük dində sağlam meyllərlə bərabər ifrat xurafat da yer alır. Məşhur türk yazıçısı Rəşad Nuri Güntəkin məhz belə xurafatı nəzərdə tutaraq "Yaşıl gecə" romanını qələmə almışdı. Rəşad Nuri Stalin rejimiylə tanış olsaydı yəqin ki "Qırmızı gecə" əsərini yaradardı. (Daha doğrusu "Krasnaya ploşad", "Krasnaya armiya" dilimizə "Qızıl meydan", "Qızıl ordu" kimi çevrildiyi üçün belə bir yazılmamış roman da "Qızıl gecə" adlana bilərdi)

Amma deyəsən mətləbdən uzaq düşdüm. Xalqımızın Yaşıla meyli İslamdan çox-çox qabaqlardan yaranıb.

**Səməni saxla məni**
**İldə göyərdərəm səni.**

Fikrimcə, bu sadədən sadə "məni-səni" qafiyəli misralarda çox ciddi ekoloji problem əks olunub.

Səməni yaşıllığın, cücərib boy verən bərəkətin, ağappaq qış yuxusundan sonra bahar oyanışının, həyatın dirçəlməsinin rəmzidir. Bütün bunlar insanı saxlamağa, qorumağa, yaşatmağa qadirdilər.

Amma Mən – insan da sənin qayğını çəkməliyəm, vaxtı gələndə göyərtməliyəm. İnsanla təbiətin sazişi bax bu sadəlövh beytdə dəqiq ifadə olunub.

Ədəbiyyatımızın Ana "Kitabi Dədə Qorqud" oğuznamələri narın təbiət təsviriylə başlayır:

**Salqum-salqum dan yelləri əsdiyində,**
**Saqqalı bozac turağay sayrıdıqda**
**Ağla qaralı seçilən çağda**
**Köysü gözəl qaya dağlara gün dəyəndə**
**Ala sabah Dirsə xan qalxıbanı yerindən uru durub,**
**Qırx igidin boynuna alıb**
**Bayandır xanın söhbətinə gəlirdi.**

"Kitabi Dədə Qorqud"da qadın gözəlliyini təbiətlə bağlayan ecazkar təşbehlər var:

**qar üzərinə qan dammış kimi al yanaqlım,**
**qoşa badam sığmayan dar ağızlım.**

İnsan taleyinin, insan qismətinin təbiətlə bağlamağın bariz örnəkləri xalq şerimizdə, bayatılarımızda saysız-hesabsızdır.

**Bu dağlar ulu dağlar**
**Çeşməli sulu dağlar**
**Burda bir qərib ölüb**
**Göy kişnər, bulud ağlar**

Təşbehin əzəmətinə heyran qalmamaq olmur,

**Su axdı,su dayandı**
**Süsənbər suda yandı**
**Dərdimi suya dedim**
**Alışdı su da yandı.**

Yaxud ən modern şeiri kölgədə qoya bilən ifadə:

**Əzizim, bəxtiyarım**
**Bəxtimin təxti yarım**
**Üzündə göz izi var**
**Sənə kim baxdı yarım.**

Dirili Qurbaninin bənövşəyə həsr etdiyi qoşması bu bəndlə bitir:

**Qurbanı der: könlüm bundan sayrıdı,**
**Nə etmişəm yarım məndən ayrıdı?**
**Ayrılıqmı çəkmiş boynu əyridi,**
**Heç yerdə görmədim düz bənövşəni.**

Elə bil, Qurbaninin bu qoşmasına Qaracaoğlan cavab verir, bənövşənin boynunun əyri olmasının səbəbini açır.

**Bitirsən güllərin xari içində**
**Qorxuram üzünə batar, bənövşə**
**Yavrum, neçin boynun əyri tutarsan**
**Sənin dərdin məndən betər bənövşə.**
**Qədrini bilməyənlər alır əlinə**
**Onun üçün əyri bitər bənövşə.**

Yeri gəlmişkən, bu kitabın tərtibçiləri çox düzgün olaraq Azərbaycan şairləriylə bərabər topluya ənənəvi şəkildə ancaq Türkiyə sənətkarları sayılan yaradıcıları da daxil ediblər. Bizim Füzulisiz Türkiyə ədəbiyyatı kəm olursa, Yunis İmrəsiz də Azərbaycan şeri bütöv görünməz.

Əgər Azərbaycanın və Anadolunun Orta əsr divan ədəbiyyatı ərəb-fars kəlmələri, izafetləriylə yaxındırsa, el şairlərinin, ozanların, aşıqların misraları cüzi fərqlərlə eyni dilin örnəkləridir. "Çərşənbə günündə çeşmə başında" "alagöz xanıma gözü düşən" Aşıq Ələsgərin qoşmaları, gəraylıları, təcnisləriylə Türkiyəli Aşıq Veysəlin yaratdıqları dil baxımından çoxmu fərqlidirlər?

**Yenə məktub aldım gül üzlü yardan**
**Gözlətmə yolları, gəl deyə yazmış**
**Sirvələn köyündən, bizim diyardan**
**Dağlar mor bənövşə, gül-deyə yazmış.**
**Başərəkdə lalə sümbül yürüdü,**
**Güldədəni çayır-çəmən bürüdü**
**Qaradaşda qar qalmadı, əridi,**
**Axar gözüm yaşı sel – deyə yazmış.**

**Əylənmə qürbətdə yayla zamanı**
**Mevlanı sevərsən ağlatma məni**
**Bənək-bənək məktubdadır nişanı**
**Göz yaşım məktubda pul – deyə yazmış.**

Anadoluya aid yer adlarından başqa Aşıq Veysəlin bu qoşmasını həm də Azərbaycan şeiri saymağa nə əngəl ola bilər? Dağların, çöllərin, çiçəklərin, otların ətri gələn bu qoşmada yalnız bir sözü izah etmək lazımdır, çünki bu söz şeirin bəlkə də ən təsirli təşbehidir. "Pul" Türkiyə türkcəsində "poçt markası" deməkdir. Aşıqın aldığı məktubda poçt markası sevgilisinin bir damla göz yaşıdır.

Aşıq Veysəldən söz düşmüşkən torpağa müraciətlə yazılmış ən gözəl şeirlərdən biri də onun qoşmasıdır:

**Dost-dost deyə neçəsinə sarıldım**
**Mənim sadiq dostum qara torpaqdır**
**Beyhudə dolandım, boşa yoruldum**
**Mənim sadiq dostum qara torpaqdır.**

**Qarnın yardım, qazmaq ilən, bel ilən**
**Üzün yırtdım dırnağınan, əlinən**
**Yenə məni qarşıladı gül ilən**
**Mənim sadiq yarım qara torpaqdır.**

Amma onu da unutmayaq ki, torpaq, təbiət insanın sadiq dostu, hayanı da ola bilər, düşməni, qənimi də.

Bütöv şəhərləri yerlə-yeksan edən vulkanların odu-alovu torpağın təkindən püskürür. Kəndləri, obaları yuyub aparan sellər dağlardan axıb gəlir. Şahə qalxmış dalğaları insan məskənlərinin üstünə yürüdən tufanlar, fırtınalar, sunamilər, tornadolar dənizlərdən quruya hücum çəkir. Qurular da dənizləri, günahsız gölləri qurutmaqla "qisas alırlar". Uduzan yenə də insan olur. Amma axı insanın özünün öz əliylə, əməliylə, zəkasıyla, axtarışları və tapıntılarıyla yaratdığı bəlalar da var.

Bu kitabda toplanan şeirlərin böyük qismi dağlara həsr olunub. Dağlardan sonra şairlərin təbini ən çox coşduran yağışlardır (Kitaba elə mənim də "yağışlı şeirim" daxil olunub).

Amma bu kitaba daxil edilməmiş bir şeir də var. Bu şeir böyük Nazım Hikmətin bəşəriyyətə xəbərdarlığıdır.

**Əcaibləşdi havalar**
**Gah gün çıxır, gah yağış yağır, gah qar,**
**Atom sınaqlarındandır deyirlər**
**Stransium doxsan yağır ətə, südə,**
**Ümidə, hürriyyətə**
**Qapısını çaldığımız böyük həsrətə**
**Öz-özümüzlə yarışdayıq gülüm**
**Ya ölü ulduzlara həyat aparacayıq**
**Ya yerimizə enəcək ölüm.**

Bu gün insanlığın, planetimizin həyatına son qoyacaq nüvə savaşının qara kabusu dünyanın başının üstünü aldığı çağda gözümüzü, qəlbimizi, yaddaşımızı sığallayıb oxşayan yaşıllığa və bu yaşıllığın şeir misralarında vəsfinə daha çox ehtiyacımız var. Bu kitab da həmin ehtiyacdan yaranıb – insanları təbiətin, həyatın, gözəlliyin qədrini bilməyə çağırır.

Yaşıllığı haraylayır.

---

**Sevda İbrahimova – 85**

# Musiqili ömrün həzin melodiyası

**Mərhum Azərbaycan bəstəkarı, Xalq artisti, Əməkdar mədəniyyət işçisi, professor Sevda İbrahimova 2 ildir ki, aramızda yoxdur, amma daim xoş xatirələrlə anılan sənətkarlardan biridir. Onun əsərlərindən biri "Məhəbbət işığı" adlanır. İndi özü həmin işığa bələnib.**

Bəstəkarın musiqiləri təkcə ölkəmizdə deyil, ABŞ, Fransa, İsveç, Almaniya və dünyanın digər ölkələrinin konsert salonlarında səslənir. Bu isə o deməkdir ki, həyat davam edir. AMEA-nın müxbir üzvü, professor, Əməkdar elm xadimi Zemfira Səfərova 15 il əvvəl bəstəkarın 70 illiyinə həsr olunmuş konsertlə bağlı təəssüratlarını qələmə alaraq yazıb: "Konsert zamanı yanımda oturan Sevda xanıma dedim ki, görünür, ifaçılar sizi çox sevirlər, hamısı əsərlərinizə böyük qayğı, məhəbbətlə yanaşdı onları böyük bacarıqla, səmimi qəlbdən ifa etdilər. Sevda xanım gülümsəyərək mənimlə razılaşdı Salon ağzına qədər tamaşaçı ilə dolu idi. Onlar yubilyar bəstəkarı hərarətlə alqışlayır, gül dəstələri bağışlayırdılar. Sonda çıxış edən Sevda xanım konsertin təşkilinə görə öz təşəkkürünü bildirdi və həmişəki kimi, unudulmaz müəllimi Qara Qarayevi minnətdarlıq hissi ilə yad etdi...



Bir dəfə Qara müəllim mənə məsləhət görmüşdü ki, gənc qadın bəstəkarların yaradıcılıqları ilə tanış olum. Bunlar Firəngiz Əlizadə, Afaq Cəfərova və Sevda İbrahimova idi. Hər üçündən yazdım. Sevdanı mən çoxdan tanıyırdım. Eyni vaxtda xüsusi musiqi məktəbində oxumuşduq. Sonralar bu məktəbdə işləmişdik. Birgə fəaliyyətimiz, əməkdaşlığımız sonralar da davam etdi. Mənim böyük xanəndə Cabbar Qaryağdıoğlu haqqında yazdığım "Şərq musiqisinin peyğəmbəri" adlı kitabın redaktoru da Sevda İbrahimova oldu. Məlumdur ki, Cabbar Qaryağdıoğlunun məşhur triosunda uzun illər tarzən kimi Sevda xanımın babası, mahir ifaçı Qurban Pirimov çıxış etmişdi. Sevda xanım sonra mənə təşəkkürünü bildirdi ki, ona sanki keçmiş dövrü yaşatdım.

Onu da xatırladaq ki, Sevda İbrahimova görkəmli yazıçı, dramaturq Mirzə İbrahimovun və pianoçu Sara Pirimovanın qızıdır. Gələcək pianoçu və bəstəkarın musiqiyə sevgisi babası Qurban Pirimovun, eləcə də anasının ifasında dinlədiyi xalq mahnıları və muğamlardan başlayıb. Bülbül adına Orta İxtisas Musiqi Məktəbində aldığı biliklər uğurlarının təməl daşı olub. Orada oxuyarkən həm solo çıxışları ilə, həm də kamera-instrumental musiqi konsertlərində iştirakı ilə püxtələşməyə başlayıb. Hətta Maestro Niyazinin rəhbərliyi ilə simfonik orkestrlə çıxış edib. Erkən yaşlarından ifaçılıq sənəti ilə bərabər, dünya musiqi mədəniyyətinin təcrübəsini, klassik musiqinin milli özəlliklərini mənimsəyib. Beləliklə də, Sevda xanım Hcıbəyli ənənələrini davam etdirən bəstəkar kimi formalaşıb.

Sevda İbrahimova Azərbaycan Dövlət Konservatoriyasının piano (professor Mayor Brennerin sinfi) və bəstəkarlıq (Qara Qarayevin sinfi) fakültələrini bitirib. Onun diplom işi fortepiano ilə orkestr üçün "Poema" olub. Dövlət imtahanında əsərini fortepianoda özünün ifa etməsi gələcək yaradıcılığında bəstəkarlıq istedadını və ifaçılıq məharətini birləşdirəcəyindən xəbər verib. Təsadüfi deyil ki, 1965-ci ildə bu əsər ilk "Zaqafqaziya baharı" musiqi festivalının proqramına daxil edilib və bu dəfə də müəllifin özü tərəfindən ifa olunub.

Bir çox görkəmli musiqiçilərlə yaradıcılıq ünsiyyətində olsa da, bir bəstəkar, nəzəriyyəçi, pianoçu və insan kimi dahi Qara Qarayevi özünün ən böyük müəllimi sayıb. Çoxsaylı yetirmələrini də əsl musiqiçi nümunəsi olan Qara müəllimin yolu ilə getməyə çağırıb.

Sevda İbrahimova təkcə yaradıcılıq irsi ilə deyil, eyni zamanda, pianoçu və musiqi xadimi, gözəl pedaqoq – Bakı Musiqi Akademiyasının metodika və xüsusi pedaqoji hazırlıq kafedrasının müdiri, professor olaraq, gənc istedadlara daim dayaq olması ilə böyük rəğbət qazanıb. Hər zaman ətrafında olanların – kafedra üzrə həmkarlarının və həyat şəraiti, maddi durumu, əhval-ruhiyyəsi ilə yaxından maraqlanıb. Hər kəsə elə incəliklə kömək edib ki, bunu onun ana qayğısı adlandırıblar.

İki operanın, beş fortepiano konsertinin, orqan, tar və orkestr üçün konsertlərin, kantataların, kamera-instrumental və vokal kompozisiyalarının, fortepiano solo üçün çoxsaylı silsilələrin, uşaqlar üçün müxtəlif janrlı əsərlərin, filmlər və tamaşalar üçün musiqilərin müəllifi olub. Qədim hind dastanı əsasında libretto müəllifi Hikmət Ziya olan "Nənəmin nağılları" və "Biri vardı" operalarını musiqi ictimaiyyəti maraqla qarşılayıb və təqdir edib.

Ünlü bəstəkar Vasif Adıgözəlov çıxışlarının birində həmkarının yaradıcılığını belə səciyyələndirib: "Sevda İbrahimova Azərbaycan qadınları arasında ən istedadlı bəstəkardır. Onun yaradıcılığı Azərbaycanın milli-mədəni əlaqələri ilə sıx bağlıdır. O, Mirzə İbrahimov kimi görkəmli bir ziyalının ailəsində böyüyüb boya-başa çatıb, dahi Qara Qarayevin bəstəkarlıq məharəti məktəbini keçib. Tale Sevdanı istedadla, təmiz və açıq ürəklə mükafatlandırıb. Onun yaradıcılığı, məzmunlu daxili aləmi ahəngdar milli üslublu mövzularla, dərin psixoloji obrazlarla zəngindir".

Böyük ədibin övladı olan Sevda İbrahimova sözə, şeir mətnlərinə qeyri-adi tələbkarlıqla, həssaslıqla yanaşan bəstəkarlardan olub. Məhz bu səbəbdən də həmişə ən yüksək poeziya nümunələrinə müraciət edib. Sevda xanımın yaradıcılığında zaman-zaman itirdiyi əzizlərinin xatirəsi də öz əksini tapıb. O, babasının ruhuna "Qurbansız qalan tarım" adlı kamera əsəri yaradıb. Atası Mirzə İbrahimovun sözlərinə "Laylay" nəğməsini bəstələyib. "Əhval-ruhiyyələr" silsiləsindən pyeslərini anası Saranın xatirəsinə həsr edib. Yuxarıda adını çəkdiyimiz "Məhəbbət işığı" adlı pyeslərində isə ömür-gün yoldaşı Arif müəllimi sevgi və nisgillə xatırlayıb.

Sevda İbrahimova 17 iyul 2022-ci ildə 82 yaşında vəfat edib. Gözəl pianoçu, musiqi xadimi, müəllim, başlıcası isə həssas insan kimi onu tanıyanların qəlbində özünə taxt-tac qurub.

***Əli NƏCƏFXANLI***
***XQ***

---

# Eldar Xudiyevin bəstəsi beynəlxalq müsabiqədə mükafata layiq görülüb

**ABŞ-nin paytaxtı Vaşinqtonda yaşayan soydaşımız Eldar Xudiyevin "Sirk" adlı bəstəsi Atlantada keçirilən Beynəlxalq Musiqi Müsabiqəsində Böyük və Qlobal Musiqi mükafatlarında gümüş medala layiq görülüb. Məlumatı Diasporla İş üzrə Dövlət Komitəsi verib.**

Əsərin dirijorluğu müəllifin qardaşı, ABŞ-də fəaliyyət göstərən tanınmış musiqiçi Fərhad Xudiyevə məxsusdur.



Cari ilin dekabr ayında "Sirk"i Vankuver Simfonik Orkestri ilə yanaşı, məhşur klarnet ifaçısı və Yale Universitetinin professoru Devid Şifrin də ifa etməsi planlaşdırılır.

Eldar Xudiyev "Azərbaycan", "Odlar yurduna səyahət", "Arzular", "Payız valsı", "Asiya" və digər əsərlərin müəllifidir. O, musiqi fəaliyyəti ilə əlaqədar 2006-ci ildə ABŞ hökuməti tərəfindən "Xüsusi istedadlı incəsənət nümayəndəsi" tituluna layiq görülüb, eyni zamanda, bir sıra ölkələrin mükafatlarını alıb.

Eldar Xudiyev ABŞ-də təşkil edilən konsertlərdə, mədəni tədbirlərdə Azərbaycanın zəngin musiqi mədəniyyətini daim təqdim və təbliğ edir. O, hazırda Vaşinqtonda uşaq musiqi akademiyasında skripka dərsi keçir.

***P.ƏMİRCANOV***
***XQ***

Yaxın qonşularımız

# Gürcüstanda nələr baş verir?

## *Parlamentin ilk iclası legitim keçirilib*

**Gürcüstanın yeni seçilmiş parlamentinin ilk iclası olub. İclasda yalnız hakim "Gürcü arzusu"nun deputatları iştirak ediblər. 4 müxalifət partiyası isə ali qanunvericilik orqanının binası qarşısında etiraz aksiyası keçirib. Onlar meydana çadırlar, yataq çantaları gətiriblər. Etriazçılar iddia ediblər ki, seçki kampaniyası və səsvermə zamanı ciddi saxtakarlıq olub və bu, "Gürcü arzusu"nun xeyrinə nəticəyə ciddi təsir edib. Onların fikrincə, parlamentin tanınması isə Konstitusiyanın və parlament qaydalarının kəskin pozulmasıdır.**

**Parlamentin ilk iclası müxalifət qüvvələrinin boykot etməsinə baxmayaraq, açılıb. Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İsak Novruzov qonşu ölkədə ictimai-siyasi durumla bağlı XQ-yə müsahibəsi zamanı əvvəlcə bunları dedi:**



– Parlamentə daxil olan 4 müxalifət lideri oktyabrın 26-da keçirilən seçkilərdə total saxtakarlıq olduğunu iddia edərək 11-ci çağırış qanunverici orqanda işləməkdən imtina etdilər. Onlar nəticələrin ləğvini, bu məsələ ilə bağlı beynəlxalq araşdırma aparılmasını, sonra isə yeni seçkilərin keçirilməsini tələb etdilər. Bu səbəbdən də yeni parlamentin iclasının keçirilməsinə qarşı idilər. Müxalifətə dəstək vermək üçün Avropadan 7 dövlətin nümayəndələri– parlament üzvləri, komitə sədrləri də gəlmişdilər. Amma niyyətlərinə nail ola bilmədilər. Parlamentin ilk iclası sakit keçdi.

Etirazçılar parlamentin qarşısında toplaşsalar da, girişi bağlaya bilmədilər. "Gürcü arzusu"nun deputatları çox rahatlıqla iclas salonuna daxil oldular. Əslində, iqtidar partiyası küçədə də qələbə qazandı. Parlament iclası bu qələbəni möhkəmləndirdi.

**– Qərbyönlü müxalifət partiyaları "seçkilərin nəticələri saxtalaşdırılıb", - deyə etiraz edirlər. Dövlət başçısı isə bununla bağlı Konstitusiya Məhkəməsinə müraciət edib. Belə bir şəraitdə iclasın keçirilməsi nə dərəcədə qanuni idi?**

– Gürcüstan Konstitusiyasına görə, prezident yeni parlamentin ilk iclasını çağırmalı və açmalı idi. Amma o bundan imtina etdi. Noyabrın 19-da Konstitusiya Məhkəməsinə müraciət edərək parlament seçkilərində total saxtakarlıq olduğunu bildirdi və yeni seçkinin keçirilməsinin vacibliyini vurğuladı. Müxalifət Konstitusiya Məhkəməsinin iddia ilə bağlı qərar qəbul etməsinədək parlamentin tam səlahiyyətli olmadığını bildirdi. Bu iddialar absurddur.

Yenə də deyirəm, Gürcüstanın 11-ci çağırış parlamenti ölkə Konstitusiyasının 38-ci maddəsinə uyğun olaraq tam legitim şəkildə iclas keçirib. Bu maddədə açıq şəkildə qeyd olunur ki, Mərkəzi Seçki Komissiyasının yekun protokolu elan edildikdən sonra parlament 10 gün ərzində toplana bilər. Bütün iddialar Konstitusiyadan yüksək ola bilməz. Qanun parlament seçkilərinin nəticələrini tanımaqdan imtina edən və yeni parlamentdə işləmək niyyətində olmadığını iddia edən şəxslərin mandatlarını tanıya bilər.

"Gürcü arzusu" koalisiyası parlamentdə səs çoxluğuna malikdir. 150 mandatdan 89-u ona iclası keçirməyə, nazirləri təyin etməyə və qanunlar qəbul etməyə imkan verir. İclasda iştirak edənlər yeni seçilən 150 deputatın hamısının səlahiyyətlərini tanıdılar. Və parlamentin ilk iclasında sədr və onun müavinlərini seçdilər. Şalva Papuaşvili ikinci dəfədir ki, parlamentin sədri seçildi.

**– Deməli, vəziyyət iqtidarın xeyrinədir. Müxalifət bundan sonra nəyə nail ola bilər?**

– Müxalifət parlamentin iclasında iştirak etmək əvəzinə, sadəcə hay-küy yaradır. Hələ də Zurabişvilinin rəhbərlik etdiyi qərbyönlü partiyaların üzvləri (yeni çağırışda onlardan 61 nəfər var) küçələrdə qışqırmaqda davam edirlər. Seçkilərdən ötən bir ay ərzində onlar seçki saxtakarlığı ilə bağlı heç bir ciddi sübut təqdim edə bilməyiblər. Üstəlik, istintaqla əməkdaşlıqdan imtina ediblər.

Ümumiyyətlə, müxalifətin vahid rəyi, konsolidasiyası yoxdur. Eləcə də aydın fəaliyyət planı. Sadəcə danışmağı sevirlər. Düşünürəm ki, zaman-zaman aksiyalar olacaq. Amma bunlar böyük miqyaslı deyil, lokal xarakter daşıyacaq. Parlamentin ilk iclası zamanı müxalifətin etiraz fəallığının pik nöqtəsinə çatacağı gözlənilirdi. Ancaq gördüyünüz kimi, sıraları seyrək idi və iclasın keçirilməsinə mane ola bilmədilər. Zaman keçdikdə bu etiraz aksiyaları da sönəcək.

Əgər müxalifət deputatları mandatlarından imtina etmək istəyirlərsə, bu onların hüququdur. Onların deputatlıq statusundan məhrum edilib-edilməməsi məsələsinə (müraciətləri əsasında) parlament qərar verəcək.

**– Bəs növbəti prezident seçkisi əvvəlkilərdən nə ilə fərqlənəcək və kim prezident seçilə bilər?**

– Konstitusiyaya görə, Gürcüstanda prezident seçkiləri oktyabr ayında keçirilir, lakin seçkilərin tarixi parlament seçkiləri ilə eyni vaxta təsadüf edərsə, yeni seçilmiş parlamentin ilk iclasından sonra 45 gün ərzində prezident seçkiləri keçirilir. Oktyabrın 26-da parlament seçkiləri baş tutub, ilk iclas noyabrın 25-də olub. Konstitusiyaya uyğun olaraq yeni prezidentin seçilmə tarixi də məlumdur. Dövlət başçısını dekabrın 14-də 300 nəfərlik seçki kollegiyası seçəcək. Onu da deyim ki, yeni prezidentin səlahiyyət müddəti 5 ildir. Yaş məhdudiyyətinə gəlincə, yalnız yaşı 40-dan az omyan və ölkədə azı 15 il yaşayan Gürcüstan vətəndaşı prezident seçilə bilər.

**– Salome Zurabişvili Gürcüstanın birbaşa seçilmiş sonuncu prezidentidir. Onun yenidən prezident seçilmək şansı varmı?**

– Bəli, Salome Zurabişvili Gürcüstanın birbaşa seçilmiş sonuncu prezidentidir. O, 2018-ci il noyabrın 28-də "Gürcü arzusu" partiyasının dəstəyi ilə Gürcüstanın 5-ci prezidenti seçilib və dekabrın 16-da inauqurasiya mərasimi baş tutub.

Yuxarıda qeyd etdiyim kimi, yeni prezident artıq birbaşa yox, 300 seçki kollegiyası tərəfindən seçiləcək və namizəd isə ölkə vətəndaşı olmalıdır. Zurabişvili Fransa vətəndaşıdır. Bu şərtlər altında Zurabişvilinin ikinci dəfə prezident seçilmək şansı yoxdur. Bu gün isə o, radikal müxalifət düşərgəsinə keçərək onu seçmiş insanlara qarşı çıxır.

Hazırda "Gürcü arzusu" dövlət başçısı vəzifəsinə öz namizədini təqdim etməyə hazırlaşır. Hakim partiya bunu yaxın vaxtlarda açıqlayacaq. İnanıram ki, gələcək prezident ilk növbədə vətənpərvər, vicdanlı olacaq və vətəninə xidmət edəcək.

***Müsahibəni apardı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Epidemioloji durum

# İstiləşmə virusları da qızışdırır

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Bakıda "Səhiyyə və iqlim dəyişikliyi ilə bağlı yüksək səviyyəli paralel tədbir" adlı panel sessiya keçirilmişdi. Səhiyyə naziri Teymur Musayev "Vahid Sağlamlıq" yüksək səviyyəli COP29-un dəyirmi masasına diqqət çəkərək qeyd etmişdi ki, xəstəliklərin baş verməsini proqnozlaşdırmaq üçün erkən xəbərdarlıq sistemlərinin inkişafı və davamlı səhiyyə sistemlərinin qurulması üçün iqlim dəyişikliyinin təsirlərini minimuma endirilməsi mühüm əhəmiyyət kəsb edir.**



Nazir sağlamlığın təşviqinin milli səviyyədə sağlamlıqla bağlı Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və daha güclü səhiyyə sistemlərinin qurulması üçün vacib olduğunu qeyd etmişdi. O, iqlim dəyişikliyinin təsirlərini minimuma endirə bilən davamlı səhiyyə sistemlərinin qurulması missiyasının uğurla başa çatacağına əminliyini bildirmişdi. Qlobal COP29 başa çatdı. Bizi düşündürən sualla Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazova müraciət etdik:

**– Təyyar müəllim, iqlim dəyişikliyinin insan sağlamlığı ilə hansı əlaqəsi var?**

– ABŞ-nin Havay Universitetinin tədqiqatçıları müəyyən ediblər ki, hazırda məlum olan yoluxucu xəstəliklərin, təxminən, 58 faizi iqlim dəyişikliyi nəticəsində dəyişib. Xəstəlik riskinin artmasına təsir edən ən çox yayılan amil qlobal istiləşmədir. Eyni zamanda, qlobal istiləşmə nəticəsində yaranan quraqlıq və buzlaqların əriməsinin nəticəsi olan daşqınlar bir çox yoluxucu xəstəliklərin artmasına səbəb olur. Quraqlıq zamanı transmissiv xəstəliklərin keçiricisi olan həşəratların ("Aedes", "Anopheles", "Culex" cinsinə aid olan) areal dəyişməsi baş verir. Nəticədə, hemorraqik qızdırmalar, sarı qızdırma, malyariya kimi təhlükəli infeksiyaların geniş yayılması baş verə bilər. Quraqlıq zamanı yaranan tozlu küləklər oftalmoloji xəstəliklərin də artmasına səbəb olur.

Bundan başqa, çayların daşmasından sonra əmələ gələn gölməçələrdə yığılan su kütləsi ağcaqanadların kütləvi çoxalması üçün şərait yaratdığına görə vektorlarla ötürülən xəstəliklərin, məsələn malyariyanın yayılma riskini endemik ərazilərdə artıra bilər. Bu səbəbdən vektorlarla ötürülən yoluxucu xəstəliklər ictimai sağlamlığa uzun müddətli təhlükə yaradır. Daşqınlar sellər ilə nəticələnəndə bir çox infeksiyaların törədici və keçiricilərinin yerdəyişməsi baş verir. Yeni areallarda məskunlaşan həşəratlar yeni biosenozların formalaşmasına, təbii ocaqların dəyişməsinə səbəb olur.

**– İqlim dəyişiklikləri yoluxucu xəstəliklərin yayılmasını sürətləndirirmi?**

– Alimlər araşdırmaların nəticələrinə əsasən bildirirlər ki, insanlara təsir edən mövcud 375 yoluxucu xəstəliyin 218-də iqlim dəyişikliyi səbəbindən xəstəliyin patogenlərinin daha təhlükəli olduğu elmi ədəbiyyatda təsdiqlənib. Qeyd edirlər ki, qarayara, vəba, malyariya kimi xəstəliklərin bəzi hallarda qlobal istiləşmə, quraqlıq, istilik dalğaları, meşə yanğınları, yağışların artması və tufanlar nəticəsində yayılması artdığına görə, demək olar ki, iqlim dəyişikliyi yoluxucu xəstəliklərin artmasını və yayılmasını asanlaşdırıb.

**– Yəqin ki, yağışların çoxalmasının da müəyyən rolu var?**

– Bu, daha çox istiləşmə ilə əlaqədar su ehtiyatlarının balansındakı dəyişikliklərlə bağlıdır. Anomal leysan yağışları çox vaxt içməli su mənbələrinin çirklənməsinə səbəb olur. Bunun nəticəsində sudan qaynaqlanan bağırsaq infeksiyaları, məsələn A və E virus hepatitləri, eşerixioz və s. kimi virus və bakterial yoluxucu xəstəliklərin artımı baş verə bilər.

İqlim dəyişikliyi ilə bağlı yağıntılar, içməli suyun mövcudluğu və keyfiyyətindəki dəyişikliklər su ilə əlaqəli xəstəliklərin tezliyinə təsir göstərə bilər. Dünyanın bir sıra ölkələrində sübut edilib ki, orta aylıq temperaturun yüksəlməsi bakterial dizenteriya, kampilobakterioz, salmonellyoz və digər mədə-bağırsaq xəstəliklərinin artmasına səbəb olur. İçməli suda hələ də yoluxucu agentlərə rast gəlindiyi üçün təhlükəsiz suya çıxış əhalinin sağlamlığının təmin edilməsi üçün son dərəcə vacib məsələ olaraq qalır.

**– Bəs quraqlıq dövrlər necə, yoluxucu xəstəliklərin yayılmasına təsir edirmi?**

– Kəskin iqlim dəyişikliyi yoluxucu xəstəliklərin geniş yayılmasına səbəb olur. Bu barədə Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının yeni hesabatında deyilir. Bildirilir ki, isti mövsüm gənələrin aktivləşməsinə və onların keçirdikləri xəstəliklərin sayının artmasına səbəb olur. Quraqlıq meningit və bir sıra digər infeksiyaların yayılmasına kömək edir. İqlim dəyişikliyi kütləvi miqrasiyaya və şəhər artımına gətirib çıxarır. Bu da, öz növbəsində, epidemiyaların yayılması ilə nəticələnə bilər.

**– Sağlam qidalanma və fiziki aktivliklə iqlim dəyişikliyinin yaratdığı yoluxucu xəstəliklərə qalib gəlmək mümkündürmü?**

– Sağlam həyat tərzinə (sağlam qidalanma, fiziki aktivlik və s.) riayət olunmaqla və yayılan infeksion xəstəliklərdən mümkün qorunma tədbirlərinə əməl etməklə fərdi qaydada şəxsin bu tip infeksiyalara dözümlülüyünü artırmaq olar. Lakin bütövlükdə bu, məsələni həll etmir. İqlim dəyişiklikləri nəticəsində yarana biləcək yoluxucu xəstəliklərin qarşısının alınmasının başlıca yolu dünya ölkələrinin kollektiv səyləri vasitəsilə bu dəyişikliklərin mümkün qədər aradan qaldırılmasıdır.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Uzaqların aydın görüntüsü

**Böyük Britaniya və Mavrikiya arasında 3 oktyabr 2024-cü ildə əldə edilmiş razılaşmaya əsasən Çaqos arxipelaqı Mavrikiyanın tərkibinə verilir və Dieqo Qarsiya arxipelaqı London tərəfindən 99 il müddətinə icarəyə götürülür. Bu sövdələşmə Mavrikiyanın yaşayış olmayan Tromelin adasına mülkiyyət hüququ ilə bağlı mübahisə etdiyi Fransa üçün müəyyən təhlükə yaradır.**

Paris Tromelini Fransanın Cənubi və Antarktika əraziləri daxilindəki Epars adalarının bir hissəsi, Mavrikiyanı isə dəniz adalarının bir parçası hesab edir. Buradan aydın olur ki, Mavrikiya–Fransa mübahisəsinin əsas səbəbləri birbaşa strateji təhlükəsizlik sahəsinə aiddir. Vəziyyəti daha da gərginləşdirən Epars adalarını təşkil edən üç adaya (Qloryoz, Bassas da İndia və Xuan de Nova) Madaqaskarın, hələlik fransızların olan Mayottaya isə Komor adalarının iddia etməsidir.

Eparse adaları Madaqaskarı bir üzük kimi əhatə edir, uzaq bir Avropa aktorunun, indiki halda Fransanın onlara sahibliyi Madaqaskarın tam strateji suverenliyə nail olmasına imkan vermir. Əgər bu adalar Antananarivonun nəzarətinə keçsəydi, Madaqaskarın strateji mövqeyi əhəmiyyətli dərəcədə güclənərdi ki, bu da Antananarivoya Madaqaskarı Şərqi Afrikadan ayıran Mozambik kanalında nəzarət zonasını genişləndirməyə imkan verəcəkdi.

# Fransa Okeaniyanı da itirir?

## *Müstəmləkələri qarət edib varlanmağın sonu yaxınlaşır*



Fransanın Antarktikadakı əraziləri ilə Hind okeanındakı digər mülklərinin birlikdə sahəsi Birləşmiş Ştatların müstəsna iqtisadi zonasından sonra dünyada ikincidir. Fransanın eksklüziv iqtisadi zonasının 93 faizi (9 milyon kvvadratkilometr) 1,5 milyon Fransa vətəndaşının yaşadığı və 8 min fransız hərbi qulluqçusunun yerləşdiyi Hind-Sakit okean regionunda ("Pasifik") yerləşir. Fransanın 18 hərbi attaşesi Hind-Sakit okean regionunun 33 ölkəsində akkreditə olunub.

Fransız qoşunlarının bu ölkənin zəngin Afrika əyaləti sayılan Mərkəzi Afrika Respublikası, Mali, Burkina Faso və Nigerdən biabırçı şəkildə çıxarılmasından sonra regionda Fransanın təsiri də əhəmiyyətli şəkildə azala bilər. Mavrikiyanın daha böyük suverenlik uğrundə səyləri Rusiya, Hindistan, Çin və Afrika Birliyi ölkələrindən dəstək alır. Mavrikiya Prezidenti Prithviraj Ropun 2024-cü ilin sentyabrında BMT Baş Assambleyasında çıxışı zamanı ölkəsinin xarici siyasət mövqeyini gücləndirmək kursunu təsdiqləyib.

2010-cu ildə Paris və Port Lui Tromelin arxipelaqı üzrə elm, iqtisadiyyat və ekologiya sahələrində əməkdaşlıq haqqında saziş imzalasa da, Fransa parlamenti bu sənədi ratifikasiya etməyib. Hər iki paytaxt Mavrikiyanın və onun ətrafındakı kiçik adaların və arxipelaqların Britaniya hökmranlığına keçidini tənzimləyən 1814-cü il Paris müqaviləsinin mətnini diqqətlə araşdırır və qarşılıqlı ərazi iddialarına haqq qazandırmaq üçün ən kiçik məna çalarlarını özlərinə məxsus şəkildə şərh edirlər.

Port Lui hələ 1976-cı ildən Tromelin ərazisinə iddia edir. Ada Madaqaskardan 400 kilometrdən çox, Fransanın Tromelinə və digər ərazilərə nəzarət edən inzibati administrasiyasının olduğu Reunyondan isə 550 kilometr məsafədə yerləşir.

İndi Çin Şərqi Afrikada getdikcə daha da fəallaşır. Bu bölgədə onunla Antananarivo arasında heç bir rəqabət yoxdur, buna görə də Şərqi Afrikadakı Çin–Madaqaskar iqtisadi tərəfdaşlığı olduqca realdır və Qərbin müstəmləkəçilik keçmişindən fərqli olaraq maneələrlə üzləşmir. Pekin Madaqaskarı bölgədə Çin sərmayəsi üçün tramplin kimi görmək istəyir. Madaqaskarlılar isə bunun əleyhinə deyillər.

Paris dəniz ərazilərinin maliyyələşdirilməsini artırmaqla burada hökmranlığını uzun müddətə sürdürməyə ümid bəsləyir. Fransa onillər boyu bu məsələyə etinasız yanaşdığı üçün peşman deyil, ancaq müstəmləkələrin əlindən çıxması ilə barışmaq istəmir. Hazırda Aİ üzvü olan Fransanın xaricdəki mülkləri Avropa Regional İnkişaf Fondu vasitəsilə dəstəklənir.

Frankofonlar Okeaniya əhalisinin yalnız 2 faizini təşkil edir. Burada Fransanın təsirini qorumaq və fransız mədəniyyətini saxlamaq üçün sistemli yanaşma tələb olunur. Lakin Fransa iqtisadiyyatı heç də yaxşı vəziyyətdə deyil. Səbəblərdən biri də Parisin uran, qızıl və digər resurslara bazar qiymətlərindən on dəfə aşağı dəyərlə çıxışı olduğu Afrika Sahelində iştirakının



məhdudlaşmasıdır. Belə bir fakt bir daha təsdiqlənir ki, Avropa (və onunla birlikdə Fransa) kimisə qarət etmədən özünü yedizdirtmək iqtidarında olmayan bir müstəmləkəçidir.

Ekspertlər belə güman edirlər ki, Eparse adaları üzərində nəzarətin itirilməsi domino effekti yaradacaq. Başqa bir fransız koloniyası – Yeni Kaledoniyada yerli əhalinin iğtişaşlarının zor gücünə yatırılmasında sonra Parisin neokolonial idarəçiliyinə müqavimət dalğası həm Okeaniyada, həm də Afrikada getdikcə artmaqdadır.

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

Ləğvetmə prosesində olan "Bakı İxtisaslaşdırılmış Nəqliyyat" ASC səhmdarlarının nəzərinə!

"Bakı İxtisaslaşdırılmış Nəqliyyat" ASC səhmdarlarının növbəti ümumi yığıncağı 11 yanvar 2025-ci il saat 10.30-da keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi.

2. Cəmiyyətin qalıq əmlakının (pul vəsaitinin) səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq edilməsi.

3. Cəmiyyətə məxsus səhmlərinin ləğv edilməsi və dövriyyədən çıxarılması.

4. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək tanış ola bilərlər.

Əlaqə telefonu- 051–306–66–98.

Ünvan- Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Zəki Məmmədov küçəsi 3 .

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 262 (30666) 28 noyabr 2024-cü il, cümə axşamı

# Qonaqlar “İçərişəhər” və “Qala” muzeylərində



**Bakıda keçirilən BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) günlərində İçərişəhər və Qala Qoruğu qonaqların ən çox ziyarət etdiyi məkanlardan olub. Bu müddət ərzində İçərişəhər və Qala qoruqlarında fəaliyyət göstərən muzeylər, mədəniyyət ocaqları və turistik yerlər 12 mindən artıq yerli və xarici turist qəbul edib.**



Muzeylərin xarici ölkələrdən olan ziyarətçiləri arasında Rusiya, Çin və Hindistan vətəndaşları əsas yer tutub. İçərişəhərin UNESCO-nun dünya əhəmiyyətli tarixi abidələr siyahısında olan Qız Qalası və Şirvanşahlar Sarayı, o cümlədən Sıratağlı Dini-Memarlıq Kompleksi, Bəylər məscidi və Yeraltı hamam turistlər tərəfindən ən çox ziyarət edilən yerlərdən olub.



Qala Qoruğunda isə qonaqlar yalnız Abşeronun qədim tarixi və memarlıq abidələri ilə tanış olmaqla kifayətlənməyib, burada fəaliyyət göstərən “Tullantıdan Sənətə” muzeyi və Qurama sərgisinə də maraq göstəriblər.

***Fidan SALMANOVA***
***XQ***

# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

## *2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# Bu gün də yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 28-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın ayrı-ayrı yerlərində leysan xarakterli olacağı ehtimalı var.**



Səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 7-9°, gündüz 9-11° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir.

Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 4-7°, gündüz 8-12° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

***Q.QASIMOV***
***XQ***

**Avroliqa: 5-ci raund**

# Top “Qarabağ”dadır

## *3 xal isə hələ meydanda qalıb*

**Azərbaycan çempionu qızıla bərabər bu xalları fransalı rəqibi “Lion” ilə görüşdə qazanmaq əzmindədir. Bu gün saat 21:45-də başlayacaq oyuna elə ilk dəqiqələrdən Ağdam komandası nəzarət edəcək. Əgər futbolun ayrılmaz parçası olan “Evdə divarlar da kömək edir” anlayışını yada salsaq, gəldiyimiz qənaət ağlabatan məqamdır. Ya da fikrimizi şahmat dili ilə ifadə etsək, “Qarabağ” pley-off mərhələsinə aparan yolun ortalarında meydan sahibi kimi ağ fiqurlarla oynayır. Deməli, bir gediş irəlidəyik və onun üstünlüyündən maksimum fayda götürmək üçün müəyyən zəmin yaranıb.**



Liqa mərhələsinin birinci yarısından sonra rəqiblərin turnir mövqeləri fərqlidir. Əgər “Lion” Bakıya ilk dörd turda qazandığı 7 xalla 9-cu pillədə gəlmişsə, “Qarabağ” qələbələrinin və xallarının hesabını yalnız 4-cü turda aça bilmişdir. Toralla, Zubirin Norveçdə “Bodo Qlimt” ilə görüşdə vurduqları və həmişə onlara minnətdarlıqla xatırlayacağımız iki gözəl qol komandamızı turnir cədvəlində 3 xalla sonuncu, 34-cü yerdən 29-cu pilləyə yüksəltmişdir. Bununla da, azərbaycanlı azarkeşlərin ümidləri də artmışdır. Ardıcıl ikinci qələbəyə böyük ehtiyacımız var. Əgər gözləntimiz doğrulsa, ağlımızdan keçənə ürəkdən sevinsək, turnir cədvəlində yenə xeyli irəliləyişin şahidi ola bilərik. Bunun naminə bu axşam “Tofiq Bəhramov”da gərgin mübarizə vəd edən ağır sınaqda son nəfəsədək döyüşməyə dəyər.

Lionlularla matç sürətlə finişə yaxınlaşmaqda olan 2024-cü ildə sonuncudan əvvəlki oyunumuz olacaq. “Qarabağ” bu il beynəlxalq meydanda son görüşünü dekabrın 13-də İsveçdə “Elfsborq”a qarşı keçirəcək.

Daha iki qarşılaşma artıq 2025-ci ildə baş tutacaq. Ölkə çempionumuz yanvarın 23-də Rumıniyanın FCSB komandasını qəbul edəcək, bundan bir həftə sonra, yanvarın 30-da isə Yunanıstanda “Olimpiakos”un qonağı olacaq.

“Qarabağ” Azərbaycan UEFA Avropa Liqasının pley-off mərhələsinə aparan yolda qətiyyətlidir, əzmkardır, özünə inanır və ümidlə yaşayır. Çoxsaylı pərəstişkarları da ona inam və məhəbbətlərini bu dəfə daha ucadan, həmişəkindən də güclü ifadə etməyə hazırdırlar.

Hamımıza uğurlar!

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

**Sən bir işə bax!**

# Tüksüz və sallaqqulaq pişiklərin sonu?

**Hollandiya “Sfenks” (tüksüz) və “Skottiş fold” (sallaqqulaq) pişiklərə sahib olmağı qadağan edəcək. Bununla bağlı qanun 2026-cı il yanvarın 1-dən qüvvəyə minəcək. Qeyd edək ki, bu pişik cinslərinin artırılması Avropanın əksər ölkələrində qadağan edilib.**



“Skottiş fold”un qeyri-adi xarici görünüşünün səbəbi genetik mutasiyadır. Qulaqların əyri formasına görə məsul olan gen skelet anomaliyalarına səbəb olur. Osteoxondroplaziya inkişaf riski yaranır. Bu xəstəlikdən əziyyət çəkən bala pişikdə sümük və qığırdaq böyüməsi pozulur. Xəstə heyvanda şiddətli ağrılar başlayır.

Məlumata görə, Sfenks cinsindən olan pişiklər isə xəstəliklərə daha çox meyillidirlər. Bədənlərində tük olmayan bu pişiklər dəri problemindən əziyyət çəkirlər. Həm isti, həm də soyuq havalarda özlərini pis hiss edirlər. Bığsız olduqları üçün ətraf mühitə reaksiyaları daha zəifdir.

Azərbaycanda isə belə heyvanlara, əsasən də, “Skottiş fold”a böyük həvəslə sahiblənirlər. Hazırda mutasiyalı sayılan bu heyvanların evlərdə, zoomağazalarda, eləcə də xüsusi yerlərdə artırılmasına heç bir qadağa yoxdur. Onlar bu gün bazarda, təxminən, 200-500 manata satılır.

“Canlı Aləmin Mühafizəsi Alyans” İctimai Birliyinin sədr əvəzi Arzu Gülmalıyeva satış məqsədilə həmin cins heyvanların artırılması ilə bağlı fikirlərini qəzetimizlə bölüşdü:

– İnsanları maarifləndirməyə çalışırıq. Onları başa salmaq istəyirik ki, mutasiyalı heyvanların artırılması cinayətdir. Çox istərdik ki, ölkəmizdə bununla bağlı sərt qanunlar qəbul edilsin. Ümumiyyətlə, satış məqsədilə ev heyvanlarının artırılması qadağan olunmalıdır. Yaxud satış məqsədilə cins it, pişik və digər heyvanların ölkəmizə gətirilməsinə imkan verilməməlidir. Bütün bunlar qanunlarla tənzimlənməlidir.

Heyvansevərlrin müraciəti əsasında IDEA Heyvanlara Qayğı Mərkəzi itləri qısırlaşdırır. Məsələn, son 2 il ərzində Sumqayıtda 500-dən çox it qısırlaşdırmışıq. Amma yenə də gündən-günə çoxalır. Hər gün zəhərləyir, güllələyir, maşınla vurub öldürürlər. Küçələrdə insanların gözü qarşısında heyvanların şiddətə məruz qalması həm ürəkağrıdıcı, həm də utancverici haldır.

Azərbaycanda heyvanlarla rəhmsiz rəftar edilməsinə görə cərimələr çox aşağıdır. İtaliyada heyvanlara qarşı qəddar rəftar edən şəxsləri illərcə həbs cəzası və 10 min avroyadək cərimə gözləyir. Bizdə dəfələrlə heyvanlarla rəhmsiz rəftar edilməsi ilə bağlı faktlar aşkar edilib, ictimailəşdirilib. Videoçəkilişlər aparılıb. Hazırda heyvanlara qarşı amansız rəftara görə cərimələr çox aşağıdır.

Düzdür, son illər Azərbaycanda heyvanlara diqqət və qayğı xeyli artıb. Bunu heyvansevərlər də etiraf edirlər. Onları qorumaq bizim borcumuzdur. Xəstə heyvanları artırmaq isə təbiətin qanunlarına daban-dabana ziddir. Gəlir məqsədilə bununla məşğul olanlara qarşı qanunlar sərtləşdirilməlidir. Heyvanları qorumaq təbiətimizi, dünyamızı və həyatımızı qorumaq deməkdir.

***Leyla QURBANOVA***
***XQ***

**Sağlamlıq**

# Bağayarpağını tanı – sağalt yara-xoranı

**Yabanı bitən və xüsusi becərilməyən bağayarpağından orta əsrlərdə yaraları sağaltmaq üçün istifadə ediblər. Eyni zamanda, bağayarpağı tənəffüs və həzm orqanlarının, reproduktiv və sinir sistemi xəstəliklərini də müalicə edir. Dərman və məlhəm xammalı kimi adətən yarpaqlar, toxum və şirəsindən istifadə olunur.**

Bağayarpağı vitaminlə zəngin olduğu üçün salatlara və yaz şorbalarına da əlavə edilir. Kosmetologiyada onun müalicəvi xüsusiyyətlərindən – sızanaqları, qırışları, yağlı dəriləri və kəpəkləri aradan qaldırmaq üçün geniş istifadə olunur.

Bağayarpağında ürək xəstəliklərində istifadə olunan qlükozid akubinlə yanaşı, kalsium və maqnezium, flavonoidlər və polisaxaridlər, taninlər, fitonsidlər, K vitamini, pektin, askorbin, limon və kumarin turşuları var. Bitkinin, demək olar ki, bütün komponentləri müalicəvi xüsusiyyətlərə malikdir.

Belə ki, polisaxaridlər vitaminlərlə birlikdə toxumaların bərpası prosesini sürətləndirir. K vitamini durulaşdırıcı təsir göstərir. Bitkinin tərkibində olan fermentlər və fitonsidlər tənəffüs yollarının epitelinin qoruyucu funksiyalarını bərpa edir. Flavonoidlər, saponinlər və pektinlər qanda xolesterinin səviyyəsini aşağı salmağa kömək edir.

***Z.HÜSEYNLİ***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

BDU-nun filologiya fakültəsinin 1984-cü il məzunları Yeganə Səfərovaya qardaşı

**NAMİQİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2742
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00